**YƏHYA ABDULLALI**

# Məhkumların Sosial Adaptasiyası

**Məhkumların cəmiyyətə inteqrasiyasının əsasları**

**Bakı – 2024**

**ELMİ REDAKTORLAR:**

**Mayis Əliyev** *(hüquq elmləri doktoru, professor)*

**Ramin Allahverdiyev** *(Respublika Narkoloji Mərkəzinin psixoloqu)*

**RƏYÇİLƏR:**

**Ləman Verdiyeva** *(Xəzər Universitetinin Psixologiya Departamentinin Dosenti, Psixologiya üzrə Fəlsəfə Doktoru)*

**Yəhya Abdullalı. Məhkumların sosial adaptasiyası.** Bakı, 2024, 168 səhifə.

*Bu kitabda məhkumların sosial adaptasiyası məsələsi araşdırılır, onların sosial adaptasiyasına, yəni cəmiyyətə inteqrasiya olmasına kömək və təsir edəcək hallar öyrənilir, müxtəlif kateqoriyalı məhkumların sosial adaptasiyası təsvir edilir. Nəticədə, maraqlı şəxslər, araşdırmaçılar məhkumların sosial adaptasiyası ilə bağlı, məhkumlar isə özləri üçün faydalı olacaq şəkildə müəyyən məlumat əldə edə bilər.*

# MÜNDƏRİCAT

**Ön Söz**...........................................................................***6***
**Giriş**..............................................................................***10***

## *I FƏSİL.* MƏHKUMLARIN SOSİAL ADAPTASİYASININ ÜMUMİ SƏCİYYƏSİ

1.1. Məhkumların sosial adaptasiyasının əhəmiyyəti və anlayışı...........................................................***14***
1.2. Məhkumların reablitasiyasının anlayışı və əhəmiyyəti.....................................................***23***
1.3. Məhkumların sosial adaptasiyası haqqında qanunvericilik.....................................................***30***

## *II FƏSİL.* MƏHKUMLARIN SOSİAL ADAPTASİYASININ TƏŞKİLİ

2.1. Cəza təyini və cəza çəkməkdən azad olunmazdan əvvəl tətbiq edilən tədbirlərin anlayışı, növləri və məhkumların sosial adaptasiyasına təsiri.........................................***39***
2.2. Cəzanın icrasının məhkumların sosial adaptasiyasında rolu.................................................................................***49***
2.3. Şəxsiyyətin sosiallaşması...........................................***74***
2.4. Maslounun "ehtiyaclar piramidası"...............................***91***
2.5. Ailə-cəmiyyət münasibətlərinin məhkumların sosial adaptasiyasına təsiri.........................................................***100***
2.6. Cəza çəkməkdən azad edilmiş şəxslərin məşğulluğunun təmin olunması.........................................................***106***
2.7. Cəza çəkməkdən azad edilmiş şəxslərin yaşayış yeri ilə təmin olunması.........................................................***118***

***III FƏSİL*. MÜXTƏLİF KATEQORİYALI MƏHKUMLARIN SOSİAL ADAPTASİYASI**
3.1. Müxtəlif kateqoriyalı məhkumların sosial adaptasiyasının mərhələləri.........................................................................***124***
3.2. Qadın məhkumların sosial adaptasiyası........................***126***
3.3. Yetkinlik yaşına çatmayan məhkumların sosial adaptasiyası..............................................................................***135***

**Nəticə**..........................................................................***150***
**Ədəbiyyat**.....................................................................***165***

## Ön Söz

*Həqiqətdə cəza bir intiqam vasitəsi yox, bərpaetmə vasitəsidir. Bu mənada onun funksiyası müvafiq olaraq müsbət xüsusiyyətlərin yenidən qazanılması ilə bağlıdır. Belə ki, baş vermiş dəyişiklik, zərər və hadisələrin olmadığı bir vəziyyəti təsəvvür edə bildiyimiz kimi, cəza ilə bu təsəvvür real gerçəkliyin bir parçasına çevrilə, cinayət törədən şəxs mənfi xüsusiyyətlərini dəyişə bilər.*

*Cəza Çəkmə Müəssisəsində cəza çəkən şəxsin həyatı “hərəkət və ətalət” arasında olan münasibətlərin düzgün qurulmasından asılı olduğu qədər, onun cəmiyyətə və cəmiyyətin ona olan təsirindən də asılıdır. Sadə dildə ifadə edilərsə, Cəza Çəkmə Müəssisəsi məhkumun həyatında həm də "yenidən tərbiyə", "fasilə etmə" vasitəsidir.*

*Məhkumun sosial adaptasiya olması da özlüyündə "fasilə" edərək, geri dönüşü təmsil edir. Bu yolda isə dəstək, təlim, güvən, qayğı çox önəmlidir.*

*Hər bir halda məhkumların sosial adaptasiyasını düzgün anlamaq lazımdı. Onun mahiyyətində cinayət törətmiş şəxslərin kor-koranə şəkildə rahatlığının təmin edilməsi durmur. Çünki, məntiqsiz mərhəmət çox ziyanlı ola bilər. Bu məsələnin əsas mahiyyəti cinayət törətmiş şəxslərə qarşı tarazlığın gözlənildiyi münasibətin göstərilməsidir. Necə ki, məntiqsiz çətinlik də faydalı nəticəyə səbəb olmur.*

*Cinayətin törədilməsinə səbəb olan bir sıra amillər vardır. Bütün bu amillər insanın davranışlarına, düşüncəsinə təsir edərək onu mənfi istiqamətdə dəyişir. Həmim amillərin*

*təsiri altında cinayət törədən insan real vəziyyətdə cəzalanmağa "məhkum" olur. Çünki, o mənfi davranış sərgiləyib, onun bunu etməməsi lazımdır və bu səbəbdən də şəxs barəsində cəza tədbirləri tətbiq edilir.*

*Deməli, burada cəzanın bir digər mahiyyəti aydın olur: cəza mövcud qüsurlu vəziyyəti düzəltməlidir. Bunun üçün cəzanın xarakterinin, formasının, mahiyyətinin bu məqsədə yönümlü olması lazımdır, yəni cəza cinayətin törədilməsinə kömək edən səbəblərə yönəlməli, onları aradan qaldırmağı bacarmalıdır.*

*Doğrudur ki, cəzanın əsas məqsədlərindən bir digəri cəmiyyətin, insanların təhlükəsizliyini qorumaqdır. Bu funksiyanı özündə daşıyan cəza növü isə azadlıqdan məhrum etmədir və bu cəza həm də şəxsin cinayi potensialını ifadə etməsinin müəyyən müddətə məhdudlaşdırılmasına yönəlir. Buna baxmayaraq həmin cəzada belə şəxsin islahı mümkün və gözləniləndir.*

*Bəs, məhkumların sosial adaptasiyası bu məsələnin harasındadır?*

*"Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanununun 1.0.3.-cü maddəsində də göstərildiyi kimi, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası özündə onların sosial mühitə uyğunlaşdırılması, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, bu şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə bilən kriminogen amil-*

*lərin qarşısının alınması məqsədilə həyata keçirilən hüquqi, iqtisadi, təşkilati və sosial-psixoloji tədbirləri nəzərdə tutur.*

*Buradan belə nəticə əldə etmək olar ki, məhkumların sosial adaptasiyası əslində cəzanın həqiqi məqsədilə həmrəng olaraq həm də cinayətin törədilməsinə kömək edən amillərin aradan qaldırılması prosesini sürətləndirir. Burada isə eyni qaydada cəzanın effektivliyi hər zaman önəmli yeri tutur. Cəza olmalı, lakin, göstərilən mahiyyəti daşımalıdır. Birinci mərhələdə (yəni ilkin olaraq, cəza çəkdiyi dövr ərzində) şəxs sosial-psixoloji olaraq ikinci mərhələyə, yeni səbəblərin aradan qaldırıldığı həyata hazırlaşdırılmalıdır.*

*Deməli, məhkumların sosial adaptasiyasını effektiv şəkildə təmin etmək üçün iki mərhələdə fəaliyyət göstərmək lazımdır:*

- *İlk öncə cəzanın növü və çəkilməsi/icrası qaydalarına diqqət edilməli;*
- *Daha sonra şəxsin cinayət törətməsinə səbəb olan amillər tam olaraq aradan qaldırılmalı, əldə edilmiş nəticə ilə tanış edilməlidir, azadlığa çıxdıqdan sonra müvafiq tədbirlər görülməlidir.*

*Beləliklə, məhkumların sosial adaptasiyasına bir mərhələ olmaqdan ziyadə, bir nəticə olaraq baxılmalıdır. Bu nəticəyə çatmaq üçün əsas addım cəzanın təyini, icrası, məhkumlarla münasibətin düzgün qurulması zamanı və s. atılır.*

*Buna baxmayaraq, "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanununda məhkumun sosial*

*adaptasiyası yalnız mərhələ olaraq göstərilir. Doğrudur ki, müxtəlif normativ aktlarda cəzanın təyini, icrası məsələləri öz əksini tapır və bütün bunlar məhkumun islah edilməsinə xidmət edir. Məhkumların islah edilməsi isə məqsəd olmaqla öz tərkibində sosial adaptasiyanı nəzərə almalıdır.*

*Məqsəd demişkən qeyd etmək lazımdır ki, məhkumların islah edilməsinə də özlüyündə cəzanın icrası, təyini, hətta ibtidai istintaq zamanı vəzifəli şəxslərin cinayət törətmiş şəxsə olan münasibəti təsir edir. Bu səbəbdən məhkumların islah edilməsini təmin etmək üçün məhkumların sosial adaptasiyası onun tərkib hissəsi olaraq nəzərdən keçirilməlidir.*

## Giriş

*"İstər yaxşı olsun, istərsə də pis, adət edilən şəraitdən uzaqlaşmaq çox çətindir".*

Cinayət məcəlləsi ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin olduğu əməli törətmiş şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş məsuliyyət tədbirinə cəlb edilir. Həmin məsuliyyət tədbirlərinin xarakterindən, ağırlıq dərəcəsindən asılı olaraq cinayət törətmiş şəxslərə qarşı olan hüquqi münasibətlər də fərqli şəkildə özünü göstərir.

Cinayət törətmiş şəxs məhkəmənin hökmü ilə təqsirli hesab edildikdən sonra təqsirli şəxs barəsində cəzasının icrası ilə bağlı müəyyən tədbirlər həyata keçirilir. Həmin tədbirlər isə cəzanın növündən asılı olaraq dəyişir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin *(bundan sonra AR CM)* 42-ci maddəsində nəzərdə tutulmuş cəzaların içərisində ağırlıq dərəcəsinə görə digərlərindən fərqlənən cəza növü azadlıqdan məhrum etmə cəzası hesab edilir. Azadlıqdan məhrum etmə cəzası 3 aydan *(daha yüngül cəza ilə əvəz edildiyi halda 3 aydan da qısa müddətə təyin edilə bilər)* 20 ilə qədər və ya ömürlük təyin edilə bilər.

Şəxsə qarşı məhkəmənin hökmü ilə azadlıqdan məhrum etmə cəzası təyin edildiyi halda, təqsirli şəxs cəzasını çəkmək üçün Cəza Çəkmə Müəssisəsinə *(bundan sonra CÇM)* göndərilir. CÇM-də cinayət törətmiş şəxsə barəsində müəssisənin əməkdaşları tərəfindən rejim qaydalarına uyğun olaraq müəyyən tədbirlər görülür.

Cinayət törətmiş şəxsin CÇM-də qalması müəyyən məh-

rumiyyətlərin yaranması ilə nəticələnir. Belə ki, azadlıqda olduğu kimi istəklərini tam olaraq həyata keçirə bilmir. Azadlıqdan məhrum etmə cəzasının uzun müddətli olması nəticəsində cinayət törətmiş şəxs tədricən həmin məhrumiyyətlərə adət etməyə məcbur olur.

*Doğrudur ki, cəzanın yaratdığı məhrumiyyətlərə adət etmiş cəza çəkən şəxsin azadlığa çıxdıqdan sonra mənfi davranışlarından hər zaman uzaq duracağını demək mümkün deyil. Çünki, daha ağır mühitdən, daha rahat mühitə keçid edildiyi halda keçmiş çətinliklərin unudulması gözlənilən haldır. Lakin, bu "çətinliyin unudulması qorxusu", məhkumu hər zaman çətinlik içində saxlamağa əsas vermir. Sadəcə olaraq cinayət törətmiş şəxs cəza çəkdiyi dövrdə müəyyən müsbət xüsusiyyətlər qazanmalı və onlara adət etməlidir ki, gələcəkdə mənfi davranış sərgilədikdə və ya sərgiləmək istədikdə mənəvi olaraq narahatlıq hiss etsin.*

*Beləliklə, müsbət və ya mənfi olmasından asılı olmayaraq adət edilən mühitdən uzaqlaşmaq çox çətindir. Bu çətinlik isə öz növbəsində adət edilən yerə qayıtma istəyini özündə daşıya bilər.*

Əlbəttə, bu zaman şəxs azad, iradəvi şəkildə geri qayıtmaq istəyini tam olaraq "dilə gətirə", göstərə bilməsə də, azadlıqda qarşılaşdığı çətinliklər onun geri qayıtmasına səbəb ola bilər. Buna səbəb isə cinayətin törədilməsinə kömək edən səbəb və şəraitin aradan qaldırılmaması, şəxsin mütəmadi olaraq həmin "səbəb və şərait" ilə qarşılaşmasıdır ki, bunlar aradan qaldırıldığı halda azadlığa çıxmış şəxsin cinayət törətməsi ehtimalı azala bilər.

Məlumdur ki, cinayət törədən insan azadlığa çıxdıqdan sonra onun barəsində CÇM-də olan rejim qaydaları tətbiq edilmir. Bu zaman fərqli tədbirlərin həyata keçirilməsinə zərurət yaranır ki, bu da sosial adaptasiya adı altında özünü göstərə bilər. Əgər sosial adaptasiya tədbirləri həyata keçirilməzsə islah etmə fəaliyyəti tam olaraq həyata keçirilməmiş olur və məhkum azadlığa çıxdıqdan sonra nəzarətsiz qalır.

Məhkumların sosial adaptasiyası özündə şəxsin cəmiyyətə keçidini, inteqrasiyasını nəzərdə tutur. Şəxsin cinayət törətməsinə kömək edən səbəblər ictimai mühitdə, CÇM-dən kənarda olduğu üçün onun yenidən CÇM-ə qayıtması ehtimalı daha çox olur. Cinayət törətmiş şəxs cəzasını çəkib azadlığa çıxdıqda isə bir çox halda "təhlükə mənbəyi"nə *(cinayətin törədilməsinə kömək edən səbəb və şərait)* geri qayıtmış olur.

*Bu səbəbdən həmin "təhlükə mənbəyi"nin aradan qaldırılması residiv cinayətlərin və ümumiyyətlə cinayətkarlığın sayını azalda, cəza çəkməkdən azad olmuş şəxslərə qarşı ictimai münasibətlərin müsbət yöndə inkişafına təkan verə, daha təhlükəsiz ictimai mühitin formalaşmasına təsir edə bilər.*

*Bütün bunları nəzərə alaraq, azadığa çıxmış şəxsin yenindən cinayət törətməsi ehtimalını azaltmaq üçün məhkumların sosial adaptasiyasına xüsusi diqqət etmək lazımdır. Cinayət törətmiş şəxs hər hansı "problem"in olduğunu öz hərəkəti ilə büruzə verir, mənfi şəkildə diqqət mərkəzində olur və bu səbəbdən müəyyən müddət ərzində diqqət edilməli olan insana çevrilməli, üzərində nəzarət olmalı, dəstək görməlidir.*

Kriminologiya elmindən məlumdur ki, hər bir cinayətin

törədilməsinə kömək edən səbəb və şərait cinayət törədilən ana qədər araşdırılır, öyrənilir və aradan qaldırılır. Buna baxmayaraq məhkumların sosial adaptasiyası kontekstində, cinayət törədildikdən sonra da bunu araşdırmaq, öyrənmək, aradan qaldırmaq lazımdır*. Əks halda məhkumun sosial adaptasiyası ilə bağlı ediləcək tədbirlər uğurla nəticələnməyə, məhkumun islah edilməsində qüsurlar yarana bilər.

Ümumiyyətlə, bu institut dünyaca diqqət edilən tədbirləri özündə birləşdirir, bir çox inkişaf etmiş ölkələrdə məhkumlara münasibətdə sosial adaptasiyaya xüsusi diqqət edilir. Qeyd etmək lazımdır ki, məhkumların sosial adaptasiyası ilə bağlı bir çox beynəlxalq sənədlərdə, "BMT-nin məhbuslarla rəftarın minimal standart qaydaları", Avropa Şurası Nazirlər Komitəsinin iclasında qəbul edilmiş "Avropa Penitensiar Qaydaları"nda və s. müəyyən normalar nəzərdə tutulmuşdur.

Bu səbəbdən humanizm ideyalarını, cinayətkarlıqla mübarizənin əhəmiyyətini nəzərə alaraq bu sahəyə diqqət artırılmalıdır. Bu halları nəzərər alaraq bu kitabda da xüsusi olaraq məhkumların sosial adaptasiyası ilə bağlı nəzəri, təcrübi məsələlərə önəm veriləcəkdir.

*Unutmaq olmaz ki, cinayətkarlıq cəmiyyətin məhsuludur və ona diqqətsizlik ağır nəticələr verə, bu gün xilas edilməyən insanlar gələcəkdə daha ağır cinayətlər törədə bilər.*

---

* *Burada əsas məsələ cinayət törədən, cəza çəkən şəxslərlə fərdi şəkildə kriminoloji aspektdən yanaşmanın, fərdi profilaktikanın həyata keçirilməsi, cəza çəkən şəxsə münasibətdə onun cinayət törətməsinə səbəb olan amillər aşkar edilməsi və aradan qaldırılmasıdır.*

# I FƏSİL
# MƏHKUMLARIN SOSİAL ADAPTASİYASININ ÜMUMİ SƏCİYYƏSİ

## 1.1. Məhkumların sosial adaptasiyasının əhəmiyyəti və anlayışı

*“Cinayət törətmiş şəxs əsl cəzasını azadlığa çıxdıqdan sonra çəkməməlidir”.*

Dövlət cəzalandırma hüququndan istifadə edərək həm cinayətkarlıqla mübarizə aparır, həm də digər şəxslərin təhlükəsizliyini qoruyur. Cəzanın bir məqsədi də islah etmə olduğu üçün cinayət törətmiş şəxslərin islah edilməsini təmin edilir. İslah edilmiş şəxs isə gələcəkdə cinayət törətməyəcək şəxs hesab edilir.

Buna baxmayaraq məlum məsələdir ki, islah etmə üçün yalnız cəza yetərli hesab edilmir. Həmin məqsədlərə çatmaq üçün həm də şəxs cəzasını çəkib azadlığa çıxdıqdan sonra onun barəsində müəyyən tədbirlər görməyə ehtiyac vardır ki, verilən cəza son məqsədinə çatsın və faydalı ola bilsin. *Əks halda cəza faydasız ola və heç bir nəticə verməyə bilər*.

Cəzanın son məqsədinə, yəni islah etmə məqsədinə çatması üçün azadlığa çıxmış şəxsin sosial adaptasiyasına diqqət etmək lazımdır. *CÇM-də cəzasını çəkərək fəaliyyəti, bir sıra hüquqları məhdudlaşdırılan şəxs azadlığa çıxdıqdan sonra cəmiyyətdə də hüquqları CÇM-də olduğu kimi məhdudlaşmamalıdır.* Cəza çəkən və çəkmiş şəxslər də AR vətəndaşları olduqları üçün digər vətəndaşlar kimi onların zəruri

ehtiyacı ödənilməli, islah edilməli, normal yaşayış şəraiti əldə etməli, bir daha cinayət törətməməsi üçün hamılıqla çalışılmalıdır.

*Müasir cinayət hüququnun məqsədi cinayət törətmiş şəxsin cəmiyyətə uyğunlaşmasını təmin etmək, qorumaq və məhkuma qarşıya çıxa biləcək zərərli maneələrdən keçməkdə yardımçı olmaqdan ibarət olmalıdır.*

Dövlət Statistika Komitəsi tərəfindən tərtib edilmiş statistik məlumatlara nəzər saldıqda, 2022-ci ildə qeydə alınmış cinayətlərin sayının 36.811 *(cinayət törətmiş şəxslərin sayı 25,006, məhkum olunanların sayı 16,197 nəfərdir)*[1] olduğu görünür ki, bu da cinayətkarlıqla mübarizəyə, məhkumların sosial adaptasiyasına diqqət edilməli olduğunu göstərir. Stasistika əsasən əvvəllər də məhkum olunanların sayı ümumi məhkumların 22 faizini əhatə edir[2].

Sosial adaptasiya mürəkkəb və uzunmüddətli bir prosesdir. Bu zaman həmin tədbirlər çərçivəsində psixoloq və sosial işçilərin köməyindən istifadə edilməli, qeyri-hökümət təşkilatları *(bundan sonra QHT)* bu sahədə xidmət göstərməli, dövlət qurumları sosial adaptasiyasının təmini məqsədilə səlahiyyətləri çərçivəsində fəaliyyət göstərməlidir.

Cəza-icra hüququ dərsliyində göstərilir ki, "xeyirxahlıq, əməksevərlik, ünsiyyətlilik, mehribanlıq kimi xüsusiyyətlər uğurlu adaptasiya şansını artırır. Azadlıqdan məhrumetmə

---

[1] Azərbaycanda cinayətkarlığın əsas göstəriciləri (2023), https://stat.gov.az/source/crimes/az/002_1.xls (son baxış iyun 15, 2024).

[2] Məhkum olunanların tərkibi (2023), https://stat.gov.az/source/crimes/az/009_4.xls (son baxış iyun 15, 2024).

yerlərində olmaq insanlarda nevrozluq, özünəqapanma, aqressivlik, özünə inamsızlıq kimi əks keyfiyyətlərin formalaşmasına gətirib çıxara bilər. Yalnız bu əks keyfiyyətləri dəf etdikdən sonra cəmiyyətə normal inteqrasiya etmək olar. Ona görə də CÇM-də psixoloqların və sosial işçilərin fəaliyyəti belə mənfi keyfiyyətlərin formalaşmasının qarşısını almağa yönəlməlidir”[3].

“Uğurlu sosial adaptasiyanın əsasını özünə və gələcəyə müsbət münasibət, inam təşkil edir, ona görə də cəza çəkərkən məhkumlarla psixoloji iş son dərəcə vacibdir. Nəticə olaraq insan özünə və güclü tərəflərinə inam qazanır, hədəflər qoymağı və onlara çatmağı öyrənir”[4].

Buna baxmayaraq bu sadalananlar daxili keyfiyyətlər hesab edilir və onların uzun müddətli mövcud olması cəmiyyətin münasibətindən, məhkumun özündən də asılıdır. Bu səbəbdən əhatəli, çoxşaxəli yanaşmaya *(həm maddi, həm də mənəvi keyfiyyətlərin formalaşmasına kömək etmək)* ehtiyac vardır.

Bildirmək lazımdır ki, sosial adaptasiya tədbirləri müsbət tədbirlər hesab edilsə də, buna qarşı tənqidi yanaşmalar da mövcuddur. Bu tənqidlərin əsasında isə bu kimi tədbirlərin faydalı olmaması və yenidən cinayətlərin törədilməsinin qarşısını ala bilməməsi durur.

Buna baxmayaraq bu kimi tənqidlər sosial adaptasiya

---

[3] Селиверситова В.И., Уголовно-исполнительное право: Учебник, (2009).

[4] Сулимова Алина Алексеевна, *Социальная адаптация лиц, освободившихся из мест лишения свободы: барьеры и пути их преодоления*, Научно-методический сборник «Социальная работа: теория, методы, практика», 45, (2012).

tədbirlərindən imtina etməyə əsas vermir. Çünki, tədbirlərin faydalı olmamasının əsas səbəbi, onların doğru şəkildə həyata keçirilməməsidir. Bu kimi tədbirlər cinayətin törədilməsinə kömək edən səbəb və şəraitin aradan qaldırılmasına müəyyən qədər xidmət etdiyi üçün düzgün həyata keçirildiyi halda onların faydalı olacağını məntiqi şəkildə bildirmək olar.

Qeyd edilməlidir ki, sosial adaptasiya tədbirlərinin yüksək səviyyədə həyata keçirilməsi, dövlət tərəfindən CÇM-ə yönəldilən xərclərin azalmasına da səbəb ola bilər.

Cəza çəkməkdən azad edilmiş şəxs cəmiyyətə uğurlu inteqrasiya olduqda məhkumluq sosial-hüquqi mənada başa çatır. Bu baxımdan Azərbaycanda cəza çəkməkdən azad edilmiş şəxslərin ilk növbədə yenidən təkrar cinayət törədərək CÇM-ə "qayıtmasının" qarşısını almaq məqsədilə həmin şəxslər barəsində sosial adaptasiyanın həyata keçirilməsi kriminogen vəziyyətin yaxşılaşmasına, cinayətkarlığın profilaktikasına ciddi təsir göstərə bilər[5].

Mövzunun mahiyyətindən də göründüyü kimi sosial adaptasiya tədbirləri məhkumlara tətbiq edilir. AR CM-in 83.1-ci maddəsinə görə cinayət törətməyə görə məhkum edilmiş şəxs məhkəmənin ittiham hökmü qanuni qüvvəyə mindiyi gündən məhkumluğun götürüldüyü və ya ödənildiyi günə qədər məhkum edilmiş hesab edilir.

Məhkumluğun götürülməsi isə adətən şəxs azadlığa çıxdıqdan uzun müddət sonra baş verir ki, həmin müddət ən

---

[5] Əlizadə C. Ş., *Problems of social adaptation of persons freed from punishment in penitentiary institutions*, "Juridical Sciences and Education", 24 (2020).

çətin anlar olduğu üçün bu vaxt ərzində şəxsin vəziyyətinin nəzərə alınması *(xüsusən, azadlığa çıxdıqdan ilk üç ay diqqətdə saxlanılmalıdır)*, diqqətin artırılması faydalı ola bilər.

Yuxarıda da qeyd edildiyi kimi azadlıqdan məhrum etmə cəzası tətbiq edilən məhkumlara münasibətdə tətbiq edilən sosial adaptasiya tədbirlərinin effektivliyinə fikrimizcə, iki mərhələ təsir edir. Bunlara, penitensiar müəssisələrdə cəza çəkməkdən azad olduğu vaxtdan əvvəl və sonra tətbiq edilən tədbirlər aid edilir.

Cinayət törətmiş şəxslərə qarşı azadlığa çıxmazdan əvvəl tətbiq edilən tədbirlər cəza və cəzanın çəkilməsi, icrası qaydaları ilə əlaqəlidir. Cəza çəkməkdən azad olduqdan sonra tətbiq edilən tədbirlərə isə onun sosial uyğunlaşmasını, cəmiyyətə inteqrasiyasını təmin edəcək və həyat şəraitini yaxşılaşdırıb, cinayətkar hərəkətlərdən uzaqlaşacağı mühiti yaradacaq tədbirlər aid edilir.

Ədəbiyyata nəzər etdikdə, ümumiyyətlə keçmiş məhkumların sosial reabilitasiyasının əsas komponentlərinə aşağıdakıların aid edildiyi görünür[6]:

- düzgün sosial təlimatların seçilməsi bacarıqlarının mənimsənilməsi, məhkumlara, xüsusilə uzunmüddətli azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərə aid olan sosial səriştələrin inkişafı, sosial bacarıqlarla, sosial təminatlarla və layiqli həyat səviyyəsi ilə tanışlıq;

- Sosial reabilitasiyaya cavabdeh olan dövlət və ictimai

---

[6] А.А. Фомин, *Реабилитация Осужденных В Механизме Обеспечения Их Права На Достойное Существование После Отбывания Наказания*, Всероссийский криминологический журнал, 270 (2020).

qurumlar məhkumun cəzasını çəkdikdən sonra ətrafı ilə *(ailə, dostlar, işəgötürənlər və s. ilə)* əlaqə yaratması;

- azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərin əksəriyyətinin azadlığa çıxdıqdan sonra layiqli həyat sürməsi üçün zəruri olan maddi imkanlara malik olmadığı və potensial olaraq aztəminatlı qrupa aid olduğu üçün azadlığa buraxılmış şəxslərin işində və gündəlik həyatında ünvanlı yardımın göstərilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi;

- məhkumun sənədlərinin, o cümlədən onun təhsilini, peşə ixtisasını təsdiq edən, habelə pensiya və ya digər sosial müavinət almaq hüququnu təsdiq edən sənədlərin təhlili;

- məhkumun ağlabatan, zəruri həyat şəraitini təmin edəcək ehtiyacları haqqında təsəvvürlərinin formalaşdırılması, bütövlükdə onun sosial mədəniyyətinin yüksəldilməsi.

Bütün sadalananlardan görünür ki, sosial adaptasiya çoxşaxəli və mürəkkəb tədbir hesab edilir. Burada bir çox elmlər qarşılıqlı əlaqədə fəaliyyət göstərir, şəxs barəsində sosial, psixoloji, tibbi, hüquqi tədbirlər görülür.

Beləliklə, *məhkumların sosial adaptasiyası dedikdə, CÇM-də olan və azad edilən şəxslər barəsində cəmiyyətə normal inteqrasiyasını həyata keçirmək üçün zəruri olan itirilmiş və ya inkişafı həyata keçirilməli olan sosial, məişət və əmək əlaqələrinin, vərdişlərinin bərpasına yönələn sosial-iqtisadi, pedaqoji, hüquqi tədbirlərdən istifadə etməklə tətbiq edilən elə uzun müddətli tədbirlər sistemi başa düşülür ki, nəticədə təklif və tətbiq olunan proqram və xidmətlər sayə-*

*sində cəmiyyətin təhlükəsizliyi təmin edilsin, təkrar cinayətlər azalsın, məhkumların normal həyat şəraiti təmin olunsun və digər müsbət nəticələr əldə edilsin.*

Bu sahədə qəbul edilmiş 31 may 2007-ci il tarixli "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" AR qanunun 1.0.3-cü maddəsinə görə penitensiar müəssisələrdə cəza çəkməkdan azad edilmiş şəxslərin sosial adaptasiyası dedikdə, *penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılması, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, bu şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin və onlara təsir göstərə biləcək kriminogen amillərin qarşısının alınması məqsədilə həyata keçirilən hüquqi, iqtisadi, təşkilati və sosial-psixoloji tədbirlər sistemi başa düşülür*[7].

Bundan əlavə adı çəkilən qanun öz istiqamətini müəyyən etmiş və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin hüquqlarını təmin etməyi, həmin şəxslər tərəfindən residivin qarşısını almağı, azad edilmiş şəxslərin uğurlu sosial adaptasiyasını təmin etməyi, həmin şəxslərə əmək və məişət şəraitinin yaradılmasını, itirilmiş faydalı sosial əlaqələri və münasibətləri bərpa etməyi özünə məqsəd hesab etmişdir.

Beynəlxalq qaydalarda da məhkumların sosial adaptasiyası ilə bağlı müəyyən normalar nəzərdə tutulmuşdur. Belə ki, "Avropa Penitensiar qaydaları"nın "məkhum olunmuş məh-

---

[7] "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu, 1.0.3 (2007).

busların azad edilməsi” adlanan 107-ci maddəsinə əsasən, azad edilməmişdən əvvəl cəza çəkən şəxslərə, penitensiar müəssisədən cəmiyyətdə qanuna itaətli yaşayışa keçməyə imkan verən müxtəlif üsullar və xüsusi proqramlar vasitəsilə köməklik göstərilməli, uzun müddətə azadlıqdan məhrum edilmiş cəza çəkən şəxslərin azad həyata tədricən qayıtmaları üçün tədbirlər görülməlidir. Penitensiar müəssisələr azad olunmuş məhbuslara nəzarəti həyata keçirən, onların cəmiyyətə, xüsusilə ailə həyatına və əməyə qayıtmasına dəstək verən sosial xidmətlərlə və təşkilatlarla sıx əlaqədə işləməlidirlər. Belə sosial xidmət və təşkilatların nümayəndələrinə məhbusların azadlığa hazırlaşmasına kömək göstərmələri və azad edilmişlərlə iş proqramı hazırlamaq məqsədilə penitensiar müəssisələrə daxil olmaq və cəza çəkən şəxslərlə görüşmək üçün hər bir imkan verilməlidir[8].

“BMT-nin məhbuslarla rəftarın minimal standart qaydaları“nın sosial münasibətlər və həbsdən sonrakı monitorinq” adlanan 79, 80 və 81-ci maddələrinə əsasən, məhkumla onun ailəsi arasında münasibətlərin məhkumun və onun ailəsinin mənafeyinə uyğun olaraq saxlanmasına və inkişafına xüsusi diqqət yetirilməli, cəzasını çəkməyə başladığı andan etibarən özünün azadlığa çıxdıqda yönələcəyi həyat şəraitinin yaxşılaşdırılmasına həvəsləndirilməli, yaşayış və məşğulluğuna diqqət göstərilməlidir[9].

---

[8] Avropa Penitensiar Qaydaları, http://www.justice. gov.az/categories/103

[9] Mahpuslara Muameleye Dair Birleşmiş Milletler Asgari Standart Kuralları, https://tihv.org.tr/wp-content/uploads/2020/04/nelson-mandela-kurallari-mahpuslara-muameleye-dair-birlesmis-milletler-asgari-standart-kurallari-turkce.pdf

Tarixən bir sıra xarici dövlətlərin də məhkumların sosial adaptasiyası məqsədilə keçirdiyi tədbirlərə şahid oluruq. Onlar məhkumların "sosial adaptasiyası" adı altında özünü göstərməsə də faktiki olaraq məhkumların cəmiyyətə inteqrasiyasına xidmət edirdi. Bunlardan biri 1920-1930-cu illərin azadlıqdan məhrum etmə cəzasını çəkmiş şəxslər arasında yoxsulluğun qarşısının alınması sahəsində sovet təcrübəsidir:

*Məhkumlar arasında yoxsulluqla mübarizə üzrə dövlətin fəaliyyətinin əsas istiqamətləri RSFSR İslah-Əmək Məcəlləsinin X bölməsində (Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin 16 oktyabr 1924-cü il tarixli qərarı ilə təsdiq edilmişdir) ətraflı müəyyən edilmişdir - aztəminatlı məhkumlara sosial yardım; daimi yaşayış yerinə qayıtdıqdan sonra onlara lazımi dəstəyin göstərilməsi; keçmiş məhkumların güzəştli şərtlərlə müvəqqəti yaşayış yeri ilə təmin edilməsi; iş alətlərinin və zəruri məişət əşyalarının alınması üçün kreditlərin verilməsi; islah-əmək müəssisələrindən azad edilmiş şəxslərin işlə təmin edilməsi; onların peşə və təhsilinin inkişafı*[10].

---

[10] А.А. Фомин, *Реабилитация Осужденных В Механизме Обеспечения Их Права На Достойное Существование После Отбывания Наказания*, Всероссийский криминологический журнал, 271 (2020).

## 1.2. Məhkumların reablitasiyasının anlayışı və əhəmiyyəti

Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin cəmiyyətə inteqrasiyasının mühüm vasitələri kimi "sosial adaptasiya" və "reabilitasiya" anlayışlarından istifadə edilir və onlar fərqli mənalar kəsb edirlər. Belə ki, sosial adaptasiya şəxsiyyətin sosiallaşmasının mühüm mexanizmi kimi çıxış etdiyi halda, *reabilitasiya, artıq itirilmiş iş qüvvəsinin bərpa olunması üzrə fəaliyyəti özündə əks etdirir*[11].

Reablitasiya tədbirləri yalnız pozulmuş fizioloji funksiyaların bərpasına deyil, həm də psixi pozuntuların bərpasına yönəlir. Reablitasiyanı məhkumun sosial adaptasiyasının müəyyən bir mərhələsi hesab etmək olar. Nəticədə, məhkumun sosial adaptasiyası uğurlu həyata keçirilə bilər.

Reabilitasiya latın sözü olub "habilis" - bacarıq, "rehabilis" bərpa edilən bacarıq anlamına gəlir. Tarixi baxımdan yanaşsaq, tibbdən əvvəl ilk dəfə olaraq reabilitasiya anlayışı məhz hüquqi termin kimi orta əsrlərdə fransız hüquqşünas Bleynianus tərəfindən istifadə edilib[12].

AR Ədliyyə Nazirliyinin Kollegiyasının "31" oktyabr 2019-cu il tarixli "21-N" nömrəli qərarı ilə təsdiq edilmiş, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidməti haqqında əsasnamənin "penitensiar xidmətin fəaliyyət istiqamətləri" və "penitensiar xidmətin vəzifələri" adlanan

---

[11] Əlizadə C. Ş., *Problems of social adaptation of persons freed from punishment in penitentiary institutions*, "Juridical Sciences and Education", 23 (2020).

[12] Günel Nağdəliyeva, Reabilitasiya anlayışı, təşəkkülü və inkişafı (2017), https://elibrary.az/docs/jurnal/jrn2017_773.pdf (son baxış iyun 15, 2024).

maddələrinə əsasən penitensiar müəssisələrdə cəza çəkən şəxslərin *reabilitasiyasına* və sosial adaptasiyasına köməklik göstərmək penitensiar xidmətin əsas istiqamət və vəsifəsi hesab edilir.

AR Cəzaların İcrası Məcəlləsinin *(bundan sonra AR CİM)* "probasiya nəzarəti" adlanan 15-1.1 maddəsinə əsasən, probasiya nəzarətini həyata keçirən icra məmurlarının probasiya nəzarəti tətbiq edilən məhkumları islah etmək, sosial adaptasiya və *reabilitasiyasına yönəlmiş tədbirləri həyata keçirmək vəzifəsi vardır.*

"BMT-nin məhbuslarla rəftarın minimal standart qaydalar"nın 25-ci maddəsinə əsasən hər bir CÇM-də məhkumların fiziki və psixi sağlamlığının qiymətləndirilməsi, inkişafı, qorunması və yaxşılaşdırılması, xüsusilə sağlamlıq problemləri və ya onların *reabilitasiyasına mane olan xüsusi sağlamlıq ehtiyacları olan məhbuslarla bağlı vəzifəsi olan səhiyyə xidməti fəaliyyət göstərməlidir*.

Ümumiyyətlər, məhkumların reabilitasiyası onların gələcəkdə cəmiyyətə inteqrasiya olmasında mühüm rol oynayır. Belə ki, iş qüvvəsinin bərpa edilməsi, xəstəliklərin müalicə olunması, xarici görünüşdə olan qüsurların aradan qaldırılması və digər bu kimi tədbirlərin həyata keçirilməsi mənfi ictimai qınaqların aradan qalxmasına, onların sağlam şəkildə əmək fəaliyyəti ilə məşğul olmasına *(fiziki, psixoloji problemləri olan şəxsləri işə götürməkdə işəgötürənlər maraqlı olmaya bilər)* və digər müsbət nəticələrin əldə edilməsinə kömək edə bilər.

Reabilitasiya prosesi, onun forma və metodu hər bir

mərhələdən asılı olaraq dəyişir; məsələn, əgər sağlamlıq imkanları məhdud olan hər hansı şəxslə reabilitasiya işi aparılarsa, ilk mərhələdə məqsəd mövcud məhdudiyyətin, əlilliyin profilaktikası, aradan qaldırılmasıdır ki, bu məhz tibbi reabilitasiyadır. Artıq ikinci mərhələdə fərdlə aparılan psixoloji reabilitasiya nəticəsində onun psixoloji vəziyyəti stabilləşdirilir, mövcud gərginliklər aradan qaldırılır. Üçüncü mərhələdə reabilitasion yanaşma dəyişir, fərdin maraq dairəsinə uyğun əmək qabiliyyətinin aşkarlanması istiqamətində işlər aparılır ki, bu da məhz peşə reabilitasiyasının üzərinə düşür[13]. Beləliklə, reabilitasiya məhz kompleks yanaşma tələb edən bir prosesdir və yalnız bu halda effektiv nəticə verə bilər.

Göründüyü kimi reablitasiyanın həyata keçirilməsi zamanı da kriminoloji yanaşma əsas götürülməlidir. Belə ki, bu zaman şəxsin cinayət törətməsinə səbəb olan amillər, bu mənada onun reablitasiya olunmasına zərurət yaradan hallar müəyyən edilməlidir. Əgər şəxsin cinayət törətməsinə səbəb kimi onun narkotik vasitələrdən istifadə etməsi göstərilirsə, bu zaman tibbi reablitasiyaya, öz psixoloji sağlamlığının bərpa edilməsi məqsədilə psixoloji reablitasiyaya və s. müraciət edilir. Beləliklə, reablitasiyanın həyata keçirilməsi də öz növbəsində cinayət törətmiş şəxsin qüsurlarının aradan qaldırılmasına, bu yolla isə cəmiyyətə uğurlu inteqrasiya olmasına şərait yarada bilər.

Həmçinin, reabilitasiyanın həyata keçirilməsi, təşkili və

[13] Günel Nağdəliyeva, Reabilitasiya anlayışı, təşəkkülü və inkişafı (2017), https://elibrary.az/docs/jurnal/jrn2017_773.pdf (son baxış iyun 15, 2024)

planlaşdırılması zamanı məsələyə mərhələlər üzrə baxılmalıdır. Dəqiq ifadə olunarsa, reabilitasiyanin təşkili zamanı iki mərhələ diqqətə alınmalıdır: cəza çəkməkdən azad olunmazdan əvvəl həyata keçirilən reabilitasyon xarakterli tədbirlər və cəza çəkməkdən azad edildikdən sonra tətbiq edilən tədbirlər.

Beləliklə, reabilitasiyanın əsas məqsədi bu və ya digər şəxsin malik olduğu mövcud fiziki və ya psixoloji məhdudiyyəti aradan qaldırmaq, bərpası mümkünsüz məhdudiyyətlər nəticəsində yaranan mənfi təsirləri minimum həddə çatdırmaq, *penitensiar müəssisələrdən azad edilən şəxslərin cəmiyyətə sağlam adaptasiyası tədbirlərini həyata keçirmək*, fiziki imkanları daxilində onları əməyə cəlb etməklə istedadını üzə çıxarmaqdır[14].

Ən müxtəlif səbəblərdən həyati çətinliklərlə üzləşmiş və müstəqil qərarvermə qabiliyyətini itirmiş şəxsin mövcud vəziyyətdən çıxarılması, onun yenidən sosial həyata adaptə olunması üçün mühüm bir vasitə kimi məhz reabilitasiya tədbirlərinin həyata keçirilməsi, tətbiqi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan reabilitasiya dolğun və öz təsdiqini tapmış məzmuna malik bir neçə növü özündə birləşdirir[15]:

a) orqanizmin hər hansı bir orqan və ya sisteminin itirilmiş funksiyasının, habelə müvəqqəti itirilmiş əmək qabiliyyətinin bərpasını təmin edən tibbi reabilitasiya *(kimyəvi terapiya, fizioterapiya, işıq terapiyası, fototerapiya, maqnit terapiyası,*

---

[14] Günel Nağdəliyeva, Reabilitasiya anlayışı, təşəkkülü və inkişafı (2017), https://elibrary.az/docs/jurnal/jrn2017_773.pdf (son baxış iyun 15, 2024)
[15] Физическая реабилитация (2013), https://academia-moscow.ru/ftp_share/_books/fragments/fragment_21636.pdf. (son baxış iyun 15, 2024).

*su terapiyası və s.);*

b) psixoloji travma almış fərdin mövcud vəziyyətinin yaxşılaşdırılması, özünüdərk və itirilmiş şəxsi keyfiyyətlərin bərpası, habelə fiziki imkanları məhdud şəxslərin sosiallaşması, bu və ya digər səbəbdən cəmiyyətdən təcrid olunmuş şəxslərin yenidən cəmiyyətə sağlam adaptasiyasına xidmət edən sosial-psixoloji reabilitasiya *(psixo-pedaqoji diaqnostika, psixo-pedaqoji korreksiya və s.);*

c) psixoloji aspektdən reabilitasiya pasiyentin psixoloji vəziyyətinin korreksiyasına yönəldilməklə onda müalicə ilə bağlı hər hansı fikrinin formalaşdırılması, həkim məsləhətləri, habelə reabilitasiyanın qarşıya qoyduğu mühüm tədbirlərə əməl edilməsi məsələlərini birləşdirir;

d) əlilliyi olan şəxslərdə əmək qabiliyyətinin aşkara çıxarılması, habelə fərdin fiziki imkanlarına uyğun peşəyə yiyələnməsinə xidmət edən peşə reabilitasiyası;

e) özünütəkmilləşdirmə, özünütəhsil və özünütərbiyə kimi mühüm amillərin bərpasında pedaqoji yanaşmanı təmin edən sosial-pedaqoji reabilitasiya *(uşaqlara özünəxidmət və təmizlik bacarığının öyrədilməsi, evdə və ictimai yerlərdə davranış qaydaları və s.);*

Pasiyentlərin tam olaraq müalicə oluna bilməsi üçün özlərinin istək və razılığına ehtiyac duyulduğu kimi, məhkumların da reabilitasiyasının faydalı olması üçün onların daxili istək və razılığına ehtiyac vardır. Bu səbəbdən məhkumlar reabilitasiya xarakterli tədbirlərin faydalı olmasını dərk etməli, bu tədbirlərin tətbiqinə razılıq verməyə təşviq edilməlidir.

Onların xəstəliklərinin müalicə olunması, alkoqolizm və ya narkomaniyadan müalicəsi, idman məşqlərinə təşviq edilməsi, psixoloji qayğı göstərilməsi faydalı ola bilər.

Məhkumların sosial adaptasiyasına təsir edən amillərdən biri də onların fiziki sağlamlığı və xarici görünüşüdür. Fiziki və xarici görünüşündə olan qüsurlar məhkumlarda depressiv əlamətlərin yaranmasına səbəb ola bilər ki, bu da onların idmanla məşğul olmasının əhəmiyyətini göstərir. Mümkün olduğu qədər xarici görünüşlərində olan qüsurların aradan qaldırılmasına yönələn tədbirlərin *(estetik müdaxilə)* görülməsi də faydalı ola bilər.

Məhkumların reablitasiyasına kömək edəcək ən mühüm tədbirlərdən biri psixoloji, psixatrik problemlərin aradan qaldırılması üçün tətbiq edilən tədbirlərdir. Psixoloji problemlərin ən yüksək səviyyədə rastlandığı şəxslər CÇM-də olan şəxslərdir. *Təxminən hər yeddi məhbusdan birində psixi xəstəliklər və ya dərin depressiya,* kişi məhbusların təxminən yarısında və qadın məhbusların hər beş nəfərindən birində *antisosial şəxsiyyət pozuntusu var*[16].

Qeyd edilməlidir ki, psixoloji pozuntular nəticəsində CÇM-də təhlükəsizlik pozula, intihar halları yarana, cəza çəkən şəxslər tərəfindən özünə və ya başqasına qarşı zor tətbiq etmə və ya xəsarət yetirmə hadisələri baş verə bilər. Bütün bunların nəticəsində sağalmadan azadlığa çıxan şəxslərin yenidən cinayət törətmə ehtimalı arta, ailə-ictimai münasibətləri korlana, məşğulluq xidmətlərindən kənar qala bilərlər.

---

[16] Andres Lehtmets və Jörg Pont, Həbsxanada səhiyyə və tibb etikası, 25 (2017)

Bütün bunları nəzərə alaraq həkim qrupları xüsusi olaraq CÇM-də olan şəxslərin psixoloji sağlamlığına diqqət etməli, əməkdaşlar cəza çəkən şəxslərin psixologiyasına mənfi təsir edəcək bütün hərəkətlərdən çəkinməlidir. *Antisosial şəxsiyyət pozuntuları olan insanlarla işləyən əməkdaşlar bilməlidirlər ki, həmin insanları müalicəyə cəlb edərkən və müalicəni davam edərkən, onlarla cəzalandırma tərzində davranmaqdansa, həmin şəxslərə pozitiv və təltifedici münasibət göstərdikdə uğurlu nəticələrin əldə olunması ehtimalı daha böyük olur*. Əməkdaşlar ümid və nikbinlik atmosferində olan və sağalmağın mümkün, əlçatan olduğunu izah edən müalicə üsullarını araşdırmalıdırlar. Onlar etimada əsaslanan münasibətlər qurmalı, açıq, fəal və qərəzsiz tərzdə işləməli, etibarlı olmalıdırlar. Bu cür şəxslərlə işləyən əməkdaşlara lazımi təlimlər keçilməli, dəstək verilməli və mümkün olarsa, işlədikləri bölmədən kənar qurumlar tərəfindən onlara nəzarət olunmalıdır[17].

[17] Andres Lehtmets və Jörg Pont, Həbsxanada səhiyyə və tibb etikası, 44 (2017).

## 1.3. Məhkumların sosial adaptasiyası haqqında qanunvericilik

Məhkumların cəmiyyətə inteqrasiyasını təmin etmək üçün görülməli olan tədbirlərin ilk növbədə hüquqi aktlarda əksini tapması zəruridir ki, gediləcək "yol" göz önündə dəqiq canlansın, görüləcək tədbirlərin sistemi hazırlansın, fəaliyyət obyektiv əsaslarla təşkil olunsun. Bu mənada məhkumların sosial adaptasiyası ilə əlaqədar olaraq hüquqi aktların olması zəruridir.

Məhkumların sosial adaptasiyasının nizamlandığı qanunvericilik aktları kompleks təşkil edir. Belə ki, məhkumların cəmiyyətə inteqrasiyası ilə bağlı nəzəri məlumatlara malik olduqdan sonra, onların sosial adaptasiyasının yalnız cəzanın çəkilməsindən sonra tətbiq edilən tədbirlərdən asılı olmadığı görünür. Bu səbəbdən xüsusi hüquqi aktlardan əlavə, ümumi hüquqi aktların da məhkumların cəmiyyətə inteqrasiya prosesini nizama saldığını, təsir etdiyini düşünmək olar.

Məhkumların cəmiyyətə inteqrasiyasına təsir edən qaydaları özündə birləşdirən ümumi normalar AR CM və AR CİM-də öz əksini tapmışdır.

AR CM-də sosial adaptasiya məsələləri birbaşa olaraq əksini tapmasa da məhkumların cəmiyyətə inteqrasiyasına dolayı yol ilə mühüm təsir göstərir ki, bu da özünü daha çox cəza təyinetmə mərhələsində göstərir.

AR CİM-də isə həm birbaşa, həm də dolayı yolla sosial adaptasiyaya təsir edən normalar öz əksini tapmışdır. Belə ki, cəzanın icrası və çəkilməsi qaydaları məhkumların cəmiyyətə

inteqrasiyasına dolayı yolla mühüm təsir edir. AR CİM-in “cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası, onlara yardım göstərilməsi və nəzarət edilməsi” adlanan 20-ci fəsli isə birbaşa olaraq məhkumların sosial adaptasiyasını nizama salır.

Bütün bunlara baxmayaraq dünyada mövcud cəza və cəzanın çəkilməsinin humanistliyi siyasətinə uyğun olaraq formalaşan və məhkumları cəmiyyətə yararlı bir fərd halına çevirməyi özünə hədəf edən məqsədə uyğun olaraq məhkumların sosial adaptasiyasını nizama salan xüsusi qanunvericiliyin formalaşmasına ehtiyac vardır. *Bunu nəzərə alaraq 31 may 2007-ci ildə “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” qanun qüvvəyə minmiş və birbaşa olaraq bu məsələni nizamlamağı öz öhdəliyinə götürmüşdür.* Bu qanun 17 maddədən ibarət olmaqla özündə mühüm məsələləri birləşdirmişdir.

Qanunun əhatə dairəsinə müəyyən müddətə azadlıqdan məhrum edilmiş və ömürlük azadlıqdan məhrum edilmiş şəxslər aid edilir. Bu Qanun xüsusi olaraq cəza çəkməkdən azad edilmiş və sosial adaptasiyaya ehtiyacı olan AR vətəndaşlarına, AR-da daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə, habelə digər dövlətlərin penitensiar müəssisələrində cəza çəkməkdən azad edildikdən sonra üç ay müddətində AR-a daimi yaşamaq üçün qayıtmış AR vətəndaşlarına şamil olunur.

Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası üzrə tədbirləri öz səlahiyyətləri daxilində AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir və bu sahədə fəaliyyəti əlaqələndirir. Bundan əlavə sosial adaptasiya

tədbirlərinin həyata keçirilməsində bələdiyyələr, fiziki şəxslər, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları könüllülük əsasında iştirak edə bilərlər.

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının qorunması üzrə komissiyalar, dövlət təhsil və tibb müəssisələri, məşğulluq xidməti orqanları, habelə digər müəssisə və təşkilatlar cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası ilə bağlı adı çəkilən qanunun və digər qanunvericilik aktlarının tələblərini yerinə yetirməyə borcludurlar.

Məhkumların sosial adaptasiyasını təmin etmək məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır. Həmin tədbirlərin sistemi müvafiq qanunda öz əksini tapmışdır. Cəza çəkməkdən azad edilmiş şəxsləri qeydiyyata almaq, onlarla hazırlıq işlərini aparmaq ünvanlılıq prinsipinə uyğun olaraq məhkumların cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədilə ediləcək tədbirlərdən biridir.

AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi penitensiar müəssisələrin müdiriyyəti ilə birlikdə ayda bir dəfədən az olmayaraq sosial adaptasiyaya ehtiyacı olan cəza çəkməkdən azad ediləcək şəxsləri müəyyən edir və bu şəxsləri onların razılığı ilə qeydiyyata götürür.

*Qeydiyyata götürülmüş şəxslərə onların hüquq və azadlıqları, sosial adaptasiya tədbirlərinin məzmunu və həyata keçirilməsi qaydası izah olunur.*

Həmin müddət ərzində qeydiyyata alınmaq istəməyən məhkumlara gələcəkdə yenidən qeydiyyata alınmaq imkanı

verilir. Belə ki, penitensiar müəssisələrdə sosial adaptasiya məqsədilə qeydiyyata götürülməmiş şəxslər, habelə digər dövlətlərdə cəza çəkməkdən azad edilmiş və AR-a daimi yaşamağa qayıtmış AR vətəndaşları üç ay ərzində ərizələrinə əsasən AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qeydiyyata alınırlar.

"Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikasının qanununa əsasən sosial adaptasiya müddəti bir il hesab edilir. Müstəsna hallarda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin qərarı əsasında bu müddət daha bir ilədək uzadıla bilər. Qeyd etmək lazımdır ki, bu mərkəzlərin formalaşdırılması məhkumların cəmiyyətə inteqrasiya olunması üçün önəmli addım hesab edilə bilər.

Bundan əlavə "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası" haqqında Azərbaycan Respublikasının Qanununun 6-cı maddəsinə əsasən məhkumların sosial adaptasiyasını təşkil etmək məqsədilə təmin edilməli olan tədbirlərə aşağıdakılar aid edilir:

- cəza çəkməkdən azad edilmiş şəxsləri qeydiyyata almaq, onlarla hazırlıq işlərini aparmaq;
- sosial adaptasiya mərkəzləri yaratmaq;
- daimi yaşayış sahəsi olmayan şəxsləri müvəqqəti yaşayış yeri ilə təmin etmək;
- cəza çəkməkdən azad edilmiş şəxslərin peşə hazırlığı işinin təşkili, onların işlə, tibbi və sosial yardımla təmin edilməsi sahəsində müvafiq tədbirləri həyata keçirmək;
- təhsil almalarına şərait yaratmaq;

- şəxsiyyətini təsdiq edən və digər lazımi sənədlərlə təmin etmək;
- cəza çəkməkdən azad edilmiş və sosial adaptasiyaya ehtiyacı olan şəxslərə birdəfəlik pul müavinəti vermək;
- cəza çəkməkdən azad edilmiş şəxslərə hüquqi, psixoloji və informasiya yardımı göstərmək aiddir.

Qeyd edilənlərin qarşılığında cəza çəkməkdən azad olunmuş şəxslər AR qanunvericiliyi ilə vətəndaşlar üçün müəyyən edilmiş vəzifələri yerinə yetirməli və cəmiyyətdə qəbul olunmuş əxlaq normalarına əməl etməlidirlər.

Məhkumların cəmiyyətə inteqrasiyasını təmin və nəzarət etmək məqsədilə sosial adaptasiya mərkəzlərinin yaradılmasına ehtiyac vardır. Bunu nəzərə alaraq AR Nazirlər Kabinetinin 17 oktyabr 2017-ci il tarixli 434 nömrəli qərarı ilə AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DSMF-nin nəzdində Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi yaradılıb. Daha sonra AR Prezidenti İlham Əliyevin 30 iyun 2020-ci il tarixli Fərmanı ilə "Sosial Xidmətlər Agentliyi" yaradılıb və DSMF-nin nəzdində olan müəssisələr, həmçinin "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi" "Sosial Xidmətlər Agentliyinin" tabeliyinə keçirilib.

Sosial adaptasiya mərkəzinin əsas vəzifəsi AR penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial mühitə uyğunlaşdırılması, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, onlara yardım göstərilməsi və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş

şəxslərin sosial adaptasiyası ilə bağlı digər işləri öz səlahiyyətləri daxilində təmin etməkdən ibarətdir.

AR Nazirlər Kabinetinin 2008-ci il 13 iyun tarixli 138 nömrəli qərarı ilə təsdiq edilmiş, “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərinin yaradılması haqqında” Əsasnaməyə əsasən sosial adaptasiya mərkəzinin əsas vəzifələrinə aşağıdakılar aid edilir:

- Sosial adaptasiyaya ehtiyacı olan cəza çəkməkdən azad ediləcək şəxslərin qeydiyyatında iştirak etmək;
- cəza çəkməkdən azad edilmiş şəxslərin sosial, tibbi və peşə adaptasiyası ilə bağlı metodiki vəsaitlər hazırlamaq;
- həmin şəxslərin sosial adaptasiya potensialını müəyyən etmək;
- onlara şəxsiyyətini təsdiq edən və digər sənədlərlə təmin olunmasına yardım etmək;
- müalicə profilaktika müəssisələrinə göndərilməsini təşkil etmək;
- həmin şəxslərin peşə təhsili və əlavə təhsil, habelə qısamüddətli peşə hazırlığı kursları vasitəsilə peşələrə yiyələnməsinə yardım etmək;
- peşə hazırlığı işinin təşkili, onların işlə, tibbi və sosial yardımla təmin edilməsi sahəsində müvafiq tədbirləri həyata keçirmək;
- cəza çəkməkdən azad edilmiş qadınların himayəsində olan 14 yaşına çatmamış uşaqların məktəbəqədər təhsil müəssisələrinə və ya internat məktəblərinə yerləşdirilməsinə yardım etmək;

- cəza çəkməkdən azad edilmiş şəxsləri gün ərzində bir dəfədən az olmamaq şərtilə pulsuz isti yeməklə təmin etmək;
- onlara hüquqi, psixoloji və informasiya yardımının göstərilməsini təşkil etmək;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş cəza çəkməkdən azad edilmiş yetkinlik yaşına çatmayanların yaşayış sahəsi olmadıqda, onların internat məktəblərinə göndərilməsinə və sosial kirayə müqaviləsinə əsasən növbədənkənar yaşayış sahələrinin verilməsinə yardım etmək aiddir.

Bundan əlavə 2020-ci il "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi" publik hüquqi şəxsin haqqında nizamnamədə göstərilir ki, AR "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi"nə tabe olan "Sosial Xidmətlər Agentliyi"nin tabeliyindəki "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi" penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş daimi yaşayış sahəsi olmayan şəxslərin sosial mühitə uyğunlaşdırılması, hüquq və azadlıqlarının, qanuni mənafelərinin qorunması, şəxslər tərəfindən törədilə biləcək yeni cinayətlərin qarşısının alınması üçün onlara hüquqi, sosial-psixoloji, sosial-məsləhət yardımı və sosial-məişət xidmətlərinin göstərilməsi ilə bağlı fəaliyyəti həyata keçirən publik hüquqi şəxsdir.

Müvafiq mərkəzdə şəxslərin sosial adaptasiyası və reabilitasiyası tədbirlərinin təşkili, sosial xidmətlərin göstərilməsi "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" və "Sosial xidmət

haqqında” AR qanunlarına, AR Nazirlər Kabinetinin 2008-cü il 13 iyun tarixli 138 nömrəli qərarı ilə təsdiq edilmiş “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərinin yaradılması haqqında Əsasnamə”yə və 2014-cü il 22 aprel tarixli 108 nömrəli qərarı ilə təsdiq edilmiş “Çətin həyat şəraitində olan şəxslərə *(ailələrə)* dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi”nə və 2012-ci il 30 dekabr tarixli 328 nömrəli qərarı ilə təsdiq edilmiş “Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi Qaydası”na əsasən həyata keçirilir.

Nizamnamənin ikinci maddəsinə əsasən mərkəzin fəaliyyət istiqamətlərinə aşağıdakılar aid edilir:

- şəxslərin cəmiyyətdən təcrid olunmalarına gətirib çıxaran halların qarşısının alınması, sosial adaptasiyası məqsədilə sosial reabilitasiya tədbirlərinin həyata keçirilməsi;
- şəxslərin hüquqlarının bərpa edilməsi üçün hüquqi yardımın, özlərinə və ailələrinə alınmış psixoloji travmanın aradan qaldırılması məqsədi ilə psixoloji yardımın, həmçinin informasiya yardımının göstərilməsi, sənədlərinin hazırlanmasına, itirilmiş sənədlərinin bərpasına köməklik göstərilməsi;
- peşə hazırlığı kursları vasitəsilə şəxslərin peşələrə yiyələnmələrinə köməklik göstərilməsi, məşğulluqlarının təmin edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi;
- “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilmiş çətin həyat şəraitində olan

şəxslərin müvafiq ixtisaslaşdırılmış sosial xidmət müəssisələrinə qəbul edilməsinə köməklik göstərilməsi;

- Mərkəzdə reabilitasiya prosesinə cəlb edildikləri müddətdə şəxslərin müvafiq yaşayış sahəsi və münasib yaşayış şəraiti ilə təmin edilməsi;
- müvafiq sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində tədbirlərin görülməsi.

Beləliklə, müstəqil Azərbaycanda onların sosial adaptasiyasının təmin edilməsi məqsədilə münbit şəraitin yaradılması fonunda fəaliyyətlər göstərilir, mərkəzlər qurulur, müvafiq normativ aktlar tərtib edilir. Bu səbəbdən yaradılmış şərait müsbət formada istifadə edilməli, məhkumların sosial adaptasiyasının həyata keçirilməsi, cəmiyyətdə kriminogen vəziyyətin aradan qaldırılması məqsədilə bu üsullardan istifadə etməklə nailiyyətlər əldə edilməlidir.

# II FƏSİL
# MƏHKUMLARIN SOSİAL ADAPTASİYASININ TƏŞKİLİ

## 2.1. Cəza təyini və cəza çəkməkdən azad olunmazdan əvvəl tətbiq edilən tədbirlərin anlayışı, növləri və məhkumların sosial adaptasiyasına təsiri

*"Planlı və tədricən görülməyən fəaliyyət faydalı nəticə verməyə bilər".*

"Avropa Penitensiar qaydaları"nın 107-ci maddəsinə əsasən uzun müddətə azadlıqdan məhrum edilmiş məhbusların *azad həyata tədricən qayıtmaları* üçün tədbirlər görülməlidir[18].

*Əlbəttə ki, bu qayda məntiqi olaraq yalnız uzun müddət azadlıqdan məhrum etmə cəzasını məhkum olunmuş şəxslərə deyil, demək olar bütün məhkumlara aiddir. Buna səbəb məhkumların adət etdiyi mənfi xüsusiyyətlərin tədricən aradan qaldırılmalı olmasıdır. Ümumiyyətlə bir insanın özündə olan mənfi xüsusiyyəti azaltması, xüsusən müxtəlif kateqoriyalı məhkumların öz mənfi xüsusiyyətlərini yeni müsbət xüsusiyyətlər ilə əvəz etməsi uzun müddətli fəaliyyəti zəruri edir. Bu yolda adət edilən mənfi xüsusiyyətlərdən irəli gələn davranışların səbrlə yeniləri ilə əvəzlənməsi lazım olur.*

Beləliklə, ***"tədricən hərəkət etmək" prinsipi*** məhkumların sosial adaptasiyasının planlı şəkildə aparılmasına, hər "dəqiqə"dən səmərəli şəkildə istifadə edilməsinə yönəlir.

---

[18] Avropa Penitensiar Qaydalari, http://www.justice.gov.az/categories/103

Bütün bunlar məhkumların sosial adaptasiyasının effektiv olması üçün edilməli olan tədbirlərin müəyyən mərhələlərə bölünməsini şərtləndirir.

Məhkumların sosial adaptasiyası ilə bağlı tədbirlərin görülməsi və planın qurulması şəxsin cinayət törətdiyi dövrdən başlayaraq onun cəmiyyətə tam inteqrasiya *(yenidən cinayət törətməsinə kömək edəcək bütün risklərin aradan qaldırılması)* olduğu vaxta qədər davam edir. Ümumi olaraq bu tədbirlər cəza təyin edilməzdən və şəxs barəsində cəzanın çəkilməsi müddətinin sona çatmasından əvvəl və sonra edilən tədbirlər kimi müəyyən edilir.

*Cəza təyin edilməzdən və məhkumun cəzasının bitməsindən əvvəl tətbiq edilməli tədbirləri şərti olaraq aşağıdakı üç mərhələyə bölmək olar:*

**1. Gələcəkdə cinayət məsuliyyətinə cəlb ediləcək şəxsin cəmiyyətə inteqrasiyasına kömək edən mərhələlərdən ilki ibtidai istintaq mərhələsidir.**

Bu zaman şəxsin sosial adaptasiyasına olan təsirlər aspektindən edilməli olan bir sıra tədbirləri sadalamaq olar: a) *İbtidai istintaq mərhələsində hüquq mühafizə orqanları (bundan sonra HMO) əməkdaşlarının cinayət törətməkdə təqsirli olan şəxsə göstərdiyi münasibət, b) etik qaydalar, c) təqsirləndirilənin şəxsiyyətinin müəyyən edilməsi, d) şəxsin cinayət törətdiyi sübuta yetirildikdən sonra onun cinayət törətməsinə kömək olan amillərin aşkar edilməsi, e) təqsirləndirilən şəxsin müəyyən xüsusiyyətləri əsasında təsnif edilməsi (peşman olan, olmayan, sabit cinayətkar xarakterə malik və digər) və s.* məhkumların sosial adaptasiyasının hərtərəfli

təşkil edilməsinə kömək ola bilər.

Məlum olduğu kimi məhkumların islah edilməsi onun cəmiyyətə inteqrasiya olmasına yüksək səviyyədə təsir edir. Bu mənada bildirmək olar ki, məhkumların islah edilməsi də elə ibtidai istintaq mərhələsindən başlayır.

**2. Cinayət məsuliyyətinə cəlb ediləcək şəxsin sosial adaptasiyasına təsir edən tədbirlər sisteminin ikinci mərhələsi özünü cəza təyinetmə zamanı göstərir.** Bu mənada cəzanın növü, ağırlıq dərəcəsi, uyğunluğu və s. gələcəkdə məhkumların sosial adaptasiyasının düzgün təşkilinə kömək ola bilər.

Cəzaların cinayət törətmiş şəxsin sosial adaptasiyasına təsirini anlamaq və gücləndirmək üçün onların fəlsəfəsini, məqsədini, ən faydalı növlərini aşkar etmək, araşdırmaq, ən faydalı cəza növlərini maksimum dərəcədə inkişaf etdirmək lazımdır. Xüsusən də azadlıqdan məhrum etmə cəzasının faydalı olub-olmaması araşdırma obyekti olmalıdır. Çünki, bu cəzanın lüzumsuz yerə tətbiq edilməsi mənfi nəticələrə səbəb ola bilər.

Ümumiyyətlə cəza sosial ədaləti bərpa etməli; məhkumları islah etməli; yeni cinayətlərin törədilməsinin qarşısını almalı; cəza cinayət törətmiş şəxsin və cinayətin ictimai təhlükəliliyinə uyğun olmalı *(təhlükəliliyi az olan cinayətlərə və cinayətkar xarakteri möhkəmlənməmiş şəxslərə münasibətdə ağır cəza tətbiq edilməməlidir)*; cəmiyyətin təhlükəsizliyini qorumalı, yəni ictimai təhlükəliliyi böyük olan cinayət törətmiş şəxsləri cəmiyyətdən təcrid etməli, cəzanın tətbiqi ilə yanaşı cinayətin törədilməsinə kömək edən səbəb və

şəraiti aradan qaldırmalı; cəmiyyəti qeyri-əxlaqi davranışlardan, korlanma və pozğunluqdan xilas etməli *(cinayətin törədilməsinə kömək edən səbəb və şəraiti öz hərəkətləri ilə yaradan şəxslər daha ciddi olaraq cəzalandırılmalı, həmin səbəb və şəraitin genişlənməsinə mane olunmalıdır);* qanuna uyğun şəkildə əvəz çıxma funksiyasını yerinə yetirir *(bu funksiya talion prinsiplərdən fərqlənərək, özündə digər şəxsə vurulmuş ziyanın ödənilməsi, bərpası məqsədi güdür ki, bu da "bərpaedici ədalət" adlanır)*; özündə qorxuyaratma funksiyasını saxlayır *(bu funksiya özündə cəzanın labüdlüyünü saxlayaraq, şəxslər tərəfindən ilk dəfə və ya yenidən cinayət törədilməsinin qarşısını ala bilər, lakin diqqət etmək lazımdır ki, qorxuyaratma ilə yanaşı cinayətin törədilməsinə kömək edən səbəb və şərait də aradan qaldırılsın, əks halda ehtiyac və digər amillər qorxunu üstələyə bilər)*; cinayi davranış potensialını bir müddətlik məhdudlaşdırır; cinayətin törədilməsinə kömək edən bir sıra səbəbləri aradan qaldırmalı; cinayətin törədilməsinə səbəb olan amil şəxsin olduğu mühitlə bağlıdırsa, azadlıqdan məhrum etmə cəzası tətbiq etməklə onu həmin mühitdən uzaqlaşdırmağa xidmət etməli; həmçinin cəza ağrısız, faydalı, ədalətli və uyğun olmalıdır.

Bütün bunlardan əlavə qeyd etmək lazımdır ki, azadlıqdan məhrum etməyə münasibətdə yüngül hesab edilən cəzaların tətbiq edilməsi, yəni cinayət törətmiş şəxsin cəmiyyətdən nisbətən az təcrit edilməsi, gələcəkdə onun cəmiyyətə daha rahat inteqrasiya olmasına kömək edə bilər. Lakin, bu o demək deyildir ki, azadlıqdan məhrum etmədən daha yüngül cəza tətbiq edilən şəxslərin sosial adaptasiyaya ehtiyacı yoxdur.

Bugün dünyada 11.5 milyondan çox azadlıqdan məhrum etmə cəzası tətbiq edilmiş şəxs var və onların sayı durmadan artmaqdadır[19]. Buradan müəyyən qədər belə anlamaq olur ki, bu cəza məhkumların islah edilməsi üçün təklikdə faydalı deyildir. Avropa Şurasının əksər ölkələrində azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəza çəkən cinayətkarların sayı CÇM-də olanlardan daha çoxdur[20].

BMT-nin qeyri-həbs tədbirlərinə dair minimal standart qaydalarının *(Tokio Qaydaları)* 8-ci maddəsində azadlıqdan məhrum etmə cəzasının əvəzinə tətbiq edilməli olan bir sıra tədbirlərin siyahısı göstərilir. Bu tədbirlər həm sosial adaptasiyaya, həm də islah edilmə ehtimalı çox olan şəxslərin lüzumsuz olaraq ağır cəzalara məruz qalmasının aradan qaldırılmasına kömək ola bilər. Həmin tədbirlərə aşağıdakılar aiddir[21]: *a) Nəsihət, xəbərdarlıq və töhmət kimi şifahi sanksiyalar; b) Şərti azad etmə; c) Statusdan məhrum edilməsi (burada şəxsə məxsus bir sıra hüquqların məhdudlaşdırılması başa düşülməlidir); d) İqtisadi sanksiyalar, cərimələr kimi maliyyə cəzaları; e) Müsadirə və ya özgəninkiləşdirmə qərarı; f) Zərər çəkmiş şəxsə kompensasiya ödənilməsi barədə qərar; g) Şərti məhkum etmə; h) Probasiya nəzarəti; ı) Dövlət xidmətlərində*

---

[19] Prison Populations Continue to Rise in many Parts of the World, with 11.5 Million Held in Prisons Worldwide (2024), https://www.bbk.ac.uk/news/prison-populations-continue-to-rise-in-many-parts-of-the-world-with-11-5-million-held-in-prisonsworldwide#:~:text=Approximately%2011.5%20million%20people %20are,at%2 Birkbeck%2C%20University%20of%20London (son baxış iyun 15, 2024).

[20] Irish Prison Service. Doing More with Less: Prisoner Rehabilitation in Ireland, (2019).

[21] Hapis Dışı Tedbirlere İlişkin Birleşmiş Milletler Minimum Standart Kuralları (Tokya Kuralları), 8 (1991).

*işə qəbulla bağlı qərar; i) Düşərgəyə göndərilmə; j) Ev dustaqlığı; k) Müalicə; l) Yuxarıda qeyd olunan tədbirlərin birlikdə verilməsi.*

Bundan əlavə cəza tətbiqinin yumşaldılması ilə əlaqədar önəmli aktlardan biri "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" AR Prezidentinin 10 fevral 2017-ci il Sərəncamıdır. Həmin Sərəncamın 10-cu maddəsinə əsasən cəza siyasətinin humanistləşdirilməsi məqsədilə AR Ali Məhkəməsinə və AR Baş Prokurorluğuna tövsiyələr verilmişdir. Belə ki, həmin tövsiyələrə aşağıdakılar aiddir:

- *cinayətlərin, xüsusilə iqtisadi fəaliyyət sahəsində cinayətlərin dekriminallaşdırılması;*
- *cinayətlərin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunması* və mövcud alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsi;
- törədilən əməlin ictimai təhlükəliliyi maddi ziyanla bağlı olan hallarda vurulmuş ziyan tamamilə ödənildikdə həbslə əlaqədar olmayan qətimkan tədbirlərinin tətbiqi və azadlıqdan məhrum etməyə alternativ cəzaların təyin edilməsi əsaslarının müəyyən olunması;
- azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə, *cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad etmə* və şərti məhkum etmə institutlarının daha geniş tətbiq edilməsi;
- həbsə alternativ olan qətimkan tədbirinin tətbiq edil-

məsi hallarının genişləndirilməsi, həbsin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsi qaydasının sadələşdirilməsi, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi əsaslarının daha da məhdudlaşdırılması.

Bütün bunlardan əlavə probasiya nəzarəti institutu cinayət törətmiş şəxslərin cəmiyyətdən təcrid edilməməsi və bu mənada gələcəkdə rahat şəkildə cəmiyyətə inteqrasiya ola bilməsi üçün effektivdir.

Şərti məhkum etmənin mahiyyətində inkişaf, ümid və bu kimi amillər vardır. Sadəcə olaraq şərti məhkum etmə tədbirləri tətbiq edilmiş məhkum hər şeyin öz əlində olduğunu dərk etməli, bunun üçün psixoloqlar onunla psixoloji söhbətlər aparmalıdır. *Əgər məhkum vəzifələri pozarsa daha ağır məhdudiyyətlərlə qarşılaşacağını, vəzifələrə əməl edərsə azadıqla "mükafatlanacağını" anlamalıdır.*

Şərti məhkum etmənin, azadlığın məhdudlaşdırılmasının və ya ümumiyyətlə probasiya nəzarətinin aşağıdakı sosial məqsədləri vardır[22]:

- Cinayət törətmiş şəxsin ailəsi və cəmiyyətdəki yaxın ətrafı ilə müntəzəm və davamlı münasibət qurması təmin edilməklə, *CÇM-dən kənarda təhsil və reabilitasiyanı təmin edərək, səmərəli, məhsuldar və qanuna tabe olan, həyatını təkbaşına qazanan şəxsiyyət kimi cəmiyyətə inteqrasiya etmək.*

[22] Elif Feyza Kocabaş. Her suçlunun yeri cezaevi mi? Suçlunun topluma yeniden kazandırılması ve denetimli serbestlik (2014), https://docplayer.biz.tr/24816936-Her-suclunun-yeri-cezaevi-mi-suclunun-topluma-yeniden-kazandirilmasi-ve-denetimli-serbestlik-elif-feyza-kocabas.html (son baxış iyun 15, 2024).

- Cinayətkara cəmiyyətdə mütəmadi olaraq nəzarət etməklə törədilməsi ehtimalı olan yeni cinayətin qarşısını almaq, cəmiyyətdən gələn mənfi sosial reaksiyalardan qorunmaq.
- Alternativ cəzalardan istifadə etməklə, azadlıqdan məhrum etmə cəzası üçün çəkilən resurslarının lazım olan digər sahələrdə istifadə olunmasını təmin etmək.
- Qısamüddətli cəza tələb edən yüngül cinayətlər ilə onlara verilən cəzalar arasında balans və mütənasiblik təmin edilməklə, azadlıqdan məhrum etmə cəzasından həmişə bir üsul kimi istifadə etməmək, beləliklə də CÇM-də sıxlığın və təhlükəsizlik problemlərinin qarşısını almaq.
- Müxtəlif psixoloji pozuntuları olan cinayətkarların qapalı CÇM-də saxlanılması əvəzinə cəmiyyətdə və ya sosial müəssisələrdə psixososial və tibbi tədbirlərlə müalicə etmək.
- Məhkumun azadlığa çıxdıqdan sonra işə düzəlməsinə və ya sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına köməklik göstərmək, cinayətin qarşısını almaq, cinayətkarların cəmiyyətə inteqrasiyasına təsir etmək, ölkə iqtisadiyyatına töhfə vermək və s.

Probasiya nəzarətinin tətbiq edildiyi şəxslərin dairəsi göstərilsə də fikrimizcə ilk öncə bu tədbirin daha çox böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə münasibətdə tətbiq edilməsi faydalı ola bilər. Bu da CÇM-in lüzumsuz yüklənməsini qabaqlaya bilər.

Bundan əlavə probasiya nəzarətinin yüksək dərəcədə müsbət nəticə əldə etməsi üçün müəyyən düzəlişlər etmək və bu tədbirlərin inkişafını təmin etmək lazımdır. Belə ki, probasiya nəzarəti özlüyündə müsbət olsa da, onunla yanaşı

şəxsin inkişafına, müsbət xüsusiyyətlər əldə etməsinə yönələn əlavə tədbirlərin də görülməsi lazımdır.

*Bu tədbirlərə CÇM-də məhkumun islah edilməsi vasitələri hesab edilən qanunla nəzərdə tutulmuş tədbirlər aid edilə bilər. Bundan əlavə sosial adaptasiya tədbirləri probasiya nəzarəti üçün də tətbiq edilə bilər. Cinayət törətmiş şəxsin təhsili, məşğulluğu, ailə münasibətlərinin yaxşılaşdırılması və s. inkişaf üçün əsas tədbirlərin tətbiqi şəxsin həm sosial adaptasiyasına, həm də probasiya nəzarətinin uğurlu olmasına səbəb ola bilər.*

**3. Məhkumların sosial adaptasiyasına təsir edəcək önəmli mərhələlərdən biri də cəzanın çəkilməsi ilə bağlıdır.** Bu mənada, cinayət törətmiş şəxsə azadlıqdan məhrum etmə cəzası və ya digər cəzalar tətbiq edildiyi halda, *"tədricən hərəkət etmək" prinsipi rəhbər tutulmaqla onun cəmiyyətə adaptasiya olması, mənfi xüsusiyyətlərin aradan qaldırılması, müsbət xüsusiyyətlərin aşılanması və digər müsbət nəticələrin əldə edilməsi məqsədilə* tədbirlər görülməlidir.

Bütün sadalanan tədbirlərin görülməsi nəticəsində məhkumların cəmiyyətə inteqrasiyasının təşkilinin "ilk addımı" atıla bilər. Bütün bunların uğurlu olması "ikinci addım"ın, yəni cəzanın çəkilməsindən sonra ediləcək tədbirlərin uğurla nəticələnməsinə səbəb ola bilər.

Cinayət törətmiş şəxsin azadlığa çıxmasından sonra tətbiq edilməsini faydalı hesab etdiyimiz tədbirlərə aşağıdakıları aid edə bilərik: məşğulluq fəaliyyətinin təmini; yaşayış yeri ilə təmin etmə; antisosial qruplaşmalardan uzaqlaşdırma; məhkuma münasibətdə cinayət törətməsinə kömək edən səbəb və

şəraiti fərdi olaraq aradan qaldırmaq üçün tədbirlər görmək; ailə-cəmiyyət problemlərinin aradan qaldırılması; hüquqi tədbirlərin görülməsi və hüquqi dəstəyin həyata keçirilməsi; mövcud sağlamlıq qüsurlarının aradan qaldırılması; psixoloji dəstəyin görülməsi və s.

Bütün bunlarla yanaşı düşünürük ki, məhkumluğun ödənilməsi institutu, məhkumluq barədə qeyd məsələsi məhkumların sosial adaptasiyası aspektindən araşdırılmalıdır *(Bax: **Yəhya Abdullalı və Nihad Məlikov, Məhkumluğun ödənilməsi institutu: məhkumluq qeydinə ehtiyac varmı?**, (2024. Elsa hüquq jurnalı).*

## 2.2. Cəzanın icrasının məhkumların sosial adaptasiyasında rolu

*"Məhkum cəmiyyətə qayıtdıqdan sonra normal həyat sürməyə nəinki razı olmalı, həm də qadir olmalıdır".*

Cəzanın icrası, xüsusən də azadlıqdan məhrum etmə cəzasının icrası qaydalarının, cəzanın çəkilmə rejiminin, görülən tədbirlərin "tədricən hərəkət etmək" prinsipi rəhbər tutulduğu halda məhkumların sosial adaptasiyasında, cəmiyyətə inteqrasiyasında təsiri danılmazdır. Bir tərəfdən də cinayət törətmiş şəxslərin müəyyən müddət CÇM-də qalması onların sosial adaptasiyası üçün "fürsət" hesab edilməlidir.

Ümumiyyətlə, cəzaların icrası dedikdə, məhkumlara məcburiyyət tədbirlərinin tətbiqi ilə yanaşı, onlara psixoloji və pedaqoji təsir göstərilməsi, onların yeməklə təmin olunması, kommunal-məişət və tibbi sanitariya təminatı, əmək və istirahət üçün şəraitin yaradılması və s. başa düşülür[23].

Məhkumların sosial adaptasiyası cəzanın icrasının əsas, yəni islah etmə funksiyası ilə sıx bağlıdır. Cəzanın icrası dövründə məhkumlara münasibətdə sosial adaptasiya tədbirlərinin ilkin addımları atılmış, cəzanın icrası ilə bağlı sosial adaptasiyaya təsir edəcək tədbirlər tətbiq edilmiş olur.

CÇM-də məhkumların cəmiyyətə inteqrasiyası üçün görülməli olan tədbirlər dedikdə isə, məhkuma azadlığa çıxdıqdan sonra faydalı olacaq, layiqli həyat şəraitini təmin edəcək, psixi-fiziki sağlamlığını qaydasına salacaq və ən əsası

[23] Ağayev İ.B. Azərbaycan Respublikasının cəza-icra hüququ. Ümumi hissə (2007).

şəxsin sosial normalara, qanunlara itaət etməsinə kömək edəcək və s. xüsusiyyətlərin formalaşdırılmasına yönələn tədbirləri başa düşülməlidir.

**I** Cəzanın icrası ilə bağlı ən diqqət edilməli olan məsələ cəzanın çəkilməsi rejimidir. AR CİM 8.2.1-ci maddəsinə əsasən cəzanın çəkilməsinin və icrasının müəyyən edilmiş qaydası həm məhkumların islah edilməsi vasitəsi kimi[24], həm də fikrimizcə, məhkumların cəmiyyətə inteqrasiyasına kömək edəcək vasitə kimi çıxış edir. Çünki, məhkumun sosial adaptasiyası ən sadə mənada şəxsin cəmiyyət ilə əlaqəsinin kəsilməməsi ilə xarakterizə olunur. Buna baxmayaraq cəzanın icrası rejimləri bir çox halda şəxsin cəmiyyətdən təcrid olunmasına səbəb olur.

Rejim dedikdə, bir-biri ilə bağlı elə bir sistem başa düşülür ki, CÇM-in növündən asılı olaraq məhkumlara tətbiq edilən tədbirlər, onlara qarşı nəzərdə tutulan məhdudiyyətlərin növü, həcmi, xarakteri və s. fərqlənsin. Buradan aydın başa düşülür ki, cəzanın çəkilməsi və icrası rejimi CÇM-in növlərindən asılıdır. CÇM isə məntəqə tipli, ümumi, ciddi, xüsusi rejimli olmaqla dörd yerə bölünür.

Məntəqə tipli CÇM-lər digər rejimlərdən öz "yumşaq" lığına görə fərqlənir. Burada cəzanın icrası və çəkilməsi qaydaları digərlərindən məhkumlar üçün daha az məhdudiyyətlərin olması ilə fərqlənir. AR CM-in 56-cı maddəsinə əsasən ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına

[24] Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi, 8 (2000), https://e-qanun.az/framework/46951

məhkum olunmuş şəxslərin cəzalarını məntəqə tipli CÇM-də çəkmələri müəyyən edilir[25]. Bundan əlavə ümumi rejimli CÇM-dən də məhkumlar AR CİM 70 və 118-ci maddəsinə əsasən nəzərdə tutulmuş qaydada məntəqə tipli CÇM-ə keçirilə bilərlər.

Məntəqə tipli CÇM-də cəza çəkən məhkumlar mühafizəsiz, lakin nəzarət altında saxlanılır, yuxudan durmaq vaxtından yatmaq vaxtınadək müəssisədə sərbəst hərəkət edə, məhdudiyyət qoyulmadan qohumları və başqa şəxslərlə yazışa, görüşə, bağlama, sovqat və ya banderol ala, gündə bir dəfə müddəti on beş dəqiqə olmaqla telefonla danışa və ya videogörüş keçirə, məişətdə istifadə edilən ümumi paltar geyinə, pul və qiymətli əşyalar gəzdirə, puldan qeyri-məhdud istifadə edə bilərlər.

Bu tip müəssiələr açıq tipli hesab edilir və yaşayış binası təəssüratı yaradır. Hal-hazırda Bakı şəhərində və müxtəlif bölgələrdə 14 ədəd məntəqə tipli CÇM vardır.

*Bu tip CÇM-də olan məhkumlar əmək fəaliyyəti ilə məşğul ola, təhsil ala bilərlər*. Belə ki, CİM-in 119-cu maddəsinə əsasən CÇM-dən kənarda müəssisəyə yaxın ərazidə işə qəbul olan və ya ali, orta ixtisas, peşə təhsili müəssisələrində təhsil alan məhkumlar CÇM-in müdiriyyətinin icazəsi ilə sutkada on iki saatdan artıq olmayan müddətdə müəssisədən kənarda, lakin AR ərazisi hüdudlarında nəzarətsiz hərəkət edə bilərlər.

Bəzi hallarda zərurət olduqda onların işdən və ya təhsildən

---

[25] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 56, https://e-qanun.az/framework/46947

yayınıb-yayınmaması yoxlanılır. Buradan belə nəticə çıxır ki, həmin şəxslərin təhsilinə və məşğulluğuna diqqət ayrılır. Bu səbəbdən Əmək Məcəlləsinin 62-ci maddəsinə əsasən əvvəldən işlə məşğul olan şəxslərin cinayət törətdikdən sonra da işlərində qalmasına diqqət edilməsi faydalı ola bilər.

*Bundan əlavə həmin maddədə nəzərdə tutulmuş "iş vaxtı ərzində işçi bilavasitə iş yerində müvafiq səlahiyyətli orqanın qərarı ilə təsdiqlənən inzibati xətaları və ya cinayət tərkibi olan ictimai təhlükəli əməllər törətdikdə işdən azad edilə bilərlər" ifadəsinin daha dəqiq formulə edilməsinə, hansı hallarda mütləq işdə qalmalarının müəyyən edilməsinə, fərqli formada ifadə edilərsə, onların işdə azad edilib-edilməməsinin işəgötürənin mülahizələrindən kənar həyata keçirilməsinə şərait yaratmaq lazımdır.*

Həmin normadan da görünür ki, şəxs iş yerindən kənarda cinayət törətdiyi halda əmək fəaliyyətinə məhdudiyyət qoyulmamalıdır, o halda ki, şəxsin cəzasının icrası rejimi məntəqə tipli olaraq müəyyən edilmişdir.

Qeyd edildiyi kimi ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin cəzalarını məntəqə tipli CÇM-də çəkmələri müəyyən edilir. AR CM-də ehtiyatsızlıqdan törədilməsinə görə sanksiyasında beş ildən artıq olmayan azadlıqdan məhrum etmə cəzasının təyin edilməsini nəzərdə tutan normalara nəzər etdikdə onların sayının altmış doqquz sayda olduğu müşahidə edilir *(onlardan yalnız on səkkiz cinayətin sanksiyasında nəzərdə tutulmuş azadlıqdan*

*məhrum etmə cəzasının aşağı həddi beş ildən aşağı, yuxarı həddi beş ildən yuxarıdır).*

Həmin cinayət məsuliyyəti yaradan hərəkətləri digərlərindən fərqləndirən əsas cəhət onların törədilməsinə az rast gəlinməsidir ki, bu da məntəqə tipli CÇM-in daha da effektiv istifadə edilməsinin zəruri olmasını göstərir. Belə ki, yalnız ehtiyatsızlıqdan törədilməsinə görə beş ildən çox olmayan azadlıqdan məhrum etmə cəzası təyin edilən şəxslərin məntəqə tipli CÇM-də saxlanması tam faydalı hesab edilə bilməz.

*Bu səbəbdən digər bir sıra cinayət kateqoriyalarına uyğun cinayət törətmiş şəxslərin də həmin məntəqə tipli müəssisələrdə yerləşməsinin təmin edilməsi məhkumların sosial adaptasiyası cəhətdən uğurlu addım ola bilər.* Belə ki, qəsdən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslər də bu kateqoriyaya aid edilə bilər. Doğrudur ki, ilk dəfə ağır cinayət törətmiş məhkumlar ümumi rejimli CÇM-dən məntəqə tipli CÇM-ə cəza müddətinin ən azı üçdə iki hissəsini çəkdikdə köçürülə bilərlər ki, bu da məhkumun özünü inkişaf etdirmə hissinin yaranması, motivasiyası üçün önəmli hesab edilə bilər. Buna baxmayaraq hər bir məhkum bu tip motivasiyaya malik deyildir.

Qeyd edilən məsələ ilə əlaqədar olaraq Rusiya CİM-in 58.1-ci maddəsinə nəzər etdikdə görünür ki, ehtiyatsızlıqdan törədilməsinə görə beş ildən artıq olmayan azadlıqdan məhrum etmə cəzası təyin edilən cinayətlərdən əlavə, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin də cəzasını çəkməsi üçün məntəqə tipli CÇM-ə göndərilməsi müəyyən edilir.

**II** CÇM-də olan bir çox şəxs uzun müddət orada qaldıqları üçün CÇM-dən kənara çıxmağa bəzən qorxur, çəkinir, onlar azadlıqda nə ilə rastlaşacaqlarını bir çox hallarda bilmirlər. Daha çox onları qarşılaşacağı münasibətlər narahat edir. Bu səbəbdən onların cəmiyyətə inteqrasiya olmasına yardımçı olacaq tədbirlərə daha çox diqqət ayrılması faydalıdır.

Həmin tədbirlərdən biri məhkumun ailəsi və digər yaxın şəxslər ilə əlaqə saxlaması, görüşlərin təminidir. Görüşlərin təmin edilməsi ailə münasibətlərinin dağılmasının qarşısını ala, məhkumun islah olmasını təmin edə, cəmiyyətə inteqrasiyasını tezləşdirə bilər. Əlbəttə ki, görüşlərdən daha önəmlisi həmin görüşün xarakteri, tərəflər arasında olan münasibətlərin islah yönümlü təsiridir.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə görə heç kim onun şəxsi, ailə həyatına, evinə və ya yazışmalarına özbaşına müdaxiləyə məruz qala bilməz. Avropa Penitensiar qaydalarının 99-cu maddəsinə əsasən məhkəmənin xüsusi qadağası yoxdursa, məhkum olunmuş məhbuslar üçün müəyyən olunmuş qaydada ailə üzvləri və digər şəxslərlə görüşməyə icazə verilməlidir[26].

Cəza müddəti ərzində ailələri ilə nizamlı, həvəsləndirici və sağlam münasibətdə olan məhkumlar CÇM-də həyata keçirilən islah prosesində daha uğurlu olur, azadlığa çıxdıqdan sonra sosial həyata daha asan uyğunlaşırlar[27].

---

[26] Avropa Penitensiar Qaydalari, http://www.justice.gov.az/categories/103

[27] Selma Soytürk, Hükümlü ve tutukluların sosyal hizmet gereksinimlerinin değerlendirilmesi: karaman m tipi kapalı-açık cezaevi örneği, 32 (2013).

Bununla yanaşı cinayət törətmiş şəxsin hansı bölgədə yerləşən CÇM-ə göndəriləcəyinə onun yaşayış yerinin harada olduğuna görə qərar verilməlidir. Məhkum üçün evə yaxınlıq mühüm əhəmiyyət kəsb edir və nəticədə ailəsinin onu ziyarətə gəlməsi daha asan olur. Məhkumların əksəriyyəti cəmiyyətin təcrid olunmuş və yoxsul təbəqələrindən olduğu üçün göndərildikləri CÇM evlərindən uzaqda olarsa, yol xərcləri ailələrinin onları ziyarət etməsinə mane ola bilər[28].

Eyni qaydada AR CİM-in 65-ci maddəsinə əsasən, müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslər cəzalarını bir qayda olaraq *yaşayış yerinə yaxın ərazidə yerləşən CÇM-də çəkirlər*.

AR CİM-in 81-ci maddəsinə əsasən məhkumlara CÇM-in ərazisində bir gündən üç günədək uzunmüddətli görüşlər verilir. Məhkumlara uzun müddətli görüşlər birlikdə yaşamaq hüququ olan yaxın qohumlarla *(arvadı, əri, valideynləri, babası, nənəsi, övladları, övladlığa götürənləri və götürdükləri, nəvələri, qardaşları və bacıları)* verilir.

Uzun müddətli görüşlərin verilməsi həvəsləndirmə tədbirləri kimi çıxış edir və bu da öz növbəsində şəxsin özünü inkişafına təkan verir. Uzun müddətli görüşlərin sayı cəzanın icrası və çəkilməsi rejimindən asılı olaraq dəyişir. Məhkumlar cəzanın icrası qaydalarını pozmadıqda və əməyə vicdanla yanaşdıqda, cəza müddətinin ən azı üçdə birini çəkdikdən sonra onların saxlanılması şəraiti yaxşılaşdırıldığı halda uzun müddətli görüşlərin sayı da artırıla bilər. Bundan əlavə

---

[28] Andrew Coyle, Cezaevi Yönetimine İnsan Haklarını Göz Önüne Alan Bir Yaklaşım, Uluslararası Cezaevi Araştırmaları Merkezi, 95 (2002)

məhkumun ailəsi ilə görüşməsi məqsədilə CÇM-dən kənara qısa səfər etməsi də faydalı ola bilər.

Xüsusilə qadın məhkumların uşaqları ilə əlaqə saxlaması və ya yetkinlik yaşına çatmayan şəxslərin ailələri ilə görüşü məhkumların islah edilməsi üçün önəmli amillərdən hesab edilir. Bu səbəbdən onlar arasında ailə bağlarının qırılmamasına diqqət edilməlidir. AR CİM 88-ci maddəsi məhkum qadınların kənarda yaşamasına icazə verir, CÇM-də uşaq evləri təşkil edilir və asudə vaxtlarda uşaqla görüşməyə, birgə yaşayışa imkan yaradılır. Qadınların az yaşlılarla görüş şəraitinin uşaqlara uyğun olması və CÇM təəssüratı yaratmaması az yaşlı üçün müsbət təsir yarada bilər.

Məlumdur ki, yetkinlik yaşına çatmayan şəxslər yetkin şəxslərdən ayrılıqda saxlanılır. Buna baxmayaraq gənclərə münasibətdə də qorunma tədbirlərinin aparılması faydalı ola bilər. 18 yaşı tamam olmuş və CÇM-ə göndərilən şəxslərin uzun müddət CÇM-də qalmış şəxslər ilə bir yerdə saxlanması doğru hesab edilə bilməz.

*Bununla bağlı araşdırmalar göstərir ki, bəzi ölkələrdə 21 yaşına çatana qədər məhkumlar digər yetkin şəxslərdən ayrı saxlanılır. Yaponiyada gənclər üçün xüsusi CÇM təşkil edilir və 24 yaşına qədər orada saxlanılması təmin edilir.*

Bundan əlavə məhkumlara məktub, elektron məktub göndərməyə, zəngləşməyə, videogörüşlər keçirməyə şərait yaradılması, ailələrin ziyarət etməsi üçün həvəsləndirmə tədbirləri həyata keçirilməsi faydalı addımlardan hesab edilir. Bir çox məhkumlar vardır ki, onlar ətrafda, cəmiyyətdə baş verən hadisələrdən, inkişafdan xəbərsizdirlər. Doğrudur ki, radio və

digər vasitələrlə müəyyən məlumatlar əldə edilir. Buna baxmayaraq müəyyən qədər internetə çıxışın təmin edilməsi faydalı ola, internetə çıxış həvəsləndirmə tədbiri kimi və ya elmi-fəaliyyət *(elmi tədqiqat)* zamanı məhkumların araşdırma aparması vasitəsi kimi çıxış edə bilər.

**III** Məhkumun cəmiyyətə inteqrasiyası həm də özündə normalara uyğunlaşmaq, əməl etmək bacarığını cəmləyir. İnsanın cəmiyyətdə mövcud olan normalara öyrəşməsi onda müəyyən lazımi bacarıqların olmasını zəruri edir. Bu zəruriyyət isə şəxsin faydalı davranış göstərmək iradəsinə malik olmasını şərtləndirir və səbəb olur. Buna görə də, məhkumların cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədilə cəzanın çəkilməsi müddəti bitməzdən əvvəl məhkum barəsində tədris, təhsil ilə əlaqəli tədbirlərin görülməsi, onun normalara hörmət ruhunda tərbiyə edilməsi önəmlidir.

Məhkumları islah edən zaman ilk öncə mənfi xüsusiyyət və keyfiyyətlər aradan qaldırılır, daha sonra isə şəxsə müsbət xüsusiyyətlər təlqin edilir, aşılanır. Əgər bu göstərilən qüsurlar kriminogen determinantlar ilə bağlıdırsa, islah proqramı qurularkən həmin kriminogen amillər nəzərə alınmalıdır. Məsələn, əgər cinayət törədənlərin böyük əksəriyyəti təhsilsiz şəxslərdirsə, bu zaman onlara təhsil verilməsi, həmin şəxslərdə mənfi xüsusiyyətləri aradan qaldıra və onlara müsbət xüsusiyyətlər formalaşdıra bilər. Təhsil və təlimin digər önəmli təsiri isə şəxsin cəmiyyətə inteqrasiyası zamanı müsbət fəaliyyət göstərməsi, məsələn faydalı əmək fəaliyyəti ilə məşğul olması üçün onda müəyyən bacarıqların, biliklərin formalaşdırılmasıdır.

ABŞ-da aparılan bir araşdırma, CÇM-də təhsil proqramlarında iştirak edən məhkumların CÇM-ə qayıtma ehtimalının 43% daha az və CÇM-də peşə təhsili alanların azad olunduqdan sonra iş tapmaq şansının 28% daha yüksək olduğunu göstərir[29].

Buradan da görünür ki, təhsil və təlim məhkum üçün həm daxili, həm də xarici önəmə malikdir. Daxili faktor şəxsdə hüquqi şüurun formalaşması və əxlaqi davranış qaydalarını mənimsəməsində, xarici faktor isə təhsil-təlimin onun əmək fəaliyyəti ilə məşğul olması üçün şərait yaratmasında və s. özünü biruzə verir.

Təhsil insana özünü dərk etməyə imkan verir. Özünü reallaşdıran fərd öyrənmək-öyrətmək arzusunda olur, intellektual bacarıqlar qazanır, müsbət xüsusiyyətlərə üstünlük verir və qiymətləndirir, öz həyatını istiqamətləndirə bilir. Bundan əlavə, təhsil insani münasibətləri inkişaf etdirməyə kömək edir, insanlara və insanlığa hörmət hissi formalaşdırır, "qardaşlıq" və qayğı hissini artırır, başqaları ilə işbirliyi meylini inkişaf etdirir, ictimai həyatda gözəl davranışlar sərgiləməyə, ailədə vəzifələrini yerinə yetirməyə səbəb ola bilir. Təhsil və təlimin digər təsirləri ilə insan iqtisadi vəziyyətini yaxşılaşdırır, iş tapa bilir, peşələri tanıyır, peşə seçimində düzgün qərarlar verir, gəlir və xərclərini nəzarət altına alır. Nəhayət, bu, insanda vətəndaşlıq və məsuliyyət hissini inkişaf

---

[29] *Davis, Lois M., Robert Bozick, Jennifer L. Steele, Jessica Saunders and Jeremy N. V. Miles Evaluating the Effectiveness of Correctional Education, Rand Corporation, 2013,https://www.rand.org/content/dam/rand/-pubs/research_reports/RR200/RR266/RAND_RR266.pdf*

etdirir. Ona görə də milli sərvətləri qoruya, vətəndaşlıq borcunu bilə və ona əməl edə, qanunlara hörmət edə, düşüncə qabiliyyətini inkişaf etdirə və insan haqlarına sadiq qala bilər[30].

Araşdırmalar göstərir ki, CÇM-də peşə təhsili proqramlarında iştirak edən məhkumlar iş həyatında daha stabildir və azadlığa çıxdıqdan sonra daha çox gəlir əldə edirlər[31].

AR CİM-ə əsasən ümumi təhsil, peşə təhsili məhkumların islah edilməsi üçün əsas vasitə və məhkumun əsas hüququ hesab edilir. Peşəsi və ya ixtisası olmayan məhkumlar üçün CÇM-də peşə təhsili və ya peşə hazırlığı həyata keçirilir. AR CİM-in 100-cü maddəsinə əsasən peşə təhsili və ya peşə hazırlığı məcburi əsaslarla həyata keçirilir ki, bu da doğru hesab edilə bilər. Buna baxmayaraq sağlamlığından, yaşından asılı olaraq müəyyən kateqoriyalı şəxslər üçün könüllü əsaslar ilə həyata keçirilir. Məhkumlara münasibətdə həyata keçirilən ümumi təhsil də eyni qaydalar üzrə baş tutur.

Peşə təhsili üzrə dövlət agentliyinin internet saytında 120 peşə təhsili ixtisası göstərilmişdir. Həmin ixtisaslardan bir çoxu müasir peşə tələbatlarına cavab verməklə, əksəriyyətin bacarıq və istəklərini əhatə etmək qabiliyyətinə malikdir. Bunları nəzərə alaraq *CÇM-də peşə təhsili eyni qaydada müasir peşə tələbatlarına cavab verməlidir*. Peşə təhsili ilə əlaqədar olaraq məhbuslara biznesin idarə edilməsi, sahib-

---

[30] Salih Kalkan. Ceza infaz kurumlarında mesleki eğitim ve rehabilitasyon uygulamaları: türkiye ve abd'nin karşılaştırılması, 24 (2016).
[31] Selma Soytürk, Hükümlü ve tutukluların sosyal hizmet gereksinimlerinin değerlendirilmesi: karaman m tipi kapalı-açık cezaevi örneği, (2013).

karlıqla əlaqədar biliklərin verilməsi, suni intelekt və kompüter biliklərinin mənimsədilməsi gələcəkdə onların iqtisadi çətinlikdən çıxmasına kömək ola bilər.

"Avropa Penitensiar Qaydaları"nda da məhkumların təhsilinə diqqət yetirilmişdir. Orada göstərilir ki, hər bir penitensiar müəssisə bütün məhbuslara geniş əhatə dairəsinə malik və onların fərdi ehtiyaclarına cavab verən, məqsədlərinə uyğun olan təhsil proqramlarından istifadə etmək imkanları verməyə çalışmalıdır. İlk növbədə oxumağı, yazmağı və saymağı bacarmayan, habelə ilkin təhsili və peşə hazırlığı olmayan məhbuslara diqqət yetirilməlidir. Gənc məhbusların, habelə xüsusi ehtiyacları olan məhbusların təhsilinə xüsusi diqqət yetirmək lazımdır. *Hər bir penitensiar müəssisə lazımi qaydada müxtəlif populyar tədris materialları, kitablar və digər məlumat daşıyıcıları ilə komplektləşdirilmiş kitabxanaya malik olmalıdır*. İmkan daxilində məhbusların təhsili onlar azadlığa çıxdıqdan sonra öz təhsillərini və peşə hazırlıqlarını problemsiz davam etdirmələri üçün ümummilli təhsil və peşə hazırlığı sisteminə inteqrasiya olunmalı və kənarda olan təhsil müəssisələrinin himayəsi altında həyata keçirilməlidir[32]. Bundan əlavə təhsil proqramları məhbusların penitensiar müəssisədə ehtimal edilən saxlanma müddətinə uyğunlaşdırılmalıdır.

Məhkumların təhsilinin təşkilinə belə diqqət yetirilməsi onların təfəkkür qabiliyyətinin formalaşmasına, mənəvi cəhətdən yaxşılığa doğru dəyişməsinə və s. kömək edir. Ona görə də məhkumlar arasında savadsızlığın ləğvi, onların ibtidai və

---

[32] *Avropa Penitensiar Qaydaları, http://www.justice.gov.az/categories/103*

əsas ümumtəhsil məsələlərini cəzanı icra edən müəssisə və orqanlar təhsil orqanları ilə birgə həll etməlidirlər[33].

Cinayətkarlıq ilə bağlı statistikaya nəzər etdikdə görünür ki, təhsil cinayətkarlığın səviyyəsinə təsir edir[34]. Əlbəttə ki, burada bir məsələni dəqiqləşdirmək mütləq şəkildə lazımdır. Təhsil dedikdə, müəyyən informasiyanın qəbul edilməsi və təlim-tərbiyənin inkişaf etdirilməsi başa düşülməməlidir, çünki bu onun ən sadə anlayışıdır. Doğrudur ki, yazma-oxuma bacarıqları, infor-masiya qəbulu şəxsin şüurunun inkişafına, onda psixoloji proseslərin təkmilləşdirilməsinə səbəb ola bilər. Buna baxmayaraq cinayətkarlığın səviyyəsinin artması ilə əlaqədar təhsilin rolu həm də, şəxsdə müəyyən əxlaq və davranış qaydalarının, nizamın və s. formalaşmasında özünü göstərir. Bu səbəbdən "cinayət törətmiş şəxslərin bir çox hissəsi təhsil almayan şəxslərdir" dedikdə, məsələyə daha geniş çərçivədə baxılmalıdır.

"Təhsil haqqında" qanunda qadağa qoyulmadığı üçün *(ümumi məzmuna əsasən)* məhkumların ali təhsil almasına maneə yoxdur. Fransa Penitensiar sisteminə nəzər etdikdə də eyni hal görünür. Belə ki, məhkumlara ali təhsil imkanı verilir, lakin bu iş qiyabi şəkildə həyata keçirilir[35]. Buna baxmayaraq "Təhsil haqqında" qanunun 36-1. maddəsinə görə ağır, xüsusilə ağır cinayət törətməsinə görə məhkumluğu üstündən götürülməmiş və ya ödənilməmiş şəxslər və uşaqlara qarşı

---

[33] Ağayev İ.B. Azərbaycan Respublikasının cəza-icra hüququ. Ümumi hissə (2007).
[34] Cinayət törətmiş şəxslərin sosial-demoqrafik əlamətlərinə görə bölgüsü https://stat.gov.az/source/crimes/az/003_11.xls
[35] Beata Maria Nowak, *Social Reintegration of Prisoners in Selected European Union Countries*, 320 Polish Journal of Social Rehabilitation (2015).

cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər pedaqoji fəaliyyət ilə məşğul ola bilməzlər[36].

Polşada məhkumlara münasibətdə tədris təhsilin bütün səviyyələrində, yəni ibtidai, orta, əlavə texniki, ali təhsil səviyyəsində aparılır. Bundan əlavə, müxtəlif mənbələrdən maliyyələşdirilən ixtisasartırma peşə kursları keçirilir[37].

Məhkumluğu olan şəxslərə müəyyən biliklərin tədris edilməsi ilə bağlı xarici dövlətlərin fərqli təcrübələri vardır. ABŞ-da cəza çəkdikləri müddətdə məhkumların "yetkinlərin əsas təhsili", "ümumi təhsilin inkişafı" üzrə kurslarda iştirakı təmin edilir, onlara kurslar, peşə hazırlığı və digər təlimlərdən biri və ya bir neçəsi verilir. Bu təlimlərin sonunda iştirakçılara uğurlarına görə sertifikatlar verilir. Xüsusilə inkişaf etmiş ölkələrdə məhkumlara verilən peşə təhsili üç hissəyə bölünür. Birincisi, CÇM-də müəyyən bacarıqların mənimsənilməsi təmin edilir. İkincisi, qısamüddətli peşə hazırlığı proqramları təşkil edilir. Ən sonuncu mərhələdə isə məhkum olduqdan sonra qısa müddətdə iş tapa biləcək bacarıqlara yiyələnmələrinə kömək edilir[38].

Bu mənada tədbirin üçüncü mərhələsi *(əvvəlki abzas)* xüsusilə diqqəti cəlb edir. Bu isə öz növbəsində məhkumların sosial adaptasiyasında şəxsin əmək fəaliyyəti ilə məşğul olmasının önəmini göstərir. Belə ki, bir çox məhkumlar CÇM-

---

[36] Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu, 36-1 (2009)
[37] Beata Maria Nowak, *Social Reintegration of Prisoners in Selected European Union Countries,* 325 Polish Journal of Social Rehabilitation (2015).
[38] Orhan Koçak, Serdar Altun. *Ceza infaz kurumundaki mesleki eğitim faaliyetlerinin hükümlü istihdamına katkıları,* 102 Çalışma İlişkileri Dergisi (2010).

də təhsil və tədris ilə bağlı tədbirlərdə iştirak etsə də, bu hallar onun cəza çəkməkdən azad olunduqdan sonra əmək fəaliyyəti ilə məşğul olmasına, daha doğrusu iş tapmasına kömək etmir.

Təhsil ilə əlaqədar digər xarici ölkələrin də özünəxas tədbirlər planı vardır. Belə ki, İrlandiya "CÇM-də Təhsil Xidməti" tərəfindən hazırlanan hesabata aşağıdakı təlimlər daxil edilir: *əsas təhsil, oxuma-yazma və hesablama, bədən tərbiyəsi, ev təsərrüfatı və sağlamlıq təhsili, ingilis dili, tarix, riyaziyyat, coğrafiya, kompüter və xarici dil kimi ümumi fənlər, ağac emalı, metal emalı və bağçılıq, təsviri sənət, fotoqrafiya, musiqi, dram kimi bacarıqlar*. Bundan əlavə, aludəçiliklə mübarizə, fərqindəlik yaratmaq, qrup bacarıqları, qəzəbin idarə edilməsi kimi kurslar CÇM-də həyata keçirilən təhsil proqramlarından hesab edilir[39].

"Müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzalara məhkum olunmuş şəxslərin ümumi orta təhsilinin həyata keçirilməsi Qaydası"na əsasən, hal-hazırda Penitensiar xidmətin müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaları icra edən müəssisələrdə tam orta təhsil məktəbləri fəaliyyət göstərir. Məktəblərdə Azərbaycan dili, Rus dili, ədəbiyyat, cəbr, həndəsə, informatika, tarix, Azərbaycan tarixi, insan və cəmiyyət, coğrafiya, iqtisadi biliklərin əsasları, biologiya, fizika, kimya, hüquqi biliklərin əsasları fənnləri tədris olunur[40].

---

[39] Salih Kalkan. Ceza infaz kurumlarında mesleki eğitim ve rehabilitasyon uygulamaları: türkiye ve abd'nin karşılaştırılması, 45 (2016).

[40] Https:// penitensiar.justice.gov.az/news/1420-mhkumlarn-thsil-hququnun-tmin-edilmsi-diqqt mrkzinddir.html

Buna baxmayaraq məhkumlara keçirilən dərslər nəzəri yox, daha çox praktiki yönümlü olmalı, gələcəkdə öyrəndikləri vasitəsilə özünə fayda verə bilməlidir. Həmçinin psixologiya ilə bağlı dəsrlərin, məhkumlara qəzəbin idarə edilməsinin və s. kriminogen səbəb və şəraiti aradan qaldırmağa yönələn bacarıqların inkişafına yön verən təlim və tədrisin keçirilməsi faydalıdır.

Bütün bunlardan əlavə qeyd edildiyi kimi, psixoloji proqramlara da müəyyən qədər yer verilməlidir. Araşdırmalara əsasən Türkiyədə Avropa Birliyi tərəfindən təkmilləşdirilmiş bir sistem nəzərdə tutulmuşdur. Belə ki, Türkiyədə CÇM-də məhbuslara münasibətdə *"qəzəbin idarə edilməsi", "intihar və ya özünə zərər vurmanın qarşısının alınması", "CÇM-dən çıxmazdan əvvəl özünü inkifaş etdirmək", "sərxoşedici vasitələrə aludəçiliyin qarşısının alınması", "cinsi cinayət törədən şəxslərin müalicəsi"* və bu kimi proqramlar nəzərdə tutulmuşdur. Bütün bu proqramlar bir neçə hissədən ibarət olmaqla, məhbusların etdiyi yanlışlıqların və etməli olduğu faydalı işlərin əhəmiyyətinin fərqinə varmasına yardımçı ola bilər.

**IV** CÇM-də məhkumların sosial adaptasiyasına kömək edəcək ən mühüm məsələlərdən bir digəri məhkumların sağlamlığının, fiziki qüvvəsinin bərpasıdır. AR CİM-in 10-cu maddəsinə əsasən məhkumların tibbi xidmətdən istifadə etmək hüququ vardır. Məhkumların sağlamlığında baş vermiş problem həll edilməli, alkoqolizm və narkotik aludəçiliyi olan və müalicə edilməyə ehtiyacı olan şəxslər müalicə edilməlidir.

Cəza təyin edilmiş şəxsin CÇM-ə qəbul edilməsi zamanı tibbi müayinənin vacibliyini xüsusi olaraq vurğulamaq

lazımdır. Bu cür müayinənin əsas məqsədi yeni gəlmiş şəxslərin sağlamlığının qorunması üçün təxirəsalınmaz tibbi tədbirlərin görülməsinin tələb oluna biləcəyi kritik sağlamlıq vəziyyətinin tez aşkarlanmasından və yoluxucu xəstəliklər olduqda CÇM-də olanların sağlamlığının qorunmasından ibarətdir. Buna görə də, bu müayinə, bəzi hallar istisna olmaqla, məhbusun CÇM-ə daxil olduğu gün keçirilməlidir[41]. *Xüsusilə də psixatrik, psixoloji müayinələrin keçirilməsi xüsusilə önəmlidir.*

CÇM-də səhiyyə xidməti tibbi müalicə və tibbi qulluq, həmçinin müvafiq pəhrizlər, fizioterapiya, reabilitasiya və ya hər hansı digər zəruri xüsusi qayğı göstərilməsinin cəmiyyətdə pasiyentlərə göstərilən səhiyyə xidmətləri ilə eyni səviyyədə həyata keçirilməsini təmin edə bilməlidir. Müvafiq olaraq, tibb və kiçik tibb heyəti və texniki heyət, həmçinin şərait, qurğular və avadanlıqlar da eyni şəkildə təmin olunmalıdır[42].

Bundan əlavə məhkumların xarici görünüşlərinə də diqqət ayrılmalıdır. “Avropa Penitensiar Qaydaları”na görə hər bir məhbusun ixtisaslı diş və göz həkiminin xidmətindən istifadə imkanı olmalıdır. Buna baxmayaraq xarici dövlətlərdə aparılan araşdırmalar cəza çəkən şəxslərin diş baxımının yaxşı olmadığını göstərir. Azərbaycanda bir çox müəssisələrdə diş həkimi otağı təşkil edilir.

CÇM şəraitində psixiatrik xəstəliklərin müalicə olunmaması asanlıqla qeyri-insani və ləyaqəti alçaldan rəftar hesab

---

[41] İşgəncənin və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi standartları, yenilənmiş nəşr (2012).
[42] Andres Lehtmets və Jörg Pont, Həbsxanada səhiyyə və tibb etikası, 9 (2017).

oluna bilər. Məsul şəxslər psixi pozuntuları olan məhbuslar üçün aşağıdakı tədbirlərin görülməsini nəzərdə tutmalıdırlar[43]:

- CÇM-də işləyən tibb əməkdaşlarının və psixoloqların bu cür halların aşkar edilməsi və onların idarə olunmasında fəal iştirak etmək üzrə həvəsləndirilməsi və təlim keçirilməsi;
- müntəzəm psixiatrik konsultasiyaların həyata keçirilməsi üçün psixiatrın təyin olunması vasitəsi ilə bu cür hallar üçün peşəkar yanaşmanın təmin edilməsi;
- psixotropik preparatların təchiz edilə bilməsi;
- zəruri hallarda xəstəxana rejimində daha uzun müddətli müalicə aparmaq imkanının təmin olunması;
- psixi xəstəliyi olan məhbusun psixiatrik müəssisəyə köçürülməsinin ən yüksək prioritet məsələ hesab edilməsi.

Məhkumların bədən tərbiyəsi və idman ilə məşğuliyyəti onların cəmiyyətdə özlərinə yer tapmasına, psixoloji, zehni, fiziki sağlamlıqlarının bərpa olmasına, tənhalıqdan uzaqlaşmasına və s. kömək edə bilər. Bədən tərbiyəsi dedikdə, cəmiyyətin ümumi mədəniyyətinin ayrılmaz hissəsi olmaqla, fiziki hərəkətlər vasitəsilə insanın sağlam həyat tərzinin formalaşdırılmasına, fiziki və əqli inkişafına yönəldilmiş norma, bilik və dəyərlər məcmusunu özündə əks etdirən sosial fəaliyyət sahəsi, idman dedikdə isə, müxtəlif fiziki hərəkətlər kompleksi vasitəsilə mütəmadi olaraq şəxsin fiziki hazırlığının təkmilləşdirilməsinə, bütün səviyyəli yarışlarda iştiraka və yüksək nəticələr göstərilməsinə yönəldilmiş bədən tərbiyəsinin tərkib hissəsi başa düşülür[44].

---

[43] Andres Lehtmets və Jörg Pont, Həbsxanada səhiyyə və tibb etikası, 26 (2017).

[44] Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunu (2009)

CÇM-də bədən tərbiyəsi və idman məhkumların əsas hüquqlarından hesab edilir. Orada gün bölgüsündə fiziki məşqlər, o cümlədən səhər gimnastikası və gündə bir saatdan az olmayaraq idmanla məşğul olma nəzərdə tutulur. Bundan əlavə öz vəsaitləri hesabına idman geyimi və ya alətlərini əldə etmək hüququ verilir, futbol yarışları da keçirilir.

Xarici ölkələrdə CÇM-də müxtəlif idman növləri üzrə təlimçilər gətirilərək peşəkar təlim keçmək üçün rəsmi idman məşqçiliyi kursları təşkil olunur. On həftə ərzində on iki seçilmiş məhbus iştirakçıdan ibarət qrup futbol, amerikan futbolu *(reqbi)*, basketbol kimi idman növləri ilə tanış olur. Sonuncu belə kursdan on iki məhbusun hamısı idman məşqçiliyi üzrə sertifikat qazandılar ki, azadlığa çıxdıqdan sonra qeyd edilən fəaliyyəti davam etdirə bilsinlər. İştirakçılar öyrəndikləri bacarıqlarını CÇM işçilərinə, rəhbərliyinə və ən əsası öz ailələrinə nümayiş etdirirlər. Proqramın bu xüsusiyyəti məhbusların ailələri qarşısında müvəffəqiyyətli, nəyəsə nail olmuş kimi təqdim edilməsinə imkan vermək kimi böyük faydaya malikdir ki, bu da öz növbəsində ailə bağlarını gücləndirə bilər[45].

**V** Cəza çəkən şəxslərin ictimai faydalı əməyə cəlb edilməsi onların islah edilməsi və müəyyən mənada cəmiyyətə inteqrasiyası üçün önəmli vasitələrdən hesab edilir. Belə ki, ictimai faydalı əməyin mahiyyətində bir çox tərbiyəvi təsirlər özünü göstərir. Həmin tərbiyəvi təsirlərə həm cəza çəkən şəxsdə müsbət xarakterik xüsusiyyətlərin formalaşması, həm

[45] Irish Prison Service. Doing More with Less: Prisoner Rehabilitation in Ireland, (2019).

də cəzadan azad olunduqdan sonra bərpa edilmiş iş qabiliyyətindən istifadə etməsi aiddir ki, bu da onların sosial adaptasiyası üçün önəmli hesab edilə bilər.

*Qeyd etmək lazımdır ki, ictimai faydalı əməyə cəlb etmə öz xarakterində cəza təəssüratı yaratmamalı, cəza çəkən şəxsin daxili razılığı əsasında baş verməlidir.*

Hər bir cəza çəkən şəxs CÇM-in müdiriyyəti tərəfindən müəyyən edilmiş yerdə və işlərdə əmək fəaliyyəti ilə məşğul olmalıdır. CÇM-in müdiriyyəti onların cinsini, yaşını, əmək qabiliyyətini, sağlamlığını, imkan daxilində ixtisaslarını nəzərə alaraq, faydalı əməyə cəlb etməlidir. Cəza çəkən şəxslər bir qayda olaraq CÇM-in istehsalat sahələrində, bu müəssisələrin normal fəaliyyətinin təmin olunması üçün nəzərdə tutulmuş təsərrüfat və məişət işlərində, habelə CÇM-dən kənar digər istehsalat obyektlərində müəyyən olunmuş qaydada mühafizə və təcrid olunmaqla əməyə cəlb olunurlar. Bundan əlavə bəzi kateqoriya şəxslərin əməyə cəlb edilməsi könüllü razılıq əsasında həyata keçirilir.

Cəza çəkən şəxslərin iş vaxtının müddəti, əməyin mühafizəsi və istehsalat sanitariyası qaydaları, istirahət, staj, məzuniyyət, əməyin ödənilməsi və digər məsələlər bəzi istisnalar nəzərə alınmaq şərtilə Əmək Məcəlləsinə uyğun olaraq müəyyən edilir.

Cəza çəkən şəxslərin CÇM-də əməyə cəlb edilməsi məqsədilə xüsusi kənd təsərrüfatı sahələrinin yaradılması faydalı ola bilər. Orada onların icma şəklində işləməsi öz zəhmətləri ilə özlərini təmin etməyə kömək edə bilər. Müəyyən qrup şəxslərin heyvandarlıq ilə məşğul olması, digər hissənin əkin-

ciliklə məşğul olması və s. həm cəza çəkən şəxsdə məsuliyyət hissinin yaranmasına, həm də yalnız öz zəhmətləri ilə həyatını təmin edəcəkləri barədə təəssüratın formalaşmasına səbəb ola bilər.

*Qeyd etmək lazımdır ki, cəzanın icrası ilə dünyada fərqlənən, "Skandinaviya müstəsnalığı" adlanan Norveç Penitensiar sistemində bununla bağlı formalaşdırılan sahələr "əmək adası" adlanır və eyni qayda orada da birgə fəaliyyət vasitəsilə məhkumlar bir-birilərinə yardım edirlər*. Qeyd edilən tədbirlər Azərbaycanda da görülür və istehsalat bölgəsi adlanır. Orada əsasən qadınlar üçün toxuculuq, xalçaçılıq, tikiş, şirniyyat sexləri və s. formalaşdırılır.

Bundan əlavə cəza çəkdiyi dövrdə məhkumların CÇM-dən kənarda işlə təmin olunmasına, qazanc əldə etməsinə yardımçı olmaq onların cəmiyyətə inteqrasiyası aspektindən çox mühüm hesab edilməlidir. *Xarici ölkələrdə cəza çəkən şəxslər cəza çəkdiyi dövrdə əmək fəaliyyəti ilə məşğul olduğu zaman qazandığı maddi vəsaitin müəyyən hissəsini xərcləyə bildiyi halda, digər hissəsi onun hesabına köçürülür*. Nəticədə, şəxs azadlığa çıxdıqdan sonra ehtiyac içində qalmır və hesabına ötürülmüş vəsait vasitəsilə tələbatlarını müəyyən müddət təmin edə bilir.

Qeyd etmək lazımdır ki, məhkumları CÇM-dən kənarda cəmiyyətə, insanlara faydalı olacaq işlər ilə məşğul olmasına şərait yaratmaq onların islahına təsir edəcəkdir. Fikrimizcə, yaşlılara, köməyə ehtiyacı olan şəxslərə və s. yardım edilməsinin *(yaşlılar evində təmizlik işlərinin aparılması və s)* məhkumların mənəvi "dünya"sına təsir etmə ehtimalı çoxdur və bu

məsələ önəmlidir. *Bu səbəbdən məhkumları bu tip işlərə həvəsləndirmək, sosial yardımla əlaqədar işlərə cəlb etmək, onlarda vətənpərvərlik, insanlıq hisslərini oyadaraq insanlara yardım etməsinə şərait yaratmaq onların sosial adaptasiyasına və islah edilməsinə kömək edə bilər.*

**VI** Cəza çəkən şəxslərlə dini-mənəvi söhbətlərin aparılması onların islah edilməsi aspektindən doğru yanaşma hesab edilə bilər. *Mənəvi söhbətlərin aparılması onların daxili aləminə təsir etmək qüvvətinə malikdir. Bunu nəzərə alaraq məhkumların vicdan azadlığı CÇM-də təmin edilir, din xadimləri məhkumların xahişi ilə CÇM-ə dəvət olunur.*

Nəinki din xadimlərinin mənəvi söhbətləri, həm də digər qurumların maarifləndirici tamaşalar nümayiş etdirməsi məhkumların islahına və nəticədə gələcəkdə müsbət şəkildə cəmiyyətə inteqrasiya olmasına kömək ola bilər.

*Bundan əlavə dini və digər dövlət qurumlarının məhkumların mənəvi "dünya" sına müsbət təsir edəcək kitabları CÇM-in kitabxanasına hədiyə etməsi lazımi tədbirlərdən hesab edilə bilər.*

Dini xidmətlər və maarifləndirmə məhbuslara CÇM-də şəraitində mənəvi dəstək olmaq, onları günahkarlıq psixologiyasından azad etmək, həyata bağlılıq hisslərini inkişaf etdirmək, onlara mənəvi dəstək olmaq, qaydalara uyğun yaşamağı öyrətmək, cəmiyyətə ahəngdar şəkildə qayıtmalarını təmin etmək üçün təklif olunan maarifləndirmə və bələdçilik xidmətlərinin ən mühüm sahələrindən biridir. Çünki məhbuslar üçün mühüm təsəlli mənbəyi olan dinin ruhun rahatlığını təmin edən, tənhalıqdan xilas edən, ruh sağlam-

lığını qoruyan, həyata inam yaradan, etdiyi cinayətdən peşman olmasına səbəb olan və özünü inkişaf etdirmə gücü verən təsirə malikdir[46].

Məhkumların sosial adaptasiyasının uğurlu şəkildə nəticə əldə etməsi üçün onların mənəvi dünyasına səyahət etmək üçün bir sıra incəsət fəaliyyətlərindən yararlanmaq mümkündür. Onların incəsənət fəaliyyəti ilə məşğul olması öz fəaliyyət istiqamətini aşkarlamağa, psixoloji-mənəvi olaraq özlərini islah etməsinə *(rəsm, incəsənət, ədəbiyyat və s. ilə məşğul olan insanların daha mərhəmətli, rəhmli, mənəviyyatlı olması mümkündür)*, özlərində motivasiya yaranmasına və s. təsir edə bilər.

Hazırda bir çox ölkələrdə cəza sistemində təsviri incəsənət müsabiqələri keçirilir. Buna misal olaraq 2003-cü ilin avqust ayında, Torontoda keçirilən beynəlxalq incəsənət müsabiqəsi, festivalı göstərilə bilər. Bundan əlavə Estoniyada məhkumlara pul mükafatları verən ənənəvi müsabiqə keçirilir və üç kateqoriya üzrə təşkil olunur: *rəssamlıq, qrafika və tətbiqi sənət*[47].

Bu cür fəaliyyətlər məhkumlarda aşağı səviyyədə olan özgüvəni artırmağa, yeni istedadlarını kəşf etməyə, onlara qarşı qərəzli münasibət bəsləyən insanlara ən yaxşı istedadlarını göstərməyə və nəhayət, onların düşüncə və dünyaya baxışını dəyişməyə kömək edir. Bu tədbirlər sistemi sübut edir ki, incəsənət məhkumların islahına və tərbiyəsinə kömək edə

---

[46] Özdemir, Ş., *Cezaevi Din görevlileri ve yöneticilerine göre cezaevlerinde din eğitimi,* 2 Din Bilimleri Akademik Araştırma Dergisi (2002).
[47] Ю. В. Ерохина, *Социально-Педагогическая Реабилитация Осужденных И Роль Искусства В Ней*, 312 Уголовное право. Уголовный процесс. Криминалистика (2019).

bilər[48]. Bundan əlavə bu tip fəaliyyət onların özlərinə əlavə iş tapmaları üçün faydalı ola bilər.

**VII** AR CİM-in 175-ci maddəsinə əsasən cəza çəkən şəxslərin azadlığa çıxması zamanı onlar barəsində yardım və nəzarət tədbirləri həyata keçirilməlidir. Cəza çəkməkdən azad edilməyə hazırlıq məqsədilə CÇM-in müdiriyyəti onlarla hazırlıq işi aparır, hüquq və vəzifələrini izah edir, cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası barədə qanunvericilik haqqında məlumat verir.

AR CİM-in 176-cı maddəsinə əsasən müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzanı çəkməkdən azad edilmiş şəxslər yaşayış yerinə getmək üçün ərzaq məhsulları və gediş haqqı ilə təmin olunurlar. CÇM-dən azad edilmiş şəxslərin zəruri mövsümi geyimi, ayaqqabısı və bunları əldə etməyə imkanı olmadıqda, onlar dövlət hesabına geyim və ayaqqabı ilə təmin olunurlar. Onlara birdəfəlik pul müavinəti də verilə bilər.

Sağlamlığında problem olan və tibbi yardıma ehtiyaclı şəxslərə münasibətdə yardım işləri görülür. Belə ki, onların qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət büdcəsindən maliyyələşdirilən tibb müəssisələrində tibbi xidmətlərdən istifadə etmək hüquqları vardır. Cəza çəkməkdən azad edilmiş vərəm xəstəliyinə tutulan şəxslər AR Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin nəzarəti ilə yaşayış yeri üzrə vərəm əleyhinə tibb müəs-

---

[48] Ю. В. Ерохина, *Социально-Педагогическая Реабилитация Осужденных И Роль Искусства В Ней,* 312 Уголовное право. Уголовный процесс. Криминалистика, 313.

sisələrində qeydiyyata alınırlar. Yoluxucu xəstəliklərə tutulmuş və epidemioloji baxımdan ətrafdakılar üçün ciddi təhlükə yaradan cəza çəkməkdən azad edilmiş şəxslər stasionar müalicədən imtina etdikdə, qanunvericiliklə müəyyən edilmiş qaydada məcburi hospitalizasiya olunurlar.

## 2.3. Şəxsiyyətin sosiallaşması

Məhkumların sosial adaptasiyası özünü məhkumların sosiallaşmasında biruzə verir. Belə ki, cəzanın icrası zamanı tətbiq edilən tədbirlərin səmərəli nəticə verməsi özünü azadlığa çıxma mərhələsində və azadlıqda göstərir. Çünki, həqiqətdə bir insanın "kim"liyi fərdi olaraq deyil, cəmiyyətdə müəyyən edilir. Bu müəyyən mənada şəxsiyyətin formalaşması üçün lazım olan vasitələrlə bağlıdır.

Uzun müddət cəmiyyətdə yaşayan, lakin asosial xüsusiyyətləri səbəbindən insanlarla düzgün münasibət yarada bilməyən, nəticədə subyektiv amillərin təsiri altında cinayət törədən, obyektiv və subyektiv amillərin təsiri altında sağlam olmayan xüsusiyyətləri formalaşan, mənfi mühitdə mənfi ideyalar qəbul edən və həmin mühitə adaptasiya olan şəxs cinayi davranışı sayəsində öyrəşdiyi mühitdən uzaqlaşaraq CÇM-ə daxil olur[*].

Cinayət törətmiş şəxsin CÇM ilə ilkin tanışlığı zamanı onda görünən nizamsız davranışlar onun CÇM-ə adaptasiya ola bilməsinin çətinləşməsində özünü göstərir. Zamanla yeni mühitə adaptasiya olan məhkum artıq cəzanın çəkilməsi müddəti bitdikdən sonra azadlığa çıxmaq məcburiyyətində

---

[*] *Deməli, CÇM-in digər funksiyası cinayət törətmiş şəxsi öyrəşdiyi asosial mühitdən uzaqlaşdırmaqdır. Fikrimizcə, bu amil (yəni, şəxsi hər hansı mühitdən uzaqlaşdırmaq zərurəti) şəxs barəsində azadlıqdan məhrum etmə yoxsa digər cəzaların təyin edilməsinin vacibliyini aşkar şəkildə göstərə bilər. Yəni, əgər şəxsin cinayət törətməsinə səbəb olan amil onun mövcud olduğu mühit ilə bağlıdırsa, həmin insanı mənfi mühitdən uzaqlaşdırmaq üçün azadlıqdan məhrum etmə cəzasının seçilməsi doğru hesab edilə bilər. Əgər, cinayətin törədilməsinə səbəb olan amillər mühitlə əlaqədar deyildirsə, bu zaman fərqi cəza növlərinə müraciət etmək lazımdır.*

qalır. Bu halda isə artıq şəxs CÇM-də mövcud olan mühitə adaptasiya olduğu üçün gedəcəyi yeni şəraitə alışmaqda çətinlik çəkə bilər.

Ümumiyyətlə insanlar zamanla müxtəlif mühitlərə daxil olur, ora öyrəşmək məcburiyyətində qala bilirlər. Əslində bu funksiya insanda bioloji olaraq mövcuddur və yaşamaq instiktindən irəli gəlir. Belə ki, insan adi psixoloji proseslər *(məsələn, duyğular ilə bağlı görmə fəaliyyəti)* zamanı belə mövcud şəraitə adaptasiya olmalı olur. Əlbəttə ki, bu məsələ sadəcə olaraq psixi proseslər ilə əlaqələndirilə bilməz. Ali formada şəxsiyyətin formalaşması özündə adaptasiya qabiliyyətini, sosial amilləri ehtiva edir, ali formada adaptasiya şəxsiyyətə aid hesab edilə bilər.

Hər bir insanın şəxsiyyət kimi formalaşması, sosiallaşması, sosial adaptasiyası onun ilkin olaraq fərd olmasından başlayır, hər bir insan dünyada gəldiyi zaman fərd olaraq var olur. Daha sonra fərd cəmiyyət, sosial mühitlə tanış olduqdan sonra şəxsiyyət olaraq formalaşmağa başlayır. Şəxsiyyət isə öz növbəsində fərdin aktiv fəaliyyətindən doğaraq, onun cəmiyyət içində müəyyən sosial keyfiyyətlər qazanması ilə inkişaf edir, formalaşır.

«Şəxsiyyət» anlayışı biososial varlıq olan insanın ancaq sosial tərəfini ifadə edir. Şəxsiyyət yüksək zəkalılığı, öz hərəkət və davranışı üçün məsuliyyət hissini, şəxsi ləyaqəti və başqa yüksək mənəvi keyfiyyətləri özündə təcəssüm etdirən insandır. Şəxsiyyət müstəqil, sosial cəhətdən fəal olan

adamdır. Şəxsiyyətin başlıca cəhəti onun sosial fəaliyyətidir[49].

İnsan yaşamaq və ətraf mühitə uyğunlaşmaq üçün müəyyən davranışları öyrənməlidir. Həyatın axarında tək başına heç bir məna kəsb etməyən insan istər-istəməz başqa insanlarla birgə yaşamalı, onlarla münasibət qurmalıdır. Bu qarşılıqlı əlaqə vasitəsilə insanlar bir-birini sözün əsl mənasında tamamlayırlar. Cəmiyyətin bir parçası olmalı olan insan tək yaşadığı real həyatın üzləşdiyi çətinliklərin öhdəsindən gəlmək mümkün olmadığından başqa insanlarla birgə yaşamalı, qüvvələr birliyi yaratmalıdır[50].

Sosiallaşma şəxsiyyətin təşəkkülü və inkişafı prosesi olub, fərd tərəfindən özünün bütün həyatı boyunca ona cəmiyyətdə fəaliyyət göstərməyə imkan verən sosial və digər normaların, mədəni dəyərlərin və davranış nümunələrinin mənimsənilməsindən ibarətdir. Sosiallaşma insana sosial təbiətə yiyələnməkdə və cəmiyyət həyatında iştirak etmək bacarığı qazanmaqda kömək edən mədəniyyətə qovuşmaq, kommunikasiya və davranış proseslərini özündə birləşdirir[51].

Sosiallaşmalı olan insanın müəyyən vasitələrə ehtiyacı vardır. Bu vasitələrin çox hissəsi cəmiyyət içərisində var olur və inkişaf edir. İnsanın sosiallaşması da öz növbəsində sosial mühitin və ya cəmiyyətin olmasını şərtləndirir.

Cəmiyyət sosial ehtiyacları ödəmək və ümumi mədəniyyəti bölüşmək üçün qarşılıqlı əlaqədə olan çoxlu

---

[49] Vahidov F.Q. redaktorluğu ilə, Sosiologiya dərslik, (2006).

[50] Mimar Türkkahraman, Toplum ve Temel Toplumsal Kurumlar, Kurumlar Sosyolojisine Giriş (2006).

[51] Z.T. Qolenkova, M.M. Akuliç, V.N. Kuznetsov. Ümumi sosiologiya İzzət Rüstəmovun tərcüməsi, 166 (2007).

insanların birliyidir. Bu tərif cəmiyyəti qrupdan fərqləndirir. Qrup fərdlərdən, cəmiyyət isə qruplardan ibarətdir. Bir əsas qrupun üzvləri digər əsas qrupun üzvlərindən tamamilə fərqlidirlər. İnsanlar sosial rollarını "oynayaraq" bu əsas qrupları təşkil edən bütün ilkin və ikinci dərəcəli birliklərdə iştirak edirlər. Beləliklə, cəmiyyət ümumi mədəniyyəti paylaşan və vahid kimi baxılan, bir-biri ilə əlaqəli qruplar şəbəkəsi kimi müəyyən edilə bilər[52].

Sosiallaşma sayəsində insanlar cəmiyyətin irəli sürdüyü rəftar və fəaliyyət modellərini, nümunə və düşüncə tərzini öyrənirlər. Beləliklə, sosiallaşma insanın sosial mədəniyyətlə inteqrasiyasını və yaşadığı cəmiyyətə uyğunlaşmasını təmin edən mexanizmdir[53].

Həyatın başlanğıcında görülən ilk sosial davranış körpələrin analarına bağlılığıdır *(bağlılığın uyğunlaşma cəhətdən mühüm önəmi var).* Böyüyən körpələr eyni şəkildə analarına bağlı qala bilməz və ətraflarını araşdırmaq üçün onlardan ayrılarlar. Anlaşıldığı kimi, ilk sosial davranışın inkişaf hekayəsi anaya bağlılıq və ondan ayrılma ilə başlayır. Beləliklə, uşaqlar böyüdükcə başqa insanlarla qarşılaşır və onlarla müsbət münasibət qururlar. İnsan bütün həyatını ətraf mühitə uyğunlaşmağa sərf edir və bu uyğunlaşma səyi doğuşdan başlayaraq inkişaf edir. Sosiallaşma prosesində fərd bir tərəfdən cəmiyyətlə harmoniyada yaşamaq üçün sosial qaydalar qəbul edərək digər fərdlərə bənzəyir, digər tərəfdən

---

52 Fichter Joseph, Sosyoloji Nedir, Çev. Nilgün Çelebi, (2004).
53 Serdar Şahin, "Bir Sosyalleşme Mekanizması Olarak Askerlik Kurumu", 18 (2007).

onu digər fərdlərdən fərqləndirən şəxsiyyət keyfiyyətləri əldə edir və inkişaf etdirir. Bu hal "fərdin sosiallaşması" və ya "sosial inkişaf" adlanır[54].

Şəxsiyyətin sosial mühitə daxil olması, cəmiyyətlə əlaqə qurması nəticəsində onda baş verən dəyişikliklər barədə tarix boyu sosioloqlar, psixoloqlar arasında müəyyən müzakirələr olmuşdur. Şəxsin cəmiyyətə inteqrasiyası nəticəsində onun həyatında dəyişiklik ümumi olaraq iki formada özünü göstərə bilər. Bu halda şəxs ya cəmiyyətin düşüncə və ya həyat tərzinə uyğunlaşacaq *(yəni sosial adaptasiya olacaq)*, ya da kütlə və ya cəmiyyət arasında olduğu halda, yad düşüncələr, həyat tərzi və s. şəxsin daxili aləminə keçid edəcək *(yəni interiorizasiya baş verəcək)*, müəyyən formada şəxsin düşüncəsi cəmiyyət içində "əriyəcək", yox olacaq. Buna baxmayaraq fikrimizcə, bu "yox olma" prosesi nə qədər şiddətli olsa da, insan öz fərdiyyət xüsusiyyətini özündə müəyyən qədər *(ilkin formada)* və ya düşüncələrini, həyat tərzini cəmiyyətə uyğunlaşmış, təhrif olunmuş, dəyişmiş şəkildə saxlayır.

Qeyd edildiyi kimi fərdin psixoloji sağlamlığı onun şəxsiyyət olmasından, şəxsiyyət olması isə sosial mühitdən asılıdır. Lakin, nəzərə almaq lazımdır ki, hər bir sosial münasibət fərdin şəxsiyyət olmasına kömək ola bilməz. Burada əsas məsələ ziyan vurmayacaq münasibətlərin qurulması ilə nəticələnən sosial münasibətlərə daxil olmaqdır.

Beləliklə, məlum oldu ki, ümumi formada fərdin şəxsiy-

---

[54] Sosyalleşme ve Sosyalleşme Süreci (2013), Https://Www.Researchgate.Net/ Publication/ 315386774_Sosyallesme_Ve_So Syal-Lesme_Surecı (son baxış iyun 18, 2024)

yətə çevrilməsi, inkişafı sosial mühitdə özünü biruzə verir. Bütün bunlar isə öz növbəsində şəxsin sağlamlığını təmin edir. Sağlam qalmaq, sağlam mühitə daxil olmaq məhkumun adaptasiya olması üçün böyük önəmə malikdir. Belə ki, mənfi sosial mühitdən CÇM-ə daxil olan və oradan azadlığa çıxan fərd *(və ya şəxs)*, şəxsiyyətin strukturuna uyğun olacaq *(müsbət)* mühitə daxil olmalı, ona uyğun fəaliyyətlər həyata keçirməlidir. Əks halda azadlığa çıxan məhkum şəxsiyyət statusunu itirə, qəsd ilə cinayət törədərək yenidən azadlıqdan məhrum edilə bilər. Bu səbəbdən azadlığa çıxan məhkumun sağlam şəkildə sosiallaşması lazımdır.

Fərdin sağlam şəkildə sosiallaşması üçün bəzi funksiyalar birlikdə yerinə yetirilməlidir. Xarici ədəbiyyata nəzər etdikdə bu funksiyalara bilik, təkrar *(təqlid)*, başqalarının reaksiyaları və sosial dəstəyi aid edilir[55]:

*a) Bilik.* Türk sosioloq Enver Özkalp bildirir ki, “bilik fərdlərin cəmiyyətdəki rollarını öyrənmə prosesidir. Rollar müvəffəqiyyətlə öyrənilərsə, həm cəmiyyət, həm də fərd daha xoşbəxt olar, fərdin sosiallaşması daha sağlam şəkildə həyata keçirilər”.

Nəzərə almaq lazımdır ki, insanlar cəmiyyətdə müxtəlif rolları həyata keçirirlər. Bunlardan bir qismi mənfi, digər qismi isə müsbət və ya neytral nəticələr ilə yekunlaşa bilər. Həmin rollara uyğun olaraq isə insanların davranış və düşüncələrində fərqliliklər özünü göstərir.

Sosial rola *(və ya tipə)* malik olan insan cəmiyyət üçün

---

[55] Enver Özkalp, Sosyolojiye giriş, (2007).

faydalı fəaliyyətlər ilə məşğul olduğu halda, müəyyən səbəblərdən cinayətkar rolunu daşıyan insan əksinə olaraq cəmiyyət üçün təhlükəli davranışlar sərgiləyir.

Cəzanın icrası zamanı isə cinayət törətmiş şəxsin malik olduğu mənfi düşüncə və davranışları müsbət yöndə dəyişdirməyə, qanunlara hörmət ruhunda yaşamağa həvəsləndirməyə, mənfi davranışlarının səbəblərini aşkar edərək aradan qaldırılmağa cəhdlər edilir.

*b) Təkrar və təqlid*. Fərdlər cəmiyyətdəki doğru və yanlış davranışları çox vaxt sınaq və səhv yolu ilə təkrarlayaraq öyrənirlər. Müəllif *(Enver Özkalp)* bildirir ki, "uşaqlar sosial rollarını da oyunlar vasitəsilə öyrənirlər. Qızlar "yumşaq" oyunlar oynayaraq analıq roluna hazırlaşarkən, oğlanlar xarakterlərinə daha uyğun olan və gücü önə çıxaran oyunlar oynayırlar. Beləliklə, kişilər ailəsinin başçısı olan və ailəsini qoruyan ata roluna hazırlanır. Uşaqlar bu oyunları daim təkrarlamaqla öz rollarını gücləndirirlər".

"Uşaqlar bəyəndikləri və təsirləndikləri insanları model kimi qəbul edərək onlar kimi geyinməyə, danışmağa, davranmağa çalışırlar. Xüsusilə qızlar anaları kimi olmağa çalışır, oğlanlar isə atalarını təqlid edirlər. Valideynlərindən başqa uşaqlar öz böyük qardaş və ya bacılarını, digər qohumlarını, müəllimlərini, məşhurları və ya tanıdıqları digər insanları təqlid edə bilərlər. Bu yolla uşaqlar sosial rolları öyrənirlər".

"Sosiallaşmada örnək alınan insan əslində çox əhəmiyyətlidir. Çünki, təqlid edilən şəxs müsbət davranışlar nümayiş etdirərsə, uşaq da müsbət davranışlar göstərər.

Mənfi davranış nümayiş etdirən biri nümunə götürülərsə, uşağın davranışı mənfi yöndə inkişaf edər".

*c) Başqalarının reaksiyaları*. Müəllif bildirir ki, "müsbət və mənfi reaksiyalar cəmiyyətin fərdlərini tərbiyə etmək üçün istifadə etdiyi əsas vasitələrdir. Fərdlər cəmiyyətin reaksiyalarına çox əhəmiyyət verirlər çünki, hər bir insan təqdir olunmaq istəyir. Əgər fərd cəmiyyət tərəfindən müsbət hesab edilən davranış nümayiş etdirirsə, o, bəyənilir və təqdir edilir. Cəmiyyəti təşkil edən insanlar müxtəlif davranışları ilə şəxsiyyətə olan qiymətlərini göstərirlər. Əgər fərd cəmiyyət tərəfindən qəbul edilməyən davranışlar göstərərsə, cəmiyyət həmin fərdə mənfi reaksiya göstərər. Həmin adamı qınamaqla, onunla münasibətləri azaltmaqla və ya kəsməklə, onu kənarlaşdırmaqla öz reaksiyalarını göstərirlər. İnsan adətən cəmiyyətin zövqünə uyğun olaraq davranışını dəyişir".

Qeyd etmək lazımdır ki, bu məsələ cinayətkarlıqla mübarizə, qanunvericiliyin funksiyalarının müəyyən edilməsi, maarifçilik və xəbərdarlıq tədbirlərin həyata keçirilməsi və s. üçün önəmlidir.

*d) Sosial Dəstək*. Dünyanı yeni tanımağa başlayan uşağın dəstəyə ehtiyacı olduğu kimi, sahib olduğu köhnə mənfi qaydaları yıxaraq yeni müsbət qaydaları mənimsəməyə çalışan, həvəsləndirilən məhkum da mütləq şəkildə dəstəyə ehtiyac duyur.

Bu mənada müəllif bildirir ki, "sosial dəstək insanın ailəsi, qohumları və dostlarından ibarət olan qrupun istiqamətləndirilməsi və həvəsləndirilməsidir. Bir insanın sosial rolları mənimsəməsi üçün sosial dəstək çox vacibdir. Əgər

uşaq futbolu çox yaxşı oynayırsa və ətrafı da bu baxımdan ona dəstək olarsa, uşaq bu sahədə irəliləyir və futbolçu rolunu mənimsəyir. Əgər ailəsi bu məsələdə ona dəstək olmasa, uşaq böyük ehtimalla futbolu atıb, fərqli rollar axtaracaqdır”.

Ədəbiyyata nəzər etdikdə əlavə olaraq insanın sosiallaşması üçün əsas olan üç amil göstərilir[56]. Bunlara ünsiyyət, fəaliyyət və şəxsi fərqindəlik aid edilir. Əslində bu amillər şəxsiyyətin strukturuna aiddir ki, bu da təsadüfi deyil. Çünki, artıq qeyd edildiyi kimi fərdin şəxsiyyət olaraq formalaşması onun sosiallaşmasında təzahür edir.

Şəxsiyyətin formalaşmasında bir çox amillər önəmli rola malik olsa da, məhkumların sosial adaptasiyası aspektindən fəaliyyət xüsusi olaraq nəzərdən keçirilməlidir. Fəaliyyət müəyyən məqsədə yönələn iradi davranışdır. Qeyd edildiyi kimi, fəaliyyət müəyyən məqsədə yönəlir ki, həmin məqsədin yaranması da öz növbəsində müəyyən tələbatlardan irəli gəlir.

Həmin tələbatlar təbii *(yaşamaq üçün lazım olan zəruri ehtiyaclar, qida, geyim və s.)* və sosial *(şəxsiyyətin formalaşması və cəmiyyətdə “yaşaması” üçün lazım olan tələbatlar, əmək, mənəvi dəyərlər, əqidə və s.)* olmaqla iki yerə bölünür. Bütün bunlar isə öz növbəsində şəxs üçün müəyyən məqsədə çatma vasitəsi hesab edilir. Həmin məqsədlər şəxsin özü üçün önəmli hesab edilsə də, həqiqətdə önəmli və ya önəmsiz olaraq iki yerə bölünə bilər.

---

[56] *О. Г. Ананьев, Б. В. Александров, Г. В. Щербаков, Ресоциализация И Социальная Адаптация В Уголовноисполнительной Системе, 2021, 236 с.*

Tələbatlar və məqsədlər arasında uyğunluğun olması mütləqdir. Buna baxmayaraq həmin tələbatların ödənildiyi şəraitin mövcud olması da məqsəd üçün lazımlı hesab edilməlidir. Əks halda həmin məqsədə çatmaq və ya tələbatları ödəmək qeyri-mümkün və ya çətin olur.

Şəxsin qarşıya qoyduğu məqsədə çatması üçün müəyyən motivə ehtiyacı olur. Həmin motiv isə şəxsin düşüncə, həyat, baxış tərzindən asılı olaraq fərqlənir, fərqli fikirlərdə özünü göstərə bilir.

Şəxsin öz tələbatlarını ödəməsi çətin və ya qeyri-mümkün olduqda, yəni tələbatın ödənilməsi üçün şərait mövcud olmadıqda, həmin tələbatın ödənilməsi bəzi hallarda ziyanlı hərəkətlərin edilməsi ilə baş verir. Ümumiyyətlə insanın hərəkəti, fəaliyyəti fayda qazanmaq və zərərdən uzaqlaşmaq üzərində qurulduğu üçün həmin şəxs barəsində nəzarətin olmaması, motiv yaradılmaması, dəyərlərin həqiqi formada göstərilməməsi, təhrifi və s. düzgün deyil və şəxs üçün uyğun şəraitin yaradılmasına ehtiyac vardır.

Qeyd edildiyi kimi, insanın sosiallaşması üçün müvafiq şəraitin olması önəmlidir və bunlara sosiallaşmanın agentləri *(mexanizmi)* olaraq anlayış verilir. Bu amillər yetkin şəxslər, həm də yetkinlik yaşına çatmayan şəxslər üçün zəruri hesab edilir. Bütün bunlara ailə, mədəniyyət, məktəb, cəmiyyət *(qrup və ya dostlar)*, kütləvi informasiya vasitələri, əmək fəaliyyəti və s. aid edilir.

Müəyyən şəraitin yaradılması, mühitin formalaşdırılması həm CÇM üçün, həm də sosial adaptasiya mərkəzləri üçün araşdırılması mühüm məsələlərdəndir. Xüsusən də yetkinlik

yaşına çatmayan şəxslərin tərbiyə və islah edilməsində uyğun şəraitin yaradılması çox önəmlidir.

Müxtəlif dövlətlərə, cəmiyyətlərə, kütlələrə nəzər etdikdə də müşahidə olunur ki, orada mövcud olan ideoloji fikir, düşüncə və ya həyat tərzi həmin mühitə aid olan şəxslərin fəaliyyətinə, hərəkətlərinə ciddi təsir edir. Bu da müəyyən qədər inandırma metodundan *(iradi və ya qeyri-iradi şəkildə baş verir)*, sosial öyrənmədən irəli gəlir.

Hər bir ideologiyanın, fikrin müsbət tərəfləri olsa da, hər zaman onlardan mənfi yöndə istifadə etmək mümkündür. Bunu nəzərə alaraq inandırma metodu vasitəsilə cəmiyyətdə azad, amma təhrif edilməmiş düşüncəni formalaşdırmaq, hər hansı məcburiyyət tədbirlərindən daha effektli ola bilər.

Bu məsələyə şəxsiyyətin sosiallaşması aspektindən yanaşdıqda CÇM-in mövcudluğunun məhbusların sosial xüsusiyyətlərinə zərər vurma riski olduğu görünür. Adətən sosial tələbatlarına uyğun olaraq müəyyən şəraitdə olan şəxsdən fərqli olaraq, CÇM-də olan məhbuslar oradakı "kiçik cəmiyyət"ə uyğunlaşır, mənfi normalara, mühitə adaptasiya olur.

Bu mənada cəmiyyətdə mövcud olan rəhbər düşüncə aspektindən məsələyə yanaşdıqda demək olar ki, cəmiyyət içində qeyri-etik və cinayətkar düşüncəyə malik olan şəxslərin sayının artması, cəmiyyət içində həqiqi, faydalı, doğru düşüncə tərzinin təhrif edilməsinə səbəb ola bilər ki, bu da öz növbəsində digər "sağlam" şəxslərin düşüncəsinin təhrif olmasına, dəyişməsinə, sosial normalara zidd hərəkətlərin edilməsinə şərait yarada bilər. Çünki, cəmiyyət içində düşüncə tərzinin formalaşması, həmin dünücə tərzinə mənsub olan

şəxslərin sayından, onların təsirindən, aktuallığından və s. asılıdır.

Müəyyən düşüncəyə mənsub olan şəxslərin sayının çoxluğu həmin cəmiyyətdə mövcud, rəhbər düşüncə tərzinin həmin sayı çox olan şəxslərin düşüncə tərzinə uyğunlaşmasına səbəb ola bilər. *Beləliklə, bütün deyilənləri nəzərə alaraq "cinayət törətmiş şəxsə qulluq və ya xidmət etmək, fayda vermək qeyri-etik hərəkətdir" kimi ifadələri inkar edir, həmin cinayi düşüncəyə malik şəxslərin islah, tərbiyə edilməsini və bunun üçün münbit şəraitin yaradılmasını önəmli sayırıq.*

Şəxsin sosiallaşması, daha doğrusu sağlam şəkildə inkişaf etməsi onun yalnız münbit mühitə daxil olunması, müvafiq tədbirlərin görülməsi, sosiallaşması üçün lazım olan funksiyaların həyata keçirilməsi və s. ilə yekunlaşmır. Bu yolda nəzarətin həyata keçirilməsi də önəmlidir.

*Nəzarət olmadan da özünü iradi və könüllü olaraq müsbət fəaliyyətdə tapan insanların sayı az olsa da, əksəriyyət üzərində nəzarətin həyata keçirilməsi lazımdır.* Ümumiyyətlə, insan öz üzərində nəzarət olduğunu dərk etməli, bilməli, hiss etməlidir. Əks halda müxtəlif sui-istifadə halları özünü göstərə bilər. Beləliklə, fərdin şəxsiyyət olaraq formalaşması, onun sosiallaşması zamanı və ondan sonra onun üzərində sosial, daxili və digər növ nəzarətin həyata keçirilməsinə ehtiyac vardır ki, sosiallaşma, sosial normalara riayət etmə öz qaydasında təmin edilsin.

*Doğrudur ki, müəyyən qayda və qadağalar qoymaqla insanların müsbət hərəkət edib, mənfi fəaliyyətlərdən uzaqlaşmasını gözləmək sadəlövhlük olardı. Buna baxmayaraq*

*nəzarət zamanı müsbət təsir edən üsullardan istifadə etmək mümkündür.*

Ayrı-ayrı fərdlərlə bütövlükdə cəmiyyət arasında sosial münasibətlər özbaşına tənzim olunmur, burada sosial nəzarət müstəsna rol oynayır. Sosial nəzarət dedikdə, sosial sistemi təşkil edən elementlərin qarşılıqlı təsirini normativ nizamlama vasitəsilə öz-özünə tənzim etməsi üsulu nəzərdə tutulur. O, çox mühüm funksiya yerinə yetirir: cəmiyyətdə mövcud sosial münasibətlərin və sosial strukturların normal inkişafını təmin etməyə yönəlir.[57].

Sosial nəzarət, potensial təhlükə və ya problem yaradan şəxsləri həvəsdən salmaq, davranışını məhdudlaşdırmaq və ya dəyişdirmək üçün müxtəlif mexanizm və üsullardan istifadəni nəzərdə tutur[58].

Bu kontekstdə, yayınmaya qarşı sosial reaksiyalar olaraq təyin oluna bilən sosial nəzarət təcrübələri bir davranışın "sosial normalara zidd" olaraq təyin edilməsində mühüm rol oynayır. Sosioloq Koen *(ing: Cohen)* sosial nəzarəti "deviant davranışın qarşısını almaq üçün inkişaf etdirilən bütün münasibət və qaydaları özündə cəmləşdirən təşəbbüslər" kimi müəyyən edir[59].

Bütün bunlara baxmayaraq bəzi hallarda insanlar normaları pozur, sosial yayınma, sosial normalara zidd

---

[57] Z.T. Qolenkova, M.M. Akuliç, V.N. Kuznetsov. Ümumi sosiologiya İzzət Rüstəmovun tərcüməsi, 166 (2007).
[58] Edwards R. A. (1998) Regulation and repression , Sydney:Allen &.Unwin.
[59] Rahşan Balamir Bektaş ve Ayça Gelgeç Bakacak, *Differing Faces of Discourse on Social Control in Modernity*. 35 Edebiyat Fakültesi Dergisi (2009).

davranış göstərir. Bütün bunların əsasında normanın quruluşu önəmli yer tutur. Normalar qanuni, hüquqi, ictimai olmaqla müəyyən növlərə bölünür. Hər birinin yaranması, formalaşması üçün insanların adətləri, düşüncə tərzi, fikirləri və s. mühümdür. Bu səbəbdən bildirilir ki, normaların formalaşdırılması zamanı insanların düşüncə tərzinə uyğunlaşdırmaq önəmlidir. Əgər düşüncə tərzi mənfi yöndədirsə, bu zaman cəmiyyətin təbiətini müəyyən təbliğatlar, tədbirlər sayəsində müsbət yöndə dəyişmək, daha sonra normanı formalaşdırmaq lazımdır.

İnsanların normalara, "müsbət və mənfi"yə münasibətdə anlayış tərzi ilə bağlı bir sıra faktorlar var. Bunlar zamana və məkana görə dəyişiklik olaraq təsnif edilir. Müəyyən zamanda müsbət hesab edilən hərəkət zamanla, sanksiyalaşdırma və ya ictimai qınaq, təbliğat sayəsində mənfi olaraq qəbul edilə bilər. Burada normaların önəmi göz önünə gəlir. Adətən, müəyyən qanunlarda nəzərdə tutulan norma və sanksiyalar zamanla insanlarda tənqidi xarakterli fikirlərinin formalaşmasına zəmin yarada bilər. Bu həm də maarifləndirmə ilə əlaqədardır.

*Maarifləndirmənin aparılması üçün informasiyanın tez-tez və başa düşülən formada yayımlanması lazımdır.* Bu zaman artıq həmin informasiyaya öyrəşən insan, eyni qaydada digərlərinin də ona müsbət münasibət bəslədiyini gördükdə artıq psixoloji olaraq həmin informasiyanın doğruluğuna inanmağa başlaya bilər *(bu məsələ müəyyən qədər kütlə psixologiyası ilə də bağlıdır)*.

*Hər kəsin yaşamaq üçün müəyyən tələbatları vardır. Həmin tələbatların ödənilməsi üçün isə şəraitin formalaşması*

*mühümdür. Əgər bir insan müəyyən arzularına çatmaq üçün qanuni yollardan istifadə etməyin qeyri-mümkünlüyünü, buna şərait olmadığını və dəstəyin olmadığını hiss edər, "şanslı" insanlara daha çox qayğı və diqqət ayrıldığını düşünərsə qeyri-qanuni, sosial normalara zidd davranış göstərərək həmin istəyinə, arzusuna çatmaq üçün çalışa, öz tələbatlarını mənfi yolla həll etməyə cəhd edə bilər.*

Bu məsələ həm sosial adaptasiya, həm də cinayətkarlıqla mübarizə sahəsində çox önəmlidir. Müəyyən əmək fəaliyyəti ilə məşğul olmaq, müsbət arzularını həyata keçirmək və s. istəyən şəxsə qarşı mənfi münasibət olması, qayğı göstərilməməsi istənilməyən davranışlar ilə nəticələnə bilər.

Sosioloq Robert Merton adaptasiyanın beş növünün – konformizmin, inovasiyanın, rituallığın, retritizmin və qiyamın adını çəkir. Adları çəkilən növlər içərisində yalnız konformizm müəyyən qədər müsbət forma *(fərd cəmiyyətin dəyərlərinə tərəfdar çıxır və onlara qanuni vasitələrlə nail olur, əlbəttə ki, mənfi dəyərlərə də tərəfdar çıxmaq halları gözlənilləndir)* hesab olunur. Digər hallarda isə insan ya qanundan və əxlaq normalarından *(inovasiya)* yan keçir, ya cəmiyyətin göstərişlərinə əməl etməklə əlçatmazlıq kimi öz məqsədlərindən imtina edir *(ritualizm)*, ya «günəş altında yer» uğrunda mübarizəni tərk edərək məqsədlərə və normalara laqeyd olur *(retritizm)*, ya da sosial sistemin yararsızlığını düşünərək, dəyərlərin və onlara nail olmanın əvəzini *(qiyam)*, yolunu axtarır[60].

---

[60] Aqşin İsabala oğlu Quliyev, "Hüquq sosiologiyası", (2012).

Sosial yayınma davranışı həmçinin də fərdin sosial nizamsızlıq vəziyyəti ilə izah etmək olar. Sosial nizamsızlıq insan tərəfindən tutulan elə mövqedir ki, o, fərdin nə qabiliyyətlərinə, nə də cəmiyyətin nail olduğu inkişaf səviyyəsinə uyğun gəlmir. Məsələn ali təhsilli hüquqşünas gözətçi və ya sürücü, çilingər isə avtomobil dayanacağında nəzarətçi işləyir. Belə halda peşə potensialının tələb olunmaması nəticəsində fərd psixoloji gərginlik hiss edir, onda hər hansı kənar yolların köməyilə ədalətin bərpa ediləcəyi haqqında fikir yaranır[61].

Sosial adaptasiya zamanı insanlarda frustrasiya vəziyyətinin yaranmamasına diqqət etmək lazımdır. Frustrasiya *(latınca frustratio – aldanma, nahaq gözləmə, əhval pozğunluğu)* insanın öz məqsədinə çatmasına real və ya xəyali maneələrlə rastlaşdığı zaman düşdüyü psixi vəziyyətdir. Bu emosional halətin mahiyyətini başa düşmək üçün, hər şeydən əvvəl, maneənin xarakterinə, onun insan üçün şəxsi mənasına diqqət yetirmək lazımdır. Məsələn, insanın istədiyi kinoya, konsertə getməməsi və s. onda narazılıq doğurur, lakin şüur və fəaliyyətini poza bilmir. Bəzən isə insan elə maneələrlə rastlaşır ki, bunlar onun arzu və istəklərini ürəyində qoyur, yaranan davamlı mənfi emosional halət onun şüur və fəaliyyətini pozur. Frustrasiya yalnız o zaman meydana çıxır ki, insanın narazılıq və ya təmin olunmamaq səviyyəsi onun dözüm səviyyəsindən üstün olur. Frustrasiya daha çox şəxsiyyətin mənfi sosial qiymətləndirilməsi, onun üçün müqəddəs sayılan hiss və duyğularına həqarətlə yanaşılması və s. kimi hallarda özünü itirmək, qəzəb, küskünlük və s. şəkildə təzahür

[61] Aqşin İsabala oğlu Quliyev, “Hüquq sosiologiyası”, (2012)

edir. Frustrasiya halətində insanda dərin psixi sarsıntılar baş verir. Frustrasiya haləti bəzən insanın xarakterinə təsir edir, onda bir sıra dəyişikliklər törədir: onun davranış və rəftarında özünə inamsızlıq, şablon davranış tərzinə meyletmə və s. nəzərə çarpır. Bir sıra nevrozların baş verməsi də frustrasiya haləti ilə izah edilə bilər[62].

İnsanların qanuna əməl etməsində cəza qorxusunun rolu olduğunu kimi, əxlaqın da rolu vardır. Bir şəxs qanunun ədalətli olduğuna inanar və bununla böyük zərər vuracağını dərk edərsə qanuna əməl etmə ehtimal artar, lakin onun ədalətsiz olduğunu düşünərsə, bu zaman ədalətsiz olduğu halda qanunun daha da təkminləşdirilməsinə ehtiyac vardır.

Beləliklə, məhkumlar barəsində tətbiq edilməli olan sosial adaptasiya tədbirləri ilə və onun mahiyyəti üzrə ümumiyyətlə şəxsiyyətin sosiallaşması arasında sıx əlaqə vardır. Bu səbəbdən məhkumların sosial adaptasiyası məsələsi həll edilərkən sosioloji, sosial-psixoloji məsələlər nəzərə alınmalıdır.

---

[62] Naidə Hacıyeva, Estetika, peşə etikası və psixologiya, 108 (2012).

## 2.4. Maslounun "ehtiyaclar piramidası"

Psixoloq Maslou humanizm psixologiyasının önəmli tərəfdarlarından biri hesab edilir. O, insan üçün lazım olan elementləri bir arada yığmış, "ehtiyaclar piramidası"nı ərsəyə gətirmişdir. Bu nəzəriyyənin əsasında isə insanların müəyyən hərəkət etməsində xarici təsirlərdən *(mükafat və ya cəza)* daha çox öz daxili istəklərinin önəmli yer tutması durur.




Maslounun fikrincə, insanlar qarşılarına müəyyən məqsədlər qoyur və buna uyğun olaraq həyatlarını formalaşdırırlar. İnsanın özünü dərk etməsi kimi ifadə edilən son addıma görə müəyyən bir iyerarxiyada həyat üçün müəyyən edilmiş məqsədlər və bu məqsədlərə çatmaq üçün tələb olunan ehtiyaclar qarşılanmalıdır. Bu kontekstdə ehtiyaclar

fərdlərin həyatın hər mərhələsində yerinə yetirməli olduğu bir fenomen kimi ortaya çıxır[63].

Maslou nəzəriyyəsində, yuxarıda göstərilən cədvəldən də göründüyü kimi, insanın ehtiyacını 5 hissəyə bölmüş, onu iyerarxik şəkildə təsvir etmişdir. O, burada insan üçün lazımi ehtiyacları artan sıra ilə sıralamışdır. Bunlara aşağıdakılar aiddir:

*1. Fiziki ehtiyacların ödənilməsi (yemək, içmək, təbii ehtiyaclar və s.).* Müəllif bildirir ki, fiziki ehtiyaclarını, tələbatlarını ödəyə bilməyən insan üçün digər məsələlərin önəmi olmaz və onlar barəsində düşünməz, plan qurmaz. Bu səbəbdən, yalnız fiziki ehtiyaclar ödənildikdən sonra insan digər mərhələlərə keçid edə bilər.

Maslou fiziki ehtiyacların ödənilməsinin digər ehtiyaclara keçidin ilk başlanğıcı olaraq müəyyən etsə də, bu fikrə qarşı bir çox tənqidlər vardır. Belə ki, fiziki ehtiyaclar ödənilməsə belə bir sıra insanlar mənəvi amillərin təsiri altında yüksək dərəcədə digər tələbatların ödənilməsi üçün çalışa bilər.

Əlbəttə ki, insanların fiziki ehtiyacları onların yaşam tərzindən, xarakterindən və s. asılı olaraq dəyişir. Yüksək arzuları olan insanların yemə-içmə kimi ehtiyacları da böyük ola bilir və bunu ödəmək üçün yüksək miqdarda təminat zəruridir. Bütün bunlar da insanların qurduqları arzu və istəklərin hər zaman müsbət olmadığını göstərir. *Bunu nəzərə alaraq*

---

[63] Dr. Sedat KULA ve Dr. Bekir ÇAKAR, *Maslow İhtiyaçlar Hiyerarşisi Bağlamında Toplumda Bireylerin Güvenlik Algısı ve Yaşam Doyumu Arasındaki İlişki*, Bartın Üniversitesi İ.İ.B.F. Dergisi (2015).

*dövlət cəmiyyət üçün ehtiyacların minimum dərəcəsini müəyyən etməyə çalışır. Bu zaman nəzərə alınan əsas şərtlər isə insanın "həddi aşmış" arzuları deyil, bioloji faktorlar hesab edilir.*

Əlbəttə, bəzi hallarda insanın həddən artıq çox arzuları yerinə yetirməsi psixoloji olaraq onda rahatlama yarada bilər, lakin bu uzun müddətli, daimi olmamalı, nizamlanmalıdır.

*2. Təhlükəsizliyinin təmin edilməsi ehtiyacı.* Bu ehtiyac əsasən güvən hissindən irəli gəlir. Şəxsin yaşadığı mühit, ərazi təhlükəsiz şəkildə qurulmalı, şəxs özünün güvəndə olduğunu hiss etməlidir. Bunun təmin edilməsi üçün cinayətlərin sayının azaldılması, cinayətin törədilməsinə kömək edən şəraitin aradan qaldırılması, müharibə şəraitinin olmaması və digərləri nəzərə alına bilər. Bundan əlavə insanlar şəxsiyyətlərarası münasibətlərində də bir çox halda güvən hissinə ehtiyac duyarlar.

Piramidanın ilk mərhələsini təmin edən, lakin güvənli olmayan məkanda yaşayan, həyat sürən insan üçün digər mərhələlər maraqlı olmaya və diqqət mərkəzində təhlükəsizliyin təmini dura bilər.

Əlbəttə ki, burada istisnalar mövcuddur. Müşahidə etmək olur ki, bəzi hallarda müharibə şəraitində olan insanlar müxtəlif zəruri, ən sadə tələbatlarını ödəyə bilməsələr belə öz yaşadığı ərazilərin, vətənin müdafiəsində böyük əzmlə dururlar.

Maslounun göstədiyi "təhlükəsizliyinin təmini" tələbatının ödənilməməsinin təsirlərinin ən yaxşı nümunələri ölkə-

lərdə baş verən ictimai təhlükəsizlik əleyhinə olan cinayətlər səbəbindən baş verən köçlərdir. Bir kəndin, qəsəbənin, şəhərin və ya rayonun ən varlı ailələri arasında olsalar da, bir çox insanlar təhlükəsizlik səbəbi ilə bütün mülkiyyətini qoyub başqa bölgələrə köçməli olurlar. Əslində fərdlər hər cür fiziki imkanlara malik olsalar da, özlərini güvəndə hiss etmədikləri və daimi narahatlıq içində yaşamaq məcburiyyətində olduqları üçün rahat olmurlar. Bu vəziyyət təhlükəsizliyin fərdlər və cəmiyyət tərəfindən nə qədər əhəmiyyətli olduğunu ortaya qoyur. Bu kontekstdə fərdlər dinc və təhlükəsiz bir mühitdə həyatlarını davam etdirməyi üstün tuturlar[64].

*3. Müəyyən bir sosial qrupa aid olma ehtiyacı.* İnsan özünü rahat, xoşbəxt hiss edə biləcəyi müəyyən qrupa adaptasiya olmağa meyillidir və bu ona müsbət təsir edir. Bu həm də insanın sosial varlıq olmasından irəli gəlir.

Bu ehtiyaclara sosial ehtiyaclar da deyilir. Fərdlərin aidiyyəti və ya sevgi ehtiyacları, bağlılıq hissindən *(qrupa üzvlük, klublar, dini qruplar, işgüzar əlaqələr və s.)* həyat yoldaşının, uşaqların və valideynlərin dostluğuna və sevgisinə qədər geniş şaxəli ehtiyacları təmsil edir[65]. Bu, həm də karyerada axtarılan əsas istəklərdən hesab edilə bilər.

Ümumiyyətlə, fikrimizcə bu cür münasibətlər şərtsiz və şərtli olaraq iki formada təsnif edilməlidir. Bəzi münasibətlər

---

[64] Dr. Sedat KULA ve Dr. Bekir ÇAKAR, *Maslow İhtiyaçlar Hiyerarşisi Bağlamında Toplumda Bireylerin Güvenlik Algısı ve Yaşam Doyumu Arasındaki İlişki*, Bartın Üniversitesi İ.İ.B.F. Dergisi (2015).

[65] *Tikkanen, I. (2007). Maslow' s hierarchy and food tourism in Finland: five cases, 723, British Food Journal, 109(9), 721–734 (2007)*

müəyyən qarşılıq, əvəz əsasında qurulduğu halda, digərləri qarşılıqsız, əvəzsiz qurulur. Bu baxmayaraq hər iki təsnifata uyğun olaraq insan sosiallaşmağa, sosial mənsubiyyət əldə etməyə meyilli olur.

*4. İnsanlardan hörmət görmə ehtiyacı.* Ailədə, dost çevrəsində insan özünə qarşı dəyər verilməsini, hörmət edilməsini istəyər və bu onun özünə qarşı güvənini artırar.

Maslou bu ehtiyacın iki növünü, aşağı və yuxarı səviyyələrini müəyyən etmişdi: Aşağı səviyyəyə başqalarından hörmət qazanmaq, status *(vəzifə)*, şöhrət, tanınma, diqqət, təqdir, nəciblik və üstünlük əldə etmək ehtiyacları daxildir. Yuxarı səviyyə özünəhörmət əldə etmək ehtiyacını ehtiva edir. Burada inam, bacarıq, uğur, müstəqillik və azadlıq hissləri var[66].

Bütün bu hisslərin qazanılmasının əhəmiyyətinə siyasi, sosioloji aspektdən də yanaşmaq zəruridir. Əmək fəaliyyəti, maarifləndirmə tədbirləri, şəxsiyyətlərarası münasibət, xəbərdarlıq və s. elə formada olmalıdır ki, nəticədə insanda həm özünə hörmət hissi artsın, həm də qarşı tərəfdən hörmət görsün. Bunların edilməsi isə çətindir. Uşaqlıq travmaları, digər ehtiyaclarının tam ödənilməməsi, insanın “əzilməsi” və s. bu kimi amillər digər insanlar ilə sağlam münasibət qurmağa mane ola bilər.

*5. Özünü aktuallaşdırma ehtiyacı.* Malik olduğu bütün potensialı gercəkləşdirmək, özünü inkişaf etdirmək və

---

[66] *Abraham Maslow İhtiyaçlar Hiyerarşisi(2015), https://vdocuments.mx/abraham-maslow-ihtiyaclar-hiyerarsisi.html (son baxış iyun 15, 2024).*

qarşıya qoyduğu məqsədə çatmaq insanın istədiyi ən önəmli ehtiyaclardan hesab edilir. Bir çox halda müsbət potensialı, bacarığı olan, lakin dəstək görməyən, faydalı davranışı məhdudlaşdıran suni maneələr ilə qarşılaşan və ya frusturasiya dözümü aşağı olan insanların həyata qarşı baxış tərzi mənfi yöndə dəyişə bilər ki, bu da çox təhlükəli hesab edilməlidir.

Xarici ədəbiyyata nəzər etdikdə orada özünüreallaşdıran insanlara xas olan bir sıra xüsusiyyətlərin sadalandığını müşahidə etmək olur[67]:

- Bu insanlar "reallıq yönümlü"dürlər, yəni saxta və səmimi olmayanı həqiqi, səmimi olandan ayıra bilirlər.
- Onlar "problem yönümlü"dürlər, yəni həyatın çətinliklərinə təslim olunacaq problemlər kimi deyil, həll olunası problemlər kimi baxır və onları həll etmək üçün düzgün yollar tapırlar.
- Onlar hər şeydən əvvəl tənhalıqdan həzz alır, rahatlıq hiss edirdilər. Çoxlu sayda insanla səthi əlaqələrdən çox, az sayda yaxın dost və ailə üzvləri ilə daha dərin şəxsi münasibətlərdən həzz alırlar.
- Onların mənfi xüsusiyyətlərini dəyişdirmək üçün güclü motivasiyası var.
- Onlar başqalarına qarşı təvazökar və hörmət bəsləyəndirlər.
- Onlar etnik və fərdi fərqlərə açıqdır və dəyər verirlər və həmin insanlarda Maslounun "insan qardaşlığı" adlan-

[67] *Abraham Maslow İhtiyaçlar Hiyerarşisi(2015), https://vdocuments.mx/abraham-maslow-ihtiyaclar-hiyerarsisi.html (son baxış iyun 15, 2024).*

dırdığı keyfiyyətlər *(ictimai maraq, şəfqət, köməklik)* vardı. Bu isə mənəvi əsaslı güclü etika hissi ilə müşayiət olunur.

- Onlar yaradıcı və orijinal olmaq qabiliyyətinə və adi bir insandan daha sıx təcrübələrə sahibdirlər.
- Bu tip insanlar üçün həqiqət, yaxşılıq, gözəllik, birlik, aktiv, qeyri-monoton və inkişaf yönümlü həyat tərzi, çatışmazlıqlarını tamalamağa çalışmaq, ədalət və düzgünlük, məcburetmə əvəzinə könüllülük, zarafatcıl olmaq və s. önəmlidir.

Göründüyü kimi Maslounun nəzəriyyəsində ümumilik özünü göstərir. Bu mənada alim ehtiyacları hər kəsə aid edir. Bu da onun nəzəriyyəsinin məntiqi olaraq tənqid edilməsi ilə nəticələnmişdir.

Onun tədqiqatı ilə bağlı irəli sürülən əsaslı tənqid qurulan "piramidanın" mərhələlərinin çox sabit olması, onlar arasında əlaqənin dəyişməz olması ilə bağlıdır. Aydın məsələdir ki, heç də hər zaman "ehtiyacların piramidasının" ilk mərhələsini aşa bilməyən insanın digər tələbatlar üçün çalışmadığı hallarına rast gəlinmir.

Yuxarıda da bəhs edildiyi kimi, bir insan fiziki ehtiyaclarını tam olaraq ödəyə bilməsə də, özünü reallaşdırmağı bir sıra hallarda bacarır. Bu da müəyyən qədər həyatında olan çətinliklərin fərqinə varması, onu aradan qaldırlmaq üçün mənfi yolların faydalı olmamasını dərk etməsi və bu səbəbdən düzgün yollarla həmin çətinlikləri aradan qaldırmağa cəhd etməsilə də bağlı ola bilər.

Bununla yanaşı maddi və mənəvi sərvətlərin bir-birinə olan münasibətinin tarix boyu təhlili məsələsi də müəyyən

qədər qeyd edilən məsələ ilə bağlıdır. Bu mənada “maddi yoxsa mənəvi məsələlər insan və ya cəmiyyətin inkişafı üçün önəmlidir” sualı bir çox mütəfəkkirlər tərəfindən təhlil edilmişdir.

Məsələn, Karl Marks Qədim Yunanıstanın öz müasirlərinə münasibətdə daha çox inkişaf etdiyi qəbul edərək, elə Yunanıstanın da özünə münasibətdə inkişafdan tənəzzülə doğru hərəkət etməsi problemini aydınlaşdırmağa çalışırdı.

Marks özü soruşurdu: bəs necə olur ki, maddi dəyərlərin istehsalına görə özündən sonrakı çağların toplumundan geri qalan Yunanıstan onların hamısı üçün üstünlüyünə görə əlçatmaz olan mənəvi mədəniyyəti yaratmışdı[68]. Görünür ki, maddi və mənəvi inkişaf bir-biri ilə hər zaman düz mütənasib əlaqədə olmur. Yəni maddi dəyərlərin inkişafı, hər zaman mənəvi dəyərlərin inkişafı ilə nəticələnmir.

Bu mənada Maslounun nəzəriyyəsini “yanlışlıqdan uzaq” fikirlər toplusu kimi başa düşmək olmaz. Bu səbədən qeyd edilən nəzəriyyəyə paralel şəkildə baxmaq lazımdır.

Yuxarıda qeyd edilən Yunanıstanın inkişafdan-tənəzzülə getmə, başqa sözlə maddi dəyərlərə mənəvi dəyərlərin əlaqəsi problemini fərqli formada da izah etmək olar. Bəlkə də burada əsas məsələ, insanın diqqətini hara, hansına - maddi yoxsa mənəvi tərəfə yönəltməsi ilə bağlıdır.

Hər bir halda maddi və mənəvi olanın dəyəri barədə fikirlər elə ilk öncə insanın şüurunda yaranır. Bu halda insan

---

[68] Mehdi N., Mehdi D. Fəlsəfə tarixində Fəlsəfə. Nə üçün və necə deyilənlər haqqında kitab, 171 (2010)

hansını özü üçün dəyərli görürsə həyatın mənasını da elə onu əldə etməkdə bilir. Doğrudur ki, obyektiv hadisələr var və bu barədə insanın düşünüb-düşünməməsi, dəyər verib-verməməsi vəziyyəti dəyişmir. Bu səbəbdən orta yol doğrudur - obyektiv olaraq maddi olan önəmlidi, lakin həddi aşılmamalıdır, buna baxmayaraq mənəvi tərəfə, dəyərlərədə diqqət xüsusilə edilməlidir.

Beləliklə, məhkumların sosial adaptasiyası kontekstində məsələ yanaşdıqda belə fikir irəli sürülə bilər ki, “piramida”da nəzərdə tutulan mərhələlərə sistemli, mərhələli formada deyil, paralel olaraq baxmaq daha uyğun ola bilər. Çünki, mərhələlərin hər zaman gözlənilməsi zəruri deyil, lakin hər birinin təmin edilməsi və buna şəraitin olması insanın inkişafı üçün xüsusilə önəmli hesab edilə bilər. Bundan əlavə hər bir mərhələnin yanında mənəvi-əxlaqi amilləri də diqqətdən qaçırmaq olmaz. Əks halda insan mənfi istiqamətə yönələ bilər.

## 2.5. Ailə-cəmiyyət münasibətlərinin məhkumların sosial adaptasiyasına təsiri

Ailə münasibətlərinin zəifliyi, əlaqələrin "qırılması" insanların cinayət törətməsinə dolayı yolla təsir etdiyi kimi, eyni qaydada ailə ilə güclü və sağlam əlaqənin mövcudluğu cəza çəkməkdən azad olunmuş şəxsin cinayət törətməsinin qarşısını ala, sosial adaptasiyasına kömək ola bilər. Buna səbəb cəza çəkməkdən azad olunmuş şəxslərin çox hissəsinin öz ailəsinin yanına qayıtması, onlara ümid etməsi və dəstək gözləməsidir.

*Digər mənada, nəinki ailənin məhkumun cəmiyyətə inteqrasiyasında mühüm rolu var, eyni qaydada törədilmiş cinayətin də ailənin "sağlamlığı"na mənfi təsiri vardır. Bu da müəyyən qədər tərəflər arasında tədricən münaqişənin yaranmasında müşahidə olunur*.

Ailəsi ilə yaxın münasibətdə olan keçmiş məhkumlar, oxşar əlaqəsi olmayanlara nisbətən daha aşağı residiv cinayət törətmək səviyyəsinə malikdirlər. Azad edildikdə ailə dəstəyi və məşğulluq müvəffəqiyyəti, maddə istifadəsindən qaçınma və depressiyanın azaldılması kimi müsbət nəticələr verir. Kanadada aparılan araşdırmaya görə, azadlığa çıxdıqdan sonra övladları ilə təmasda olan kişilərin uşaqlarını görməyən kişilərə nisbətən yenidən azadlıqdan məhrum edilmə ehtimalı daha az idi[69].

Ailə münasibətlərinin dərəcəsi ilə cəza çəkməkdən azad

---

[69] Christy A. Visher and etc. *Fatherhood, Community Reintegration and Successful Out-comes*, Journal of Offender Rehabilitation, 451–469 (2013).

olunmuş şəxslərin məşğulluq fəaliyyəti arasında sıx əlaqə vardır. Adətən, əmək fəaliyyət ilə məşğul olan məhkumlara nisbətdə, işləməyən məhkumlar ilə ailəsi arasında münasibət çox vaxt müsbət yöndə inkişaf etmir, CÇM-dən azad olmuş şəxslər özlərini "yük" kimi hiss etməyə başlayırlar. Bu da öz növbəsində ailə münasibətlərinin dağılmasına, psixoloji problemlərin böyüməsinə, təkrar cinayətlərin törədilməsinə səbəb ola bilər.

Ailə münasibətlərinin zəifliyi, ailənin itirilməsi nəinki məhkumların psixologiyasına zərbə vurur, həm də onların narkotik və sərxoşedici vasitələrdən istifadə ehtimalını artırır. Cəza çəkməkdən azad olunmuş şəxslərin özünü təcrit edilmiş kimi hiss etməməsi üçün əsas edilməli iş odur ki, onlar tərk edilməsin. Bunun üçün kömək əldə edə biləcək qurumların mövcudluğuna da güvənməsi lazımdır. Bu səbəbdən hər zaman onlar ilə əlaqə saxlanması, ehtiyacı olduğu halda yardım edilməsi, buna şərait yaradılması lazmdır.

Araşdırmalar zamanı keçmiş məhbuslar üçün ilk 30 gün ərzində ailə dəstəyinin mühüm rol oynadığı aşkar edilmişdir. Bu mənada ailə dəstəyinin emosional dəstək və mənzil yardımı kimi təsiri var. Bu mənada ailənin qəbulu və təşviqi, eləcə də ailədən qəbul edilən emosional dəstəyin cinayət törətmiş şəxsin azadlığa çıxmasından sonrakı müvəffəqiyyətilə əlaqəli olduğunu demək olar. Bundan əlavə, onların şərti məhkum-etmə qaydalarından yayınma ehtimalı daha azdır[70].

---

[70] Celeste Davis, Stephen J Bahr and Carol Ward. *The process of offender reintegration: Perceptions of what helps prisoners reenter society,* Criminology & Criminal Justice, 446–469 (2012).

*Cinayət törətmiş şəxsin ailəsi ilə zərərçəkmişin ailəsi arasında hər hansı baş verə biləcək münaqişələrin aradan qaldırılması məqsədilə zərərçəkmiş şəxsin ailəsinə xəbərdarlığın edilməsinə və mümkün olduğu qədər ailələr arasında olan mübahisənin barışıq və danışıqlar yolu ilə aradan qaldırılmasına ehtiyac vardır. Əks halda zərərçəkmiş şəxsin ailəsi emosional təsirlər altında cinayət törətmiş şəxsin cəmiyyət içində mənfi şəkildə qəbul edilməsinə şərait yaradacaq hərəkətlər edə bilər.*

Cəza çəkməkdən azad olunduqdan sonra şəxsin münasib mühitə daxil olmasının təmin edilməsi vacibdir. Çünki, əksər məhkumlar azadlığa çıxandan sonra keçmiş dostlarının çevrəsinə, onu cinayətə sövq edən səbəblərin olduğu mühitə qayıdır.

Azadlığa çıxdıqdan sonraki ilk aylarda məhkuma ciddi nəzarət etmək lazımdır ki, yenidən cinayət törətməsinə kömək edən şərait ilə rastlaşmasın, səbəblər ilə qarşılaşmasın. Bunun üçün elektron nəzarət vasitəsilə nəzarət altında saxlanması faydalı ola bilər. Bu mümkün olmadığı halda cəza çəkməkdən azad olmuş yüksək riskli şəxslərə elektron nəzarət vasitəsilə nəzarət edilməlidir. Əlbəttə ki, burada özünə nəzarət bacarıqlarının formalaşdırılması üçün tədbirlər görülməsi də nəzərə alınmalıdır.

Azadlığa çıxdıqdan sonra bir müddət məhkumluk “etiket”inin olması səbəbindən məhkumun müəyyən məşğulluq fəaliyyətinə daxil olmasını məhdudlaşdırmaqdansa, onun müəyyən məkanlara getməsinin, müəyyən şəxslərlə görüşməsinin məhdudlaşdırılması, qadağan edilməsi daha faydalı ola bilər.

*Bundan fərqli olaraq azadlığa çıxmasına 6-12 ay qalmış, şəxsin cəzasının azadlığın məhdudlaşdırılması cəzası ilə əvəz edilməsi buna alternativ yol hesab edilə bilər.*

Qrup halında törədilən cinayətdə iştirak edən və təhlükəli davranışlar sərgiləməyə meyilli olan insanlardan uzaqlaşma cinayətdən imtina prosesinin bir elementidir. Qanuna tabe olan insanlar qanuna tabe olan davranışları gücləndirməyə və qeyri-qanuni münasibət və fəaliyyətlərdən çəkindirməyə kömək edirlər. Tənha olan və ya qanuna tabe olan insanlarla əlaqəsi olmayan şəxslər narkotik istifadə edən tanıdıqlarının təkliflərinə tab gətirməkdə çətinlik çəkə bilərlər. Evlilik və məşğulluq şəbəkələri elə formalaşdırılmalıdır ki, fərdlər mənfi dostlarla ünsiyyətə vaxt sərf etməsin və qanuna tabe olan şəxslərlə ünsiyyətə daha çox vaxt sərf etsinlər[71].

Məhkumların ailə, dostluq və cəmiyyət arasında münasibətlərinin yaxşılaşması, həmin şəxslərin cinayət törətməkdən uzaqlaşması onların daxilən dəyişmək istəyindən asılıdır. Çünki, məhkum dəyişmək istəmədikcə və ya dəyişmək üçün motivasiyası olmadıqca inkişaf etmək ehtimalı azalır. Şəxsin daxili dəyişmək istəyi olduqdan sonra isə xarici, maddi faktorların yüksək dərəcədə təmin edilməsi mütləqdir ki, bir-biri ilə sıx bağlı olan amillər arasında pozulma olmasın.

Bəzi şəxslər azadlığa çıxdıqdan sonra ailəsi, qohumları, yaxınları olmadığı üçün adətən tənha yaşamaq məcburiyyətində qalırlar ki, bu da onların sosial adaptasiyasına mənfi

---

[71] Celeste Davis, Stephen J Bahr and Carol Ward. *The process of offender reintegration: Perceptions of what helps prisoners reenter society,* Criminology & Criminal Justice, 446–469 (2012).

təsir edir. Bunu nəzərə alaraq sosial adaptasiya olmuş və müsbət xüsusiyyətlərə yiyələnmiş məhkumların bu tip şəxslər ilə arasında əlaqə yaradılması müsbət nəticə verə bilər.

Bundan əlavə cinayət törətmiş şəxslərdə stressə səbəb olan amillərdən biri ailəsinin təminatlarını, istəklərini təmin edə bilməməsidir. Bu səbəbdən cinayət törətməzdən əvvəl məşğulluq fəaliyyəti olan şəxsin cinayət törətdikdən sonra ailəsinə maddi yardım edə bilməməsi mənfi nəticə verə bilər. Buna görə də bir sıra məhbus ailələrinə maddi yardımın edilməsinə ehtiyac vardır. Bunlara məhkum olmuş ailə başçısının əmək fəaliyyəti ilə məşğul olmayan ailəsi və digər ehtiyaclı insanlar kateqoriyaları aid edilə bilər. Bütün bu xidmətlər məhkumun yenidən cinayət törətməsinin qarşısını ala, ona yardım edən dövlət qurumlarına qarşı yanlış hərəkət etməkdən çəkindirə bilər. Maddi yardımdan əlavə olaraq ümumi təhsil, sağlamlıq, peşə təhsili, əmək fəaliyyətinə düzəltmə və s. ilə əlaqədar yardımlar da mümkündür.

Cəza çəkməkdən azad olunan şəxslərdə yaranan "məhkumluq etiketi" məhkumlar ilə cəmiyyət arasında olan problemlərin yaranmasına, məhkumların təcrit edilməsinə təsir edə bilər. Belə ki, cinayət törətmiş və cəza çəkməkdən azad olunmuş şəxsin məhkumluğu barədə ailəsindən fərqli olaraq məskunlaşdığı ərazidə olan digər şəxslərin də *(qonşular, dostlar və s.)* məlumatı olur. Bu da öz növbəsində həmin ərazidə məhkum barədə ziyanlı müzakirələrin aparılmasına səbəb ola bilər. Nəticədə, məhkumların cəmiyyətə inteqrasiyası zəifləyə, cəmiyyətdən təcrit edilməsi güclənə və

həmin şəxslərin psixologiyasında dərin problemlər yarana, depressiyaya uğraya bilər.

*Bunu nəzərə alaraq cinayət törətmiş şəxslər barəsində məlumatların KİV-də əks etdirilməsi ziyanlı hesab edilə bilər. Daha doğrusu cinayət törətmiş şəxsin şəxsi məlumatlarının təsvir edilməsi, xarici görünüşünün göstərilməsi məhdudlaşdırılmalıdır.* Qeyd etmək lazımdır ki, cinayətkarlığın xəbərdarlığı aspektindən məsələyə yanaşıldıqda belə, müəyyən cinayəti törətmiş şəxsin məsuliyyətə cəlb edilməsi barədə məlumatın verilməsi yetərli hesab edilə bilər.

## 2.6. Cəza çəkməkdən azad edilmiş şəxslərin məşğulluğunun təmin olunması

Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası, cəmiyyətə inteqrasiyası və yenidən cinayət törətməsinin qarşısının alınması üçün görülməli olan mühüm işlərdən biri şəxsin iqtisadi vəziyyətinin yaxşılaşdırılması, onun işlə təmin edilməsidir. Buna səbəb həm də cinayətlərin törədilməsinə kömək edən səbəblərdən birinin iqtisadi zəifliyin olması və məşğulluğun olmaması ilə bağlılığıdır.

Məşğulluq fəaliyyəti yalnız məhkumun iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına deyil, həm də zehni, psixoloji, fiziki vəziyyətinin yaxşılaşmasına, cəmiyyət içində özünə "yer tapmasına", özünü ifadə etməsinə kömək edə bilər.

Daimi işini davam etdirən məhkumun CÇM-dən azad edildikdən sonra cinayət əməllərində iştirak etmək ehtimalı azdır. Davamlı iş cinayət törədənlərə şəxsiyyət hissi və həyatlarına məna verir, eyni zamanda onların həyatlarına məhdudiyyətlər qoyur, bununla da onların cinayi davranışa şərait yaradan vəziyyətlərə məruz qalma ehtimalını azaldır[72].

AR "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" qanunda da cəza çəkməkdən azad edilmiş şəxslərin məşğulluğunun təmini ilə bağlı norma əksini tapmışdır. Həmin normanın əks olunması isə öz növbəsində məşğulluq fəaliyyətinin cəza çəkmək-

---

[72] Mark T. Berg and Beth M. Huebner, *Reentry and the Ties that Bind: An Examination of Social Ties, Employment, and Recidivism*, Justıce Quarterly 382-410 (2011).

dən azad edilmiş şəxslərin sosial adaptasiyası üçün önəmli olduğunu göstərir.

Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında qanunun 11-ci maddəsinə əsasən *sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən cəza çəkməkdən azad edilmiş şəxslərin peşə hazırlığı işinin təşkili, onların işlə təmin edilməsi sahəsində tədbirlər görülür. Cəza çəkməkdən azad edilmiş himayəsində 14 yaşadək uşağı olan tənha qadınların məşğulluğunun təmin edilməsi isə təxirə salınmadan həyata keçirilir.*

Bütün bunlara baxmayaraq şəxsin məşğulluq ilə təmin olunmasında bir çox ciddi problemlər vardır. Bunlara şəxsin "məhkumluq etiketi"nin olması *(bu da onların təcrit edilməsinə səbəb olur)*, işəgötürənlərin onlara inamının olmaması, məhkumların iş bacarıqlarının zəifləməsi və məşğulluğun şəxsi tələbatlara uyğunlaşa bilməməsi və digər problemlər aiddir.

AR CM-in 83-cü maddəsinə əsasən cinayət törətməyə görə məhkum edilmiş şəxs məhkəmənin ittiham hökmü qanuni qüvvəyə mindiyi gündən məhkumluğun götürüldüyü və ya ödənildiyi günə qədər məhkum olunmuş hesab edilir. Göstərilmiş maddədə şəxsin məhkumluğunun götürülməsi üçün lazım olan əsaslar göstərilir və bunlar əsasən cinayətin kateqoriyaları ilə əlaqədar olaraq ona uyğun müəyyən vaxtın keçməsi ilə bağlıdır.

Məhkumluq müəyyən hüquqi nəticələr yaradır ki, bunlardan ən diqqət edilməli olanı məhkumluğu olan şəxsin müəyyən əmək funksiyalarını yerinə yetirə bilməməsidir.

Məsələn, belə şəxslər polisdə, prokurorluqda işləyə bilməz, hakim vəzifəsində çalışa bilməz. Ağır cinayət törətmək üstündə məhkum edilən şəxs ordu sıralarına qulluğa qəbul edilmir. Məhkumluq qanunda nəzərdə tutulan hallarda cəza çəkmiş şəxslər barəsində yaşayış yeri seçmək, müəyyən növ fəaliyyəti və peşəni seçmək sahəsində də ümumi hüquqi xarakterli məhdudiyyətlər yarada bilər[73].

Buna baxmayaraq məhkumluğun götürülməsi nəticəsində şəxs məhkumluğu olmayan hesab edildiyi, məhkumun islahı üçün tədbirlər görüldüyü halda həmin şəxslərə qarşı münasibətin "normal" vətəndaşlara münasibətdən fərqlənməməsi müəyyən ziddiyyətlərin varlığını göstərir.

*Doğrudur ki, ağır və ya xüsusilə ağır cinayətlərin törədilməsi nəticəsində cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin, riski aradan qaldırmaq məqsədilə dövlət orqanlarında və bəzən digər işlərdə çalışması təhlükəli görünsə də, az ağır və ya böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslərə də eyni tərzdə münasibətin bəslənməsi ilk baxışdan doğru görünmür.*

AR "Dövlət qulluğu haqqında" qanununun 27-ci maddəsinə əsasən AR-ın 16 yaşına çatmış, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan və AR-ın dövlət dilini sərbəst bilən vətəndaşlarının dövlət qulluğuna qəbul edilmək hüququ vardır.

---

[73] Ağayev İ.B., Cinayət hüququ: Dərslik, 739 (2015).

Bundan əlavə həmin maddəyə əsasən məhkumluğu ödənilməmiş və ya götürülməmiş şəxs dövlət qulluğuna qəbul edilə bilməz. Buradan belə anlaşılır ki, məhkumluğu götürülmüş və ya ödənilmiş şəxslərin dövlət qulluğuna qəbul edilməsinə maneə yaradıla bilməz.

Bununla yanaşı Əmək Məcəlləsinin 17-1-ci maddəsinə əsasən uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayətə görə məhkum olunmuş şəxslər uşaqlarla müntəzəm təmasla əlaqədar işə qəbul *(təyin)* və ya cəlb edilə bilməzlər. Bu mənada törədilmiş cinayət ilə şəxsin müraciət etdiyi məşğulluq növü arasında əlaqəyə də diqqət etmək mühümdür. Nəzərə almaq lazımdır ki, məsuliyyətli işə daxil olmaq üçün şəxsin məhkumluğu olub-olmaması deyil, dürüst və etibarlı olub-olmaması önəmlidir.

Bütün bu sadalanan qanuni əsaslara baxmayaraq şəxsin məşğulluq fəaliyyəti ilə bağlı "məhkumluq etiketi" olduğu üçün çətinlikləri yaranır.

Türkiyədə bununla bağlı olaraq sorğu aparılmış və müəyyən məlumatlar əldə edilmişdir: *Sorğuda iştirak edən şəxslərin, demək olar ki, hamısı işəgötürənə məhkumluğunun olduğu barədə məlumat verdiyi halda işəgötürənlər onları işə götürməkdən imtina etmişdir. Bəzi şəxslər ifadəsində bildirmişdir ki, "CÇM-dən çıxandan sonra əmək fəaliyyəti üçün müraciət etdim, amma CÇM-dən çıxdığımı dedikdən sonra heç kim məni işə götürmək istəmədi, "axtardığımız adamsan" dedi, lakin iş barəsində geniş təcrübəm olmasına baxmayaraq*

*məni işə götürmədilər"*[74].

Adətən, bir şəxs ilə qarşılaşdıqda, ilk təəssüratlar çox güman ki, tanış olduğumuz insanın kateqoriyasını və keyfiyyətlərini, onun "sosial kimliyini" əvvəlcədən təxmin etməyə imkan verir. Buna uyğun olaraq, CÇM-dən yeni çıxan biri ilə görüşəndə ilk andan həmin şəxs "cinayətkar" kateqoriyasına daxil edilir və ona qarşı müəyyən məsafə qoyulur, həmin şəxsin sosial kimliyi "cinayətkar" olaraq qalır. Belə olan halda həmin şəxs normal insan kateqoriyasından çıxar. Beləliklə, insan ilk andan damğalanar[75]. Bu halda həmin şəxslərin cinayətkar davranışlarına geri dönmə ehtimalı daha çox ola bilər.

Bundan əlavə xüsusilə yetkinlik yaşına çatmayan şəxslərə münasibətdə bu tip "damğalanma" çox ziyanlıdır. Onların yaşları və psixoji vəziyyətini nəzərə alındığı zaman aydın olur ki, yetkinlik yaşına çatmayan şəxslərin mənfi xüsusiyyətlərdən imtina etməsi, müsbət xüsusiyyətləri qəbul etməsi, ümumi formada ifadə edilərsə tərbiyə edilməsi, korreksiyası yetkin şəxslərə münasibətdə daha rahatdır və mümkündür. Bu səbəbdən əvvəllər məhkum olmuş şəxslərin HMO-da fəaliyyət göstərməsinə birbaşa olaraq qadağa qoyulması məsələsi daha dəqiq formulə edilməlidir.

*Cəza çəkdiyi dövrdə islah olan, müəyyən müsbət vərdişləri formalaşan, cəmiyyətə, vətənə xidmət etmək istəyi*

---

[74] Ramazan Aydoğan ve Rabia Şahin, *Cezaevi, damga ve işsizlik bağlamında hükümlüyü incelemek,* 158-163 Türkiyede denetimli Serbestlik, 10. Yıl Uluslararası Sempozyumu, bildirim kitabı "Uluslararası Yaklaşımlar" (2015).
[75] Erwing Goffman, Damga (2014).

*yaranan və edən, cəza çəkməkdən azad olunduqdan sonra öz müsbət xüsusiyyətlərini inkişaf etdirən və göstərən yetkinlik yaşına çatmayan və ya digər şəxslərin də bu kateqoriyaya aid edilərək, gələcəkdə HMO əməkdaşı, hakim və s. kimi fəaliyyət ilə məşğul olmasına qadağa qoyulması düşünürük ki, doğru hesab edilə bilməz. Həmin şəxslərə ehtiyatsızlıqdan cinayət törətmiş və ya təsadüfi tip cinayətkarları da aid etmək olar.*

Məhkumluğun dövlət məmuru olmaqla əlaqəsi barəsində Türkiyə qanunlarında müəyyən normalar nəzərdə tutulmuşdur. Türkiyənin 4179 nömrəli "Dövlət Məmurları" qanunun 48-ci maddəsinə görə konstitusiya quruluşuna və bu quruluşun fəaliyyətinə, dövlətin təhlükəsizliyinə qarşı, rüşvət, qaçaqmalçılıq, saxtakarlıq, fırıldaqçılıq, oğurluq, etibardan sui-istifadə, saxta iflas, cinayət yolu ilə əldə edilmiş əmlakın yuyulması cinayətlərini qəsdən törətmiş, bir il və ya daha çox müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər məhkumluğun götürülməsi ilə bağlı müddətlər keçsə və əhv edilsə belə, dövlət qulluqçusu ola bilməzlər[76].

Bütün bunlardan əlavə "məhkumluq etiketi"nə təqsirsizlik prezumpsiyası aspektindən də yanaşmaq olar. Belə ki, təqsirsizlik prezumpsiyasından irəli gələn məsələ şəxsin məhkumluğunun ödənilməsindən sonra məhkumluqdan doğan bütün məhrumiyyətlərdən şəxsin azad olmasıdır. AR CM-ə görə "məhkumluğun ödənilməsi və ya götürülməsi məhkumluqla bağlı olan bütün hüquqi nəticələri ləğv edir". Lakin, məhkəmənin hökmü ilə məhkum edilmiş şəxslər öz cəzalarını

[76] Türk Devlet Memurları Kanunu (1965), https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=657&MevzuatTur=1&Mevzu atTertip=5

çəkdikdən və məhkumluqları ödənildikdən sonra belə, məhkum olunmalarından irəli gələn hüquqi nəticələr ləğv edilmir. Belə ki, nə zamansa məhkum edilmiş şəxsin məhkumluğu haqqında məlumatlar AR Daxili İşlər Nazirliyinin məlumat bazasında saxlanılır və həmin şəxsin sosial reabilitasiyasına çətinliklər yarana bilir. Misal üçün qeyd edək ki, yetkinlik yaşına çatmamış hər hansı bir şəxs cinayət törədirsə və cəzanı çəkdikdən və məhkumluğu ödənildikdən və ya götürüldükdən sonra məhbus həyatından normal cəmiyyətə qayıtmaq istəyirsə bir sıra hallarda işəgötürənlər həmin şəxsin əvvəllər məhkum olub-olmaması məsələsini sorğu ilə AR DİN-dən öyrənə bilirlər. Əgər şəxs məhkum olmuşdursa və hətta məhkumluğu illər öncə ödənilmişdirsə belə, həmin şəxsin işə qəbulundan və ya müvafiq dövlət orqanlarında təyinatlı və ya seçkili vəzifə tutmasından imtina edilir. Beləliklə də, həmin şəxsin cəmiyyətə normal inteqrasiyasının və onun cəmiyyətdə faydalı rolunu yerinə yetirməsinin qarşısı alınmış olur[77].

Uzun müddət CÇM-də qalan, azadlıqdan məhrum etmə cəzasına məhkum olunan şəxslər müəyyən iş fəaliyyəti ilə məşğul olmağa qarşı həvəssiz davranır, özündə güc tapa bilmirlər. Bu səbəbdən həmin şəxslər ilə psixoloji söhbətlərin aparılmasına ehtiyac vardır. Bundan əlavə onlar keyfiyyətli, layiqli həyat şəraitini təmin edəcək işlə məşğul olmalıdırlar. Əks halda aşağı keyfiyyətli işlə məşğul olmaq şəxsin sosial adaptasiyasına gözlənilən müsbət təsir göstərə bilməz, yenidən cinayət törətməsinə səbəb ola bilər.

---

[77] Uşaqların ədliyyə sisteminə çıxışı baxımından Azərbaycan Qanunvericiliyinin təhlili: Avropa ittifaqının dəstəyi ilə dərc edilmişdir, 21 (2014).

*Buna baxmayaraq aylıq gəlirin çox olması əvəzinə tədricən artırılması daha faydalı ola bilər ki, bununla da məhkum inkişafın öz əlində olduğunu başa düşə, inkişafa, motivasiyaya daha meyilli ola bilər. Ən sonda isə ailəsinin və özünün normal həyat şəraitini təmin edəcək gəlir qazanması lazımdır.*

İş saatının çoxluğu, xüsusən də az yaşlılara münasibətdə çoxluğu onlarda sıxıtıların, stressin yaranmasına səbəb ola, bunun sayəsində narkotik vasitələrində istifadə etməyə meyl edə bilərlər. Araşdırmalara görə həftədə 20 saatdan çox işləyən yeniyetmələrin, daha az işləyənlərə nisbətən cinayi hərəkətlərə və narkotik istifadəsi kimi problemli davranışlar nümayiş etdirməyə daha çox meyilli olurlar[78].

Araşdırmalar göstərir ki, yeniyetmələr iş keyfiyyətinə, qazancına böyüklər kimi reaksiya vermirlər. Əslində, yüksək qazanc, status kimi böyüklər üçün önəmli sayılan amillər əksinə yeniyetmələrin davranışlarına pis təsir edə bilir[79]. Bu da onların daha çox təhsilə diqqət etməsinin lazım olduğunu müəyyən qədər göstərir.

Bundan əlavə diqqət etmək lazımdır ki, məşğulluq fəaliyyəti ilə təmin edilən məhkumlar narkotik, alkoqol və digər sərxoş edici vasitələrdən istifadə aludəçisi olmasın. Əks halda məşğulluq fəaliyyətindən əldə edilən qazanc sərxoş edici vasitələrin alınmasına sərf edilə bilər. *Bu səbəbdən həm CÇM-də olarkən, həm də cəza çəkməkdən azad* olunduqdan sonra

---

[78] Christopher Uggen and Jeremy Staff. Work as a Turning Point for Criminal Offenders, http://users.soc.umn.edu/~uggen/Uggen_Staff_CMQ_01.pdf
[79] Yenə orada

*sərxoşedici vasitələrin aludəçisi olan şəxslərin müalicə edilməsi üçün tədbirlərin görülməsi mütləqdir.*

Məlum məsələdir ki, məhkumluğu olan şəxslərə qarşı işəgötürənlərin etibarının olmaması halları gözlənilləndir. Cəzanın məhkumları islah etməsi məqsədinin olmasına baxmayaraq azad olunmuş şəxslərə münasibətdə də "etibar etməmə" halları yaşanır. Bununla bağlı olaraq azadlığa çıxmış şəxs barəsində "islah olunma vəsiqəsi"nin verilməsi etibarın artmasına səbəb ola bilər.

Bundan əlavə cinayət törətmiş şəxsin azadlığa çıxmasına müəyyən müddət qalmış *(məsələn 3 ay)* CÇM-in rəhbərlik və əməkdaşlarının yardımı, iştirakı ilə işlə təmin edilməsi də məhkuma qarşı etibarın artmasına səbəb ola bilər.

Həmçinin bununla əlaqədar təcrübədə rast gəlinən digər məsələ məhkumluğu olan şəxslərə iş tapmaqda əsasən ailə və dostlarının yardım, vasitəçilik etməsidir.

Məhkumluğu olan şəxslərin işə, həyata, ətrafına olun münasibətinin müəyyən edilməsi məqsədilə sorğuların hazırlanması mümkündür. Burada onun şəxsi bacarıqları, öyrənmə həvəsi, işləməyə qarşı marağı, motivasiyası, sağlamlığına diqqət etməsi, iş bacarıqları, etibarlılığı, nəzakəti, ünsiyyəti, etikası və aydınlaşdırıla bilər.

İşəgötürənlərin məhkumluğu olan şəxsləri işə qəbul etmələrində, məhkumluğu olan şəxslərin danışığı, davranışı, etikası mühüm yer tutur. Bu səbəbdən onlara bu sahədə təlimlərin keçirilməsinə ehtiyac vardır.

Məhkumluğu olan şəxslərin bir çoxunun danışığı etik qaydalara uyğunlaşmır ki, bu da onlara qarşı güvənin azlığına

səbəb ola bilər. İş etikasının qazanılması həm də şəxsin təcrübəsindən asılıdır. Bu səbəbdən cəza çəkdiyi dövrdə müəyyən qədər işləməsinə kömək edilməsi və şərait yaradılması lazımdır.

Cəza çəkən şəxsin azadlığa çıxmasına bir müddət qalmış, imkan daxilində hər ay bir neçə gün icəza verilməli, bu müddət ərzində ailəsi və ya könüllü cəmiyyətlər tərəfindən işlə təmin olunmalı, cəmiyyətə inteqrasiyası təmin edilməlidir. Penitensiar müəssisələr də öz növbəsində işə düzəlmək baxımından müvafiq iş yerləri və yardım təşkilatları ilə əlaqələr qurmalıdır[80].

Məşğulluq fəaliyyətində qarşıya çıxan problemlərdən bir digəri məhkumların təcrübəsinin, elmi səviyyəsinin azlığıdır. Əlavə olaraq təxmin edirik ki, həmin şəxslər cinayət törətməzdən əvvəl də praktiki fəaliyyət ilə məşğul olmamış, təcrübə əldə etməmişdir. *Araşdırmalar göstərir ki, onların bir çoxu cinayət törətməzdən əvvəl təhsil səviyyəsi aşağı olmuşdur* ki, bu da öz növbəsində təhsilin keyfiyyətinin cinayətlərin törədilməsində rolunu göstərir. Bu səbəbdən onlara müəyyən qaydada təlimlərin keçirilməsinə ehtiyac vardır.

Bundan əlavə cinayət törətmiş şəxslər bəzi hallarda əvvəl cinayət törətdiyini, məhkumluğunun olduğunu işəgötürənlərə bildirmir. Bu halda belə nəticə əldə etmək olar ki, işəgötürənlər üçün əsas tələb həm də məhkumluğu olan şəxsin davranışı, biliyi, təcrübəsidir və belə də olmalıdır.

---

[80] Doç. Dr. Cumhur Şahin. Tahliye öncesi ve sonrası hükümlüye ve eski hükümlüye yardım, https://dergipark.org.tr/tr/pub/ahbvuhfd/issue/48135/608840 (son baxış iyun 15, 2024).

İşsizliyin aradan qaldırılması məqsədilə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq mümkündür. Bu səbəbdən keçmiş məhkumların müəyyən miqdarda kredit götürmələrinə, azad sahibkarlıqla məşğul olmalarına şərait və imkan yaradıla bilər. Kiçik sahibkarlıq ilə məşğul olan keçmiş məhkumlar uğura imza atdığı halda, işsizliklə üzləşən digər cəza çəkməkdən azad edilmiş məhkumların işlə təmin edilməsində yardım edə bilərlər.

Bununla əlaqədar olaraq Türkiyədə bir sıra sahibkarlıq fəaliyyətinə dəstək verən layihələr həyata keçirilməkdədir. Onlardan biri "İŞKUR" adlanır. "İŞKUR" tərəfindən açılan sahibkarlıq təlim proqramlarında keçmiş məhkumların intensiv iştirakı, təlimə başlayanların davamlılığı təmin edilir. 2013-cü ildə İŞKUR tərəfindən ümumilikdə 852 sahibkarlıq kursu açılıb. Bu kurslarda ümumilikdə 23.571 nəfər iştirak edib. Onlardan 11.935 nəfəri kişi, 11.636 nəfəri qadındır. Keçmiş məhkumların da belə kurslarda iştirakı təmin edilir[81].

Məhkumların məşğulluğu ilə bağlı Türkiyə qanunvericiliyində müsbət hesab edilən normalar nəzərdə tutulmuşdur. Belə ki, Türkiyənin düzəliş edilmiş 1869 nömrəli qanuna görə işəgötürənlərin üzərinə 50-dən çox işcisi olduğu halda bir məhkumu işə götürməsi vəzifəsi qoyulur.

Daha sonra 4857 nömrəli qanun ilə yuxarıda qeyd edilən qayda ləğv edilmiş və işçilərin ümumi sayının 2 % nisbətində məhkumluğu olan şəxslərin işə götürülməsi vəzifəsi qoyul-

[81] Murat Erusta. Türkiyede hükümlü ve eski hükümlülere yönelik sosyal politikalar: Diploma Tezi, 83 (2016).

muşdur. Əgər işəgötürənlər bu öhdəliyi yerinə yetirməzsə cərimə ödəməli olur. Həmin cərimələr isə CÇM-də olan məhkumların təhsil və təliminə ayrılır.

Bundan əlavə daha az işcisi olan işəgötürənlərin məhkumluğu olan şəxsləri işə götürməsi üçün həvəsləndirmə tədbirlərin aparılması, vergi güzəştlərinin edilməsi faydalı ola bilər.

*Amerikada, Filadelfiya əyalətində işəgötürənlərə məhkumluğu olan işcini işə götürdüyü halda müəyyən təşviqlər edilir. Belə ki, işəgötürənlərin keçmiş məhkumları işə götürməsi, vergilərin azaldılması, ilk altı ayda 25.000 ABŞ dollarına qədər dövlət tərəfindən dəstəklənən təşviqlər* təklif olunur[82].

---

[82] Murat Erusta. Türkiyede hükümlü ve eski hükümlülere yönelik sosyal politikalar: Diploma Tezi, 36 (2016).

## 2.7. Cəza çəkməkdən azad edilmiş şəxslərin yaşayış yeri ilə təmin olunması

Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya məqsədilə yaşayış yeri ilə təmin olunması onların əvvəl mövcud olan mənfi dostluq əlaqələrinin və münasibətlərin məhdudlaşdırılmasına, cəza çəkməkdən azad olmuş şəxsin özlərinə “yeni həyat tərzi” yaratmasına kömək ola bilər. Bunun üçün əlbəttə ki, məhkumların da öz daxili istəkləri olmalıdır.

Cinayət törətmiş şəxslər cinayət törətməzdən əvvəl ailələri və yaxın qohumları ilə birlikdə qaldıqları üçün cəza çəkməkdən azad olunduqdan sonra yaşayış yeri tapmaqda çətinliklər ilə rastlaşmaya bilirlər. *Onların qarşılacağı çətinliklər daha çox ailə-cəmiyyət problemləri ilə əlaqədar ola bilər.* Buna baxmayaraq azadlığa çıxdıqdan sonra yaşayış yeri tapmaqda müəyyən çətinliklər ilə rastlaşan şəxslər də vardır ki, bununla bağlı tədbirlərin görülməsi zəruridir.

Bəzi şəxslər cinayət törətməzdən əvvəl yaşayış yerinə sahib olmasa da, digər qrup şəxslər cinayət törətdikdən sonra yaşayış problemləri ilə qarşılaşırlar. Buna əsas səbəb ailə problemləridir. Xüsusən də qadın məhkumların törətdikləri cinayətlərə görə öz ailələrində qəbul edilməməsi onların yaşayış yerlərini tərk etməsinə səbəb ola bilər.

Bütün bunlar isə öz növbəsində şəxsin yenidən CÇM-ə qayıtmasına, cinayət törətməsinə səbəb ola bilər ki, bu zaman da CÇM şəxs üçün “yaşayış məskəni”nə çevrilir. Bəzi hallarda isə bu tip şəxslər keçmiş cinayətkar əlaqələrinə qayıdır, cinayətkar “dost”ları ilə birlikdə yaşamağa məcbur olur.

Cinayət törətməzdən əvvəl kredit və ya ipoteka vasitəsilə yaşayış mənzili əldə etmək məqsədilə müqavilə bağlamış şəxslərin cinayət törətdikdən sonra mənzili itirməməsi yönündə güzəşt tədbirlərinin görülməsi mənzil problemlərinin aradan qaldırılması üçün faydalıdır. Ümumiyyətlə nəinki mənzil, digər mülki hüquqi məsələlərdə müəyyən qədər güzəşt edilməli, məhkumlar da nəzərə alınmalıdır.

Bundan əlavə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" qanuna əsasən yalnız ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin əvvəlki yaşayış yerləri üzrə qeydiyyatdan çıxarılması, digər müddət həddində azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərin qeydiyyatdan çıxarılmaması müsbət hal hesab edilə bilər.

Mənzil təmini ilə bağlı problemlərin aradan qaldırılması məqsədilə məhkumların müəyyən məşğulluq fəaliyyəti ilə məşğul olana qədər dövlət hesabına ev ilə təmin edilməsi, gələcəkdə məşğulluq fəaliyyəti ilə məşğul olduğu halda, onun qazancına nəzərən müəyyən yardımların edilməsi cinayətkarlıqla mübarizədə, təkrar cinayətlərin azaldılmasında faydalı ola bilər. *Bundan əlavə mümkün olduğu halda kommunal xərclərdə güzəşt edilə bilər*.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 13 iyun tarixli 138 nömrəli qərarı ilə təsdiq edilmiş, "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərinin yaradılması haqqında" Əsasnaməyə əsasən sosial adaptasiya mərkəzinin əsas vəzifələrinə cəza çəkməkdən azad edilmiş qadınların himayəsində olan 14 yaşına çatmamış uşaqların məktəbəqədər təhsil müəssisə-*

*lərinə və ya internat məktəblərinə yerləşdirilməsinə yardım etmək, cəza çəkməkdən azad edilmiş şəxsləri gün ərzində bir dəfədən az olmamaq şərtilə pulsuz isti yeməklə təmin etmək, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş cəza çəkməkdən azad edilmiş yetkinlik yaşına çatmayanların yaşayış sahəsi olmadıqda, onların internat məktəblərinə göndərilməsinə və sosial kirayə müqaviləsinə əsasən növbədənkənar yaşayış sahələrinin verilməsinə yardım etmək aiddir.*

Cəza çəkməkdən azad edilmiş şəxslər, əgər qanunvericiliklə müəyyən edilmiş qaydada əvvəlki yaşayış sahəsinə hüquqlarını itirməmişlərsə, müraciət etdikləri vaxtdan üç gün ərzində AR Daxili İşlər Nazirliyi tərəfindən həmin yaşayış yeri üzrə qeydiyyata alınırlar.

Qeydiyyata alınmış və yaşayış sahəsi olmayan cəza çəkməkdən azad edilmiş şəxslər sosial adaptasiya müddətindən çox olmamaqla *(bir il və ya istisna hallarda daha çox)* müvəqqəti yaşayış yeri ilə təmin edilirlər. Yaşayış sahəsi olmayan şəxslərin müvəqqəti yaşayış yerində yaşamaq müddəti müstəsna hallarda artırıla bilər. Xüsusən, yaşayış sahəsi olmayan və himayəsində 14 yaşadək uşağı olan qadınların müvəqqəti yaşayış yeri ilə təmin olunması təxirəsalınmadan həyata keçirilir.

Cəza çəkməkdən azad edilmiş orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər, altmış iki yaşına çatmış kişilər və əlli yeddi yaşına çatmış qadınlar öz ərizələri ilə AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələrinə göndərilirlər.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş yetkinlik yaşına çatmayanların yaşayış sahəsi olmadıqda onlar AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən internat məktəblərinə göndərilir və tam dövlət təminatına götürülürlər.

Sosial kirayə müqaviləsi əsasında yaşayış sahələrinin verilməsi məhkumların mənzil problemlərini aradan qaldırmaq cəhətdən faydalıdır. AR Mənzil Məcəlləsinə əsasən sosial kirayə müqavilələri əsasında yaşayış sahələrinə ehtiyacı olduğu hesab edilən aztəminatlı vətəndaşlara, o cümlədən sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərə dövlət və ya bələdiyyə mənzil fondunun yaşayış sahələri verilir.

Güzəştli mənzillər "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda nəzərdə tutulmuş bir qism şəxslərə şamil edilir. Əvvəllər məhkumluğun olmasının mənzil əldə etməkdə heç bir məhdudiyyət yaratmaması müsbət haldır. Buna baxmayaraq həmin bir qism şəxslərin siyahısına sosial müdafiəyə ehtiyacı olan cinayət törətmiş və cəzadan azad edilmiş şəxslərin də əlavə edilməsi müsbət addım hesab edilə bilər.

Cəza çəkməkdən azad olunmuş məhkumların məskunlaşması üçün digər alternativ yol onların xüsusi təyinatlı mənzillərdə yerləşdirilməsidir.

AR Mənzil Məcəlləsinə əsasən xüsusi təyinatlı mənzil fonduna xidməti yaşayış sahələri, yataqxanalar, manevr fondu yaşayış sahələri *(manevr fondu yaşayış sahəsi dedikdə, müəyyən səbəblərdən yaşayış sahələrini itirmiş və s. şəxslərin*

*müvəqqəti olaraq yerləşdirildiyi sahələr nəzərdə tutulur),* əhaliyə sosial xidmət sisteminə daxil olan binalarda yaşayış sahələri, məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi fondunun yaşayış sahələri, qaçqın statusuna malik olan şəxslərin müvəqqəti yerləşdirilməsi fondunun yaşayış sahələri, ayrı-ayrı kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsi üçün yaşayış sahələri aiddir.

Cəza çəkməkdən azad edilmiş şəxslərin manevr fondu yaşayış sahələrində yerləşdirilməsi ilə bağlı əsas qərarlardan biri 2008-ci ildə təsdiq edilmiş, "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin manevr fondu yaşayış sahəsi ilə təmin olunma qaydası və həmin müvəqqəti yaşayış yerlərində yaşamaq müddətinin artırılmasının müstəsna halları" adlı nazirlər kabinetinin qərarıdır.

Qeyd edilən qərara əsasən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qeydiyyata alınmış cəza çəkməkdən azad edilmiş şəxslər aşağıdakı hallarda manevr fondu yaşayış sahəsi ilə təmin olunurlar: yaşayış sahəsi olmadıqda və ya qanunvericiliklə müəyyən edilmiş qaydada əvvəlki yaşayış sahəsinə hüquqlar itirilmişsə; yaşayış sahəsində qanunvericiliklə müəyyən edilmiş qaydada himayəyə verilmiş yetkinlik yaşına çatmayanların yaşadıqları hallarda, cəza çəkməkdən azad edilmiş şəxsin *(mənzilin mülkiyyətçisi olduğu hallar istisna olmaqla)* həmin yaşayış sahəsinə yerləşməsinə qəyyumluq və himayə orqanının razılığı olmadıqda. Əsasən məskunlaşma müddəti bir il nəzərdə tutulur, lakin qanunda nəzərdə tutulan hallarda daha bir il də artırıla bilər.

# III FƏSİL
# MÜXTƏLİF KATEQORİYALI MƏHKUMLARIN SOSİAL ADAPTASİYASI

## 3.1. Müxtəlif kateqoriyalı məhkumların sosial adaptasiyasının mərhələləri

Ümumiyyətlə şəxsin cinayət törətdiyi vaxtdan, onun cəzadan azad olduğu vaxta qədər bir-biri ilə sıx bağlı olan müəyyən mərhələlər mövcud olur. Bunlar ümumi xarakterli olması ilə fərqlənir. Qeyd edilən ümumi mərhələlərin diqqətə alınması, mövcud qüsurların aradan qaldırılması hər tərəfli təsir gücünə malikdir.

Cəmiyyətin üzvünün azad həyatdan məhkumluq həyatına gedən yolunu kəsmək məqsədilə ilkin ediləcək işlərə cinayətkarlıqla mübarizə aparılması aiddir. Nəticədə, cinayət törədəcək şəxslərin sayında azalma baş verə bilər ki, bu sosial adaptasiya tədbirlərinə ehtiyacı azalda bilər.

Məhkumun sosial adaptasiyasında əksini tapan əsas faktorlardan biri dolayı yolla cinayətkarlıqla mübarizə olsa da, yalnız ondan ibarət deyil. Bundan əlavə, məhkumların cəmiyyətə inteqrasiyasının faydalı olması üçün tətbiq edilən cəzaların mühüm əhəmiyyəti vardır. Cəzaların humanistliyi, ədalətliliyi, növləri, uyğunluğu və s. digər elementləri məhkumun sosial adaptasiyasına mühüm təsir edə bilər.

Məhkumların cəmiyyətə inteqrasiyasın təsir edən növbəti mərhələ cəzaçəkmə müddətində məhkumla digər şəxslərin, o cümlədən vəzifəli şəxslərin münasibəti və s. faydalı işlərin

görülməsi, başqa sözlə effektiv cəzanın çəkilməsi və icrası qaydalarıdır. Bu kimi tədbirlərə xüsusi diqqət göstərdikdən sonra ən önəmli məsələ sırf sosial adaptasiya tədbirlərinin tətbiq edilməsi olaraq özünü göstərir.

Beləliklə, şəxsin məhkum olunması mərhələli bir dövrdən keçdiyi kimi, onun sosial adaptasiyası da eyni qaydada mərhələli bir dövrdən keçir. Belə ki, şəxs ilk olaraq cinayət törədir, daha sonra cəza çəkir və ən sonda cəza çəkməkdən azad olunur. Eyni qaydada məhkumun sosial adaptasiyası üçün ilk olaraq şəxsin cinayət törətməsinin qarşısını almağa, daha sonra ona tətbiq edilən cəzanın faydalılığına, effektivliyinə şəxsin cəza çəkdiyi müddətdə ona olan münasibətə və sonda isə şəxsin cəza çəkməkdən azad olunarkən tətbiq edilən tədbirlərə diqqət etmək lazımdır.

Bunu nəzərə alaraq müxtəlif kateqoriyalı məhkumların sosial adaptasiyası məsələsinə diqqət edərkən həmin mərhələləri təhlil etməyə çalışacağıq.

## 3.2. Qadın məhkumların sosial adaptasiyası

**I** Qadınlar tərəfindən törədilən cinayətlər öz xarakterinə görə bütün tarix boyu fərqlənmiş, qadınlar tərəfindən törədilən cinayətlərin sayı kişilər tərəfindən törədilən cinayətlərin sayından az olmuşdur ki, bu da qadınların kişilərə nisbətdə zəif cinayətkar xarakterindən xəbər verir.

Buna baxmayaraq qadınların tərəfindən cinayətin törədilməsinə səbəb olan amillərin müəyyən edilməsi müəyyən qüsurların mövcudluğundan xəbər verə, onlar barəsində zorakılıq hallarının artdığını, qayğısızlığını göstərə bilər. Qadınlar kişilər kimi aktiv həyat fəaliyyətində iştirak etmədikləri üçün onların törətdikləri cinayətlər adətən məcburiyyətdən baş verir. Əgər cəmiyyətdə qadınlar tərəfindən törədilən cinayətlərin sayı artarsa, bunun əsas səbəbi adətən onlara qarşı olan mənfi münasibətdən irəli gəldiyini düşünməyə əsas vardır.

Bundan əlavə qadınlar tərəfindən cinayət törədilməsinin səbəblərindən biri onların iqtisadi predmet kimi istifadə edilməsi ilə şərtlənir. Nəzərə almaq lazımdır ki, bir çox hallarda onlar konformist *(təsir altında düşmə)* xüsusiyyətlərindən irəli gələrək maraq duyduqları insanların təsiri altında tez düşə bilirlər.

Adətən ailədə, az yaşlı olduğu vaxtlarda və ya ailə qurduqdan sonra zorakılığa məruz qalmış qadınların psixologiyasında intiqam alma hissi formalaşa bilər ki, bu da onların gələcəkdə zorakı cinayətlər törətməsini şərtləndirə bilər. Buna baxmayaraq fiziki gücün azlığı və ya mərhəmət hissinin üstün-

lüyü çox vaxt onların cinayət törətməsinə mane olur. Həmçinin onlarda insanları inandırmaq, manipulyasiya etmək bacarığının olması da öz növbəsində könüllü şəkildə qrup cinayətlərin törədilməsinə səbəb ola bilir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən cinayətkarlığın göstəriciləri üzrə tərtib edilmiş statistik məlumatlara nəzər etdikdə görünür ki, qadınlar tərəfindən törədilən cinayətlərin sayı 2022-ci ildə 1.227 nəfər olmuşdur[83]. Qadınlar tərəfindən törədilən cinayətlər arasında oğurluq, dələduzluq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma ilə əlaqədar cinayətlər daha üstünlük təşkil edir[84].

Statistikada qadınlar tərəfindən quldurluq, oğurluq cinayətlərinin törədilməsi ilə rastlaşırıq ki, bu da qadınların iqtisadi vəziyyətinin zəifliyindən xəbər verir. Qadın hüquqlarının müdafiəsi və onların məşğulluğu ilə əlaqədar olaraq qüsurların mövcudluğu əsas səbəblərdən hesab edilə bilər[85].

Qadın cinayətkarların şəxsiyyətinin kriminoloji xüsusiyyətlərinə gəldikdə isə qeyd etmək lazımdır ki, onların əksəriyyətinin təhsil və tərbiyə səviyyəsi aşağıdır, ailələri dağılmış, qadın cinayətkarlarda isə müəyyən psixoloji kompleks, həyata nifrət, qisas hissləri olur[86].

---

[83] Azərbaycanda cinayətkarlığın əsas göstəriciləri (2023), https://stat.gov.az/source/crimes/az/002_1.xls (son baxış iyun 16, 2024)
[84] Cinayət törətmiş qadınlar (2023), https://stat.gov.az/source/crimes/az/003_12.xls (son baxış iyun 16, 2024)
[85] Yenə orada.
[86] Çingiz Feyruz oğlu Mustafayev, Kriminologiya, 301 (2015)

Nəzərə almaq lazımdır ki, qızların, xüsusən də qadınların davranışlarında emosiyalar mühüm yer tutur. Onların fəaliyyəti bir çox halda emosional təsir nəticəsində özünü göstərir. Bütün bunlar da öz növbəsində cinayi davranışlarının düşünmədən, istəmədən törətməsinin mümkünlüyünü göstərir.

Qadınlara xas olan impulsivlik, affektə meyillilik, həyatında baş verən problemlərə, travmalara və s. diqqətin daha çox ayrılması, bir çox hallarda emosional düşüncənin təsiri altında müxtəlif situasiyaları kifayət qədər qiymətləndirə bilməmək və digər amillər onların cinayi davranış sərgiləməsinə səbəb ola bilər.

Beləliklə, qadınların cinayət törətməsinə kömək edən amillərə iqtisadi vəziyyətin zəifliyi, işsizlik problemi, zorakılıq halları, hüquqlarının təmin olunmaması, ailə problemləri *(ailənin möhkəmliyi, müdafiəsi aspektində tədbirlərin görülməməsi)*, ailə münasibətlərinin qurulması barədə biliyin olmaması, nigahdan kənar münasibətlərin varlığı, çox erkən ailə qurma, sərxoş edici vasitələrdən istifadə, özünü müdafiə məqsədi və digərləridir.

Nəticədə, *xüsusi strategiya yaradılmalı, sistemli plan əsasında ibtidai istintaq zamanı qadınların cinayət törətməsinin səbəbləri araşdırılmalı, onları aradan qaldırmaq üçün imkanlar və tədbirlər planı formalaşdırılmalıdır.*

**II** Cinayət törətmiş qadınlara münasibətdə tətbiq edilən cinayət hüquqi tədbirlər digər şəxslərə nisbətdə öz xarakterinə, yumşaqlığına görə fərqlənməli, bir qədər yüngül olmalıdır. Buna səbəb onların islah olmağa daha çox meyilli olmasıdır ki, bu da sosial, bioloji faktorlarından irəli gəlir.

Nəzərə almaq lazımdır ki, qadınlar daha çox depressiyaya meyilli ola, güclü stresslə qarşılaşa bilirlər. Cəza təyin edilmiş və CÇM-ə daxil edilən qadınların əksər hissəsində öz əməlindən peşmançılıq, vicdan əzabı və bu kimi depressiv meyilli hallar baş verməsi gözlənilləndir. Bu da öz növbəsində onların daha tez islah edilməsinin mümkünlüyünü göstərir.

AR CM-də cinayət törətmiş qadınlara münasibətdə humanist addımların atıldığı görünür. Müvafiq məcəllənin 57-ci maddəsinə görə ömürlük azadlıqdan məhrum etmə cəzası qadınlara təyin edilmir. Eyni məcəllənin 59-cu maddəsinə görə isə hamilə qadın tərəfindən cinayətin törədilməsi cəzanı yüngülləşdirən hallardan hesab edilir.

AR CM-in 79-cu maddəsinə əsasən şəxsiyyət əleyhinə ağır və ya xüsusilə ağır cinayət törətməyə görə beş ildən çox müddətə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər istisna olmaqla, məhkəmə məhkum edilmiş hamilə qadınlar və ya on dörd yaşına qədər uşağı olan qadınlara münasibətdə uşaq on dörd yaşına çatanadək cəzanın çəkilməsini təxirə sala bilər. Əgər həmin şəxslər uşaqdan imtina etdiyi və ya uşağı tərbiyə etməkdən boyun qaçırmağa davam etdiyi halda, məhkəmə cəzaçəkmənin təxirə salınmasını ləğv edə və məhkumu cəzanı çəkmək üçün hökmlə müəyyən olunmuş yerə göndərə bilər. Buna baxmayaraq bu zaman qadının psixoloji, iqtisadi vəziyyətini nəzərə almaq lazımdır ki, onun uşağa baxmaqdan imtina etməsinə səbəb olan amillər aşkar edilsin, aradan qaldırılsın, düzgün qərar verilsin.

Bəzi hallarda fiziki, cinsi və digər növlər üzrə zorakılığa məruz qalmış və zəruri müdafiə hüququndan istifadə edərək

qarşıdakı şəxsə zərər vurmuş qadınlar zəruri müdafiə vəziyyətini aşmadıqları halda cinayət məsuliyyətinə cəlb edilmədiyinə baxmayaraq, gələcəkdə hər hansı travma yaşamaması, stress və ya depressiv hallar ilə qarşılaşmaması üçün psixoloji işin aparılmasına ehtiyac vardır ki, bu da həmin şəxslərin sosial adaptasiyasına təsir edə, gələcəkdə hər hansı cinayət törətməsinin qarşısını ala bilər.

Xüsusən övladı olan qadınlara münasibətdə cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə institunun tətbiqinə daha çox yer verməк lazımdır. Buna səbəb qadın məhkumların övladları ilə münasibəti onların islah edilməsinə kömək edə bilməsidir.

**III** Cinayət törətmiş şəxs cinayət məsuliyyətinə cəlb edildikdən sonra, həmin şəxsə münasibətdə cəzanın təyini və icrası məsələsi ortaya çıxır. Qadın məhkumların cəzasının icrası ilə əlaqədar qanunlarda xüsusi normalar nəzərdə tutulur, atılan addımlar humanist təəssürat yaradır.

Hamilə qadınlara, CÇM-in nəzdindəki uşaq evlərində uşaqları olan qadınlara icazə verilən əlavə ərzaq məhsulları və zəruri mallar əldə etmək imkanı *(CİM 80)*, hamilə və uşaq evlərində uşaqları olan qadın məhkumların məhdudiyyətsiz bağlama, sovqat və ya banderol almaları *(CİM 82)*, hamilə və ya üç yaşına çatmamış uşağı olan məhkum qadınlara, yaxşılaşdırılmış maddi-məişət şəraiti yaradılması *(CİM 91)*, onların yalnız könüllülük əsasında işləməsinə icazə verilməsi *(CİM 95)*, könüllülük əsasında peşə təhsili və peşə hazırlığına cəlb edilməsi *(CİM 100)* məhkum qadınların hamiləliyə və doğuşa görə müəyyən edilmiş müddətə işdən azad edilmələri *(CİM 96)*, cərimə təcridxanasında qalma müddətinin az olması *(CİM*

*107)* və s. qadınlara münasibətdə tətbiq edilən güzəşt tədbirləri hesab edilə bilər.

CÇM-də olan qadınların islah edilməsinə ən böyük təsir onların övladları ilə vaxt keçirməsində göstərir. CÇM-də olan qadınlar təcrid hissi yaşayırlar. Qadınlar üçün CÇM-in ağırlığından əlavə uşaqlarından ayrı qalmasının da ağır təsiri vardır. Bu səbəbdən qadın valideynlər tez-tez ümidsizlik və depressiya yaşayırlar. Hətta bu emosiyalar evdə uşaqları ilə birlikdə yaşadıqları zaman belə valideyn kimi qeyri-kafi olduqlarına baxmayaraq eyni qaydada üstünlük təşkil edir[87].

Bunu nəzərə alaraq CÇM-də uşaq evlərinin yaradılması mühüm addım hesab edilə bilər. Buna baxmayaraq uşaqların CÇM şəraiti ilə tanış olması, gələcəkdə onun şəxsiyyətinə mənfi təsir edə bilər ki, bu da uşaqların CÇM-dən uzaq olmasının əhəmiyyətini göstərir. Nəticədə, ziyansız şəkildə "orta yol" tutulmalıdır.

AR CİM-in 92-ci maddəsinə əsasən məhkum qadınlar asudə vaxtlarında uşaqlarla məhdudiyyətsiz görüşə, birgə yaşayışına icazə verilə bilər. Əgər qadının şəxsiyyətində müsbət dəyişikliklər olarsa, uşağın üç yaşı olduqda, anasının da eyni qaydada azadlığa çıxmasına şərait yaradılması faydalı hesab edilə bilər. Bundan əlavə qadınlara uşaqlara baxmaq, qayğısına qalmaq ilə bağlı təlimlərin keçirilməsi sağlam övladın böyüməsinə şərait yarada bilər.

Qadın məhkumların sosial adaptasiyasına təsir edəcək

---

[87] Mark R. Pogrebin, Mary Dodge. *Women's accounts of their prison experiences A retrospective view of their subjective realities,* 532 Journal of Criminal Justice (2001).

mühüm işlərdən biri onların CÇM-dən kənarda yaşamasıdır ki, bu da qadınların cəmiyyətdən müəyyən qədər təcrit edilməsinin qarşısını ala bilər. Buna uyğun olaraq "Cəza-çəkmə müəssisələrinin Daxili İntizam Qaydaları"nın 170-ci bəndinə əsasən əməyə vicdanlı münasibət bəsləyən və cəzaçəkmə rejiminin tələblərinə riayət edən, habelə cəza müddətinin ən azı üçdə birini çəkmiş məhkum qadınlara CÇM-in müdiriyyətinin əsaslandırılmış qərarı ilə hamiləliyə və ya doğuşa görə qanunla müəyyən edilmiş qaydada işdən azad edildikləri vaxt ərzində, habelə uşaq üç yaşına çatanadək CÇM-dən kənarda yaşamağa icazə verilə bilər. CÇM-dən kənarda yaşamağa icazə verilmiş məhkum qadınlar CÇM ərazisi yaxınlığında yaşaması üçün yerləşdirilir və müdiriyyətin daimi müşahidəsi altında olur, adi həyatda işlədilən paltar geyinə bilir, məhdudiyyətsiz halda yazışa, pul baratları ala və nağd puldan istifadə edə, qohumları, həkimi və başqa şəxslərlə görüşə, sovqat, bağlama və banderol ala bilir, hüdudları müəyyən edilən ərazi daxilində sərbəst gediş-gəliş hüququndan istifadə edə bilirlər[88].

Bundan əlavə qadınların ehtiyaclarına, sağlamlıqlarına və s. xüsusi diqqət etmək lazımdır. "Avropa Penitensiar Qaydaları"nın 34.1-ci bəndinə əsasən qadın məhbuslar barədə bu və ya digər nöqteyi nəzərdən onların həbsi ilə əlaqədar hər hansı bir qərar qəbul edildikdə, müdiriyyət qadınların ehtiyaclarına, o cümlədən onların fiziki, peşə, sosial və psixoloji ehtiyaclarına xüsusi diqqət yetirməlidir.

---

[88] Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları, https://e-qanun.az/framework/10994

**IV** Qadın məhkumların sosial adaptasiyası üçün tətbiq edilməli olan tədbirlər ilk fəsillərdə bəhs edilən qaydalar, yəni ümumi tədbirlər ilə əsasən eynilik təşkil edir. Bununla yanaşı qadın məhkumların sayının azlığından onlara diqqət etmək daha rahat olduğu kimi, həm də sosial statusuna görə çox mühümdür və bu da öz növbəsində onlar barəsində sosial adaptasiya aspektdən araşdırma aparmağı zəruri edir.

Qadınların əksəriyyəti törətdiyi cinayətə görə ailələrində qəbul edilmirlər. Xüsusən də adam öldürmə, narkotik maddələrin satışı, yaxud insan alveri ilə bağlı cinayət törədən qadınlar sonradan yaxınları, ailəsi tərəfindən birmənalı şəkildə rədd edilir. Bu da həmin şəxslərin ikinci, üçüncü və hətta dəfələrlə CÇM-ə qayıtmasına səbəb olur.

Məlum olduğu kimi, bir çox hallarda kişilər oğurluq, dələduzluq və başqa bu kimi tamah xarakterli cinayətləri məhz ailələrini dolandırmaq məqsədilə törədirlər. Nəticədə, onlar cinayət məsuliyyətinə cəlb olunur və ailələr "başsız" qalırlar. Bu cür ailələrə dövlət və digər qeyri-dövlət qurumları tərəfindən heç bir qayğı göstərilmədiyindən, həmin ailələrin üzvləri, o cümlədən qadınlar cinayət törətməli olurlar[89]. Bunu nəzərə bu cür hallarda həmin ailələrə maddi yardımların göstərilməsi düşünürük ki, sui-istifadə halları yaratmayacağı hallarda faydalı addım olaraq qəbul edilə bilər.

Məşğulluq problemlərindən əlavə olaraq qadın məhkumlara münasibətdə cəza çəkməkdən azad olunduqdan sonra yaşayış yeri problemlərinə də rast gəlinmə ehtimalı yüksəkdir.

---

[89] Çingiz Feyruz oğlu Mustafayev, Kriminologiya, 307 (2015)

Yaşayış yerinin təmin olunmaması, onun yaşadığı evdən məcburi çıxarılması və ya yaşadığı yerdə ona qarşı zorakılıq hərəkətlərin edilməsi, qanunvericilikdə qadınların bu və ya digər hüquqlarının müdafiəsinə diqqət edilməməsi və s. qadınların yaşayış məskəni ilə bağlı probleminin yaranmasına, bu da öz növbəsində qadının cinayət törətməsinə, qeyri-hüquqi və düzgün olmayan fəaliyyətlər ilə məşğul olmasına səbəb ola bilər.

## 3.3. Yetkinlik yaşına çatmayan məhkumların sosial adaptasiyası

*"Gənclərin dəstəyə ehtiyacı, cəmiyyətin gənclərə olan ehtiyacı qədərdir".*

**I** Hər hansı bir sahədə və ya hər hansı bir kateqoriyaya aid şəxslər arasında cinayətlərin sayının artması, həmin sahə və ya şəxslər ilə əlaqədar olaraq müəyyən cinayətkarlıqla mübarizə tədbirlərinin aparılmasının zəruriliyini və həmin sahədə müəyyən həll edilməsi lazım olan problemlərin olduğunu göstərir. Həmin kateqoriyalı şəxslərdən biri də yetkinlik yaşına çatmayanlardır.

Dövlət statistika komitəsi tərəfindən tərtib edilmiş statistik məlumatlara nəzər etdikdə yetkinlik yaşına çatmayan şəxslər tərəfindən *(14-17 yaş arası)* törədilən cinayətlərin sayının digər yetkin şəxslərə nisbətdə az olduğu müşahidə olunur[90]. Yetkinlik yaşına çatmayan şəxslərin xüsusi qayğıya, diqqətə ehtiyacı olduğunu nəzərə aldığımız halda həmin şəxslərə münasibətdə bu say çox hesab edilə bilər. Çünki, yetkinlik yaşına çatmayan şəxslərin cinayət törətməsinə səbəb onlara qarşı laqeyd münasibətin olmasından, ailə münasibətlərinin düzgün qurulmamasından, iqtisadi vəziyyətin zəifliyindən və s. irəli gələ bilir.

Adətən yetkinlik yaşına çatmayan şəxslərin düşüncəsində təhrif edilmiş "həqiqətlər" mövcud olur. Həmin "həqiqətlər"in dəyişdirilməsi isə qadağa qoymaqla mümkün olmadığı üçün

---

[90] Cinayət törətmiş şəxslərin sosial-demoqrafik əlamətlərinə görə bölgüsü https://stat.gov.az/source/crimes/az/003_11.xls

insanların etdikləri istənilən hərəkətlərdə azadlıq faktoruna diqqət edilməlidir. İnsan istənilən hərəkəti etməkdə azad olsa da, bu onun mənfi hərəkət edəcəyinə haqq qazandırmır. Sadəcə olaraq yetkinlik yaşına çatmayanlara münasibətdə həmin azadlığın düzgün tərzdə yönləndirilməsinə ehtiyac vardır.

Məşhur psixoloq Ziqmund Freyd insanın psixikasını 3 stansiyaya bölürdü: "O" *(id)*, "Mən" *(ego)* və "Ali Mən" *(super ego)*. "O" *(id)* insanın istəklərini, "Mən" *(ego)* insanın bacarıq və real imkanlarını, "Ali Mən" *(super ego)* isə məcburiyyət funksiyasını göstərir. Freyd qeyd edirdi ki, istəklər pis olsa da onları yasaq etmək olmaz, daha doğrusu mümkün deyil. Sadəcə olaraq həmin istəkləri qəbul etmək və qanunauyğun, düzgün formada həyata keçirmək lazımdır. Əks halda insan ya xəstələnəcək, ya da günahkar statusu alıb təcrid olunmuş kimi yaşamağa məcbur olacaqdır[91].

Buradan belə nəticə çıxır ki, insanların istəkləri üçün alternativ yollar açılmalı, doğru yollar ilə istəklərini təmin edə biləcəyi göstərilməlidir. Yetkinlik yaşına çatmayan şəxsin bioloji xüsusiyyətləri onların dəyişməyə, uyğunlaşmağa meyilli olduğunu göstərir. Nəticədə onların bacarlıqlarına uyğun olaraq xüsusi şərait formalaşdırılmasının onların müsbət xüsusiyyətlər əldə edə bilməsində kömək ola bilər.

Yetkinlik yaşına çatmayanlarda özünü göstərmə, qruplarda birləşmə, "hörmət" qazanma, liderlik və s. bu kimi istəklər formalaşır. Həmin istəkləri həyata keçirmək üçün özlərində

---

[91] Elman Yusifov və Müşfiq Ramazanov, Konfliktologiya dərslik, (2018).

"kriminal" aləmə maraq formalaşdırır. Fikrimizcə, yetkinlik yaşına çatmayanların təsəvvüründə müəyyən alternativlərin formalaşmaması səbəbindən, yeganə yolu kriminal aləmə maraq bəsləməkdə görürlər. Buna baxmayaraq onlar bilmə-lidirlər ki, hörmət qazanmaq və ya ədalətsizliklə mübarizə aparmaq üçün digər yollar da vardır. Həmin alternativ yollardan biri faydalı peşəyə *(hüquqşünas və s.)* yiyələnməklə insanlara fayda verməkdir. Düşünürük ki, yetkinlik yaşına çatmayanların enerjilərini pozitiv istiqamətlərə yönəltməklə, onların sağlam formalaşmasına, cinayətkar aləmdən uzaq durmasına şərait yaradıla bilər.

Yetkinlik yaşına çatmayan şəxslərin cinayət törətməsinə kömək edən amilləri araşdırarkən ən məntiqli və qarşısının alınması mümkün görünən amillərdən biri onların boş vaxtlar-dan səmərəli istifadə edə bilməməsidir. Nəticədə, günlər səmərəsiz şəkildə kafelərdə və digər "istirahət" obyektlərində keçir. Bunlar da öz növbəsində onların tənbəlləşməsinə, mənfi dostluq münasibətlərinin artmasına, asan yolla həyatını sürməyə adət etməsinə və s. şərait yarada bilər.

Beləliklə, ümumi formada götürsək, yetkinlik yaşına çatmayan şəxslərin cinayət törətməsinə kömək edən səbəb və şəraitə düzgün ailə tərbiyəsinin olmaması, ailə münasibət-lərində problemlərin varlığı, təhsil səviyyəsinin zəifliyi, iş və dostluq mühitinin ona olan mənfi təsiri, boş vaxtın səmərəli istifadə edilməməsi və s. aiddir. Bunların sayını daha da artırmaq mümkün olsa da, burada sırf sosial adaptasiya aspektindən yanaşmağa çalışıldı.

*Həmin şəxslərin təkrar cinayət törətməsi əvvəl onların cinayət törətməsinə kömək edən səbəb və şəraitin aradan qaldırılmaması ilə əlaqədar ola bilər. Sosial adaptasiyanın düzgün qurulması üçün sonradan dəyişilməsi mümkün olan qüsurlara xüsusi diqqət etmək lazımdır. Əgər şəxsin cinayət törətməsinə mənfi dostluq əlaqələri səbəb olmuşdursa və sonradan həmin əlaqələri müsbət yöndə dəyişmək mümkündürsə, həmin amilləri məhkumların sosial adaptasiyası aspektindən araşdırmaq lazımdır. Nəticədə, ibtidai istintaq zamanı həmin hallar aşkar edilməli, CÇM-də olarkən tədricən müsbət işlərə adət etməsi və qüsurların aradan qaldırılması təmin edilməli, cəza çəkməkdən azad olunduqdan sonra isə əvvəl cinayət törətməsinə kömək edən amillər ilə bir daha rastlaşmaması üçün tədbirlər görülməlidir.*

Bundan əlavə kriminologiya elmində yetkinlik yaşına çatmayan şəxslər tərəfindən cinayətlərin törədilməsinin qarşısının alınması məqsədilə profilaktik tədbirlər qismində aşağıdakıların nəzərə alınması məqsədəuyğun hesab edilir: Ailənin sosial mövqeyinin möhkəmləndirilməsi, yetkinlik yaşına çatmayan uşaqların yaşadıqları ailələrə maddi və digər köməkliklərin göstərilməsi, azyaşlıların asudə vaxtlarının səmərəli keçirilməsinin təşkil edilməsi *(idmana, incəsənətə, ədəbiyyata və s. cəlb etmə),* hüquqi tərbiyə işinin genişləndirilməsi[92].

**II** Cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxslərə qarşı məhkəmə prosesində tətbiq edilən üsullar və məhkəmə prosesinin yekununda qəbul edilən qərarlar yetkinlik yaşına

[92]Çingiz Feyruz oğlu Mustafayev, Kriminologiya, 195 (2015).

çatmayan şəxslərin cəzalandırılmasına deyil, sağalmasına və cəmiyyətə inteqrasiyasına yönəldikdə məhkəmə əsas məqsədinə nail olur[93].

Yuvenal ədliyyə sistemində müasir yanaşmaya görə, cəza son çarədir. Qapalı müəssisələrə yerləşdirmə və azadlıqdan məhrum etmə müstəsna sanksiyalardır. Bunun səbəbləri arasında azadlıqdan məhrum etmənin cinayətlə mübarizədə effektiv üsul olmadığı və uşağın mənafeyinə uyğun olmadığına dair arqumentlərin güclü şəkildə sübuta yetirilməsi və geniş müdafiə olunmasıdır[94].

Yetkinlik yaşına çatmayan şəxs barəsində tətbiq edilən cinayət-hüquqi tədbirlər mümkün qədər azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan tədbirlər olmalıdır. Azadlıqdan məhrum etmə cəzası yetkinlik yaşına çatmayan şəxslərə tətbiq edildiyi halda onların cinayətkar mühitə uyğunlaşma ehtimalı arta bilir. Buna baxmayaraq alternativ cəzaların verilməsi, xüsusən də ictimai işlər ilə əlaqədar vəzifələrin qoyulması - park təmizliyi, köməyə ehtiyacı olan şəxslərə yardım etməyi və digərləri - onun həyatda müsbət işlərlə tanış olmasına kömək edə, yardım ilə əlaqədar işlərin şəxsə tanıtdırılması onun öz mühitini dəyişməsinə yardımçı ola bilər.

“Uşaq Hüquqları haqqında” Konvensiyanın 3(1)-ci maddəsində qeyd edilir ki, “Uşaqlar barəsində bütün tədbirlərdə əsas diqqət uşaq mənafelərinin daha yaxşı təmin edilməsinə

---

93 Cenver Kozanoğlu, İslahevindeki hükümlü çocuklarda kişisel ve sosyal uyum, yüksek lizans tezi (2001).

94 Dr. Eylem Ümit Atılgan, *Araştırmacının hapishane günlüğü: çocuk ceza infaz kurumlarında gerçekleştirilmiş bir akademik araştırmanın günlüğü,* 63 (2017).

yönəldilir, istər bu tədbirlər sosial təminat məsələləri ilə məşğul olan dövlət idarələri və ya özəl idarələr tərəfindən görülsün, istərsə də məhkəmələr, inzibati və ya qanunvericilik orqanları tərəfindən”[95].

Adı çəkilən konvensiyanın 37-ci maddəsində iştirakçı dövlətlərə aşağıdakıları təmin etmək öhdəliyi qoyulur və göstərilir ki, “uşağın həbsə alınması, tutulması və ya həbs-xanaya salınması qanuna uyğun həyata keçirilir və yalnız son tədbir kimi və mümkün qədər daha qısa olan müvafiq müddət ərzində tətbiq edilir. Azadlıqdan məhrum edilmiş hər bir uşaqla humanist rəftar edilsin və həmyaşıdları olan şəxslərin tələbatı nəzərə alınmaqla, onun şəxsiyyətinin ayrılmaz ləyaqətinə hörmət bəslənsin”.

AR CM 84-cü maddəsinə görə cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur. Yetkinlik yaşına çatmayanlar cinayət törətdikdə, onlara cəza təyin edilə və ya tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər. Azadlıqdan məhrum etmə cəzası tətbiq edildiyi halda bu cəza yetkinlik yaşına çatmayanlara on ildən çox olmayan müddətə təyin edilir. Bundan əlavə AR CM 86-cı maddəsinə görə cəza təyin edilərkən onların həyat və tərbiyə şəraiti, psixi inkişaf səviyyəsi, şəxsiyyətinin digər xüsusiyyətləri və kənar şəxslərin ona təsiri nəzərə alınmalıdır.

Yetkinlik yaşına çatmayan şəxslərə cinayət törətdiyi üçün

---

[95] Uşaq hüquqları haqqında Konvensiya (1989), https://migration.gov.az/content/pdf/5acb09f3100d0_U%C5%9Faq%20h%C3%BCquqlar%C4%B1%20haqq%C4%B1nda%20Konvensiya.pdf

tətbiq edilən tədbirlər əsasən psixoloji-pedaqoji xarakterdə olmalıdır. Cəza müddəti ərzində onlar öyrənməli, araşdırmalı, faydalı xüsusiyyətlər və yerlər ilə tanış olmalıdır. Yetkinlik yaşına çatmayan şəxslərə tətbiq edilən cəzalar ilə yanaşı onlarla psixoloji iş həyata keçirilə və hətta qeyd edilən tədbir azadlıqdan məhrum etmə cəzasını əvəz edə bilər. Nəticədə onların CÇM-də uzun müddət qalmasının qarşısı alına və islah olunması təmin edilə bilər.

Yetkinlik yaşına çatmayan şəxslər barədə tətbiq edilən alternativ tədbirlərdən biri tərbiyəvi xarakterli məcburi tədbirlər hesab edilir. AR CM 88-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətdikdə, tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etməklə onun islah olunması mümkün hesab edilərsə, həmin şəxs cinayət məsuliyyətindən azad edilə bilər. Onlara qarşı tərbiyəvi xarakterli tədbirlər kimi xəbərdarlıq, valideynlərin və ya onları əvəz edən şəxslərin və yaxud müvafiq dövlət orqanının nəzarətinə vermək, vurulmuş ziyanın aradan qaldırılması vəzifəsini həvalə etmək, yetkinlik yaşına çatmayanın asudə vaxtını məhdudlaşdırmaq və onun davranışı ilə bağlı xüsusi tələblər müəyyən etmək kimi işlər həyata keçirilir.

**III** Cinayətin xarakterindən asılı olaraq yetkinlik yaşına çatmayan şəxs barəsində azadlıqdan məhrum etmə ilə əlaqədar tədbirlər görülür. Azadlıqdan məhrum etmə cəzası tətbiq edilmiş yetkinlik yaşına çatmayan şəxsin bütün fəaliyyətini müəyyən edilmiş rejimə uyğun etməsi, dərsin, qidalanmanın, istirahətin və s. dəqiq vaxtının müəyyən edilməsi müəyyən

qədər onun müsbət işlərə adət etməsinə kömək edə bilər. Buna baxmayaraq fikrimizcə, CÇM-in təklikdə bu kimi faydalı təsirləri azdır. Xüsusilə yetkinlik yaşına çatmayan şəxsin CÇM-ə daxil olması onda müəyyən qədər təkəbbürlük hissi yarada, təsəvvüründə özünü cinayətkar qruplaşmaya qata bilər. Bu səbəbdən onların mümkün qədər CÇM-dən uzaq tutulması lazımdır. Yəni, cinayət törətdiyi üçün onun *saxlandığı yer həm adına, həm xüsusiyyətlərinə görə CÇM təəssüratını yaratmaya, orada mövcud olan işçilərin çox az hissəsi ədliyyə əməkdaşları olmaya bilər*.

Yetkinlik yaşına çatmayan şəxslər üçün nəzərdə tutulmuş tərbiyə müəssisələri cəmiyyətdən təcrit etmə məqsədi daşıması, "cəmiyyətdən uzaqlaşdıran" deyil, "cəmiyyətə qaytaran" müəssisə olması faydalı ola bilər. Həmin məkanlar müəyyən qədər yataqxana təəssüratı yarada, yetkinlik yaşına çatmayan şəxslərin rahatlığı və azadlığı, müəyyən proqram əsasında bilik və bacarıqlara yiyələnməsi təmin edilə bilər. Eyni qaydada BMT-nin "Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsi"nə dair qaydalarının 36-cı bəndi yetkinlik yaşına çatmayan şəxslərin özlərini məhkum kimi hiss etməsinin qarşısını almaq məqsədilə gündəlik geyimlərdən istifadə etməsinə şərait yaradılmasını önəmli hesab edir.

Yetkinlik yaşına çatmayan şəxslərin müəssisədə olarkən təhsil alması, təhsilin ədliyyə nazirliyi deyil, təhsil nazirliyi əməkdaşları tərəfindən həyata keçirilməsi, mütəmadi olaraq təhsillərinə davam etmələri faydalı addımlardan hesab edilir. Bundan əlavə müəssisədə nəinki müəllimlərin, həm də digər

işçilərin əsas çoxluğunun qadınlardan ibarət olması yetkinlik yaşına çatmayan məhbuslar üçün müsbət təsir yarada bilər.

Yetkinlik yaşına çatmayan şəxslərin müəyyən dərs və faydalı fəaliyyətlər ilə məşğul olmasından əlavə onların oynamasına, əylənməsinə də diqqət etmək lazımdır. İnsanın "əyləncəsi" üçün müxtəlif ziyanlı və faydalı üsullar olsa da, yetkinlik yaşına çatmayan şəxs müəssisədə olarkən əylənməsini təmin edəcək ziyansız və ya faydalı əyləncələr ilə məşğul olması onun sağlam böyüməsində və inkişafında mühüm rol oynayır. *Mövcud yaşın tələblərinə cavab verilmədiyi halda istəklər yaş artıqca, uyğun olmayan yaş dövründə özünü göstərə bilər*.

Türkiyədə yetkinlik yaşına çatmayan şəxslərin saxlanıldığı müəssisədə aparılan sorğu nəticəsində onların istəkləri aşkarlanmış və müəssisədə olan qüsurlar öyrənilmişdir. Belə ki, onların şikayətlərinə müəssisədə sıxlığın olması *(ən çox şikayət bu barədə olmuşdur)*, yataqların narahatlığı, otaqların havalandırılmaması, *oyun oynaya bilməməsi* və s. olmuşdur.

Onların verdikləri təkliflərə və istəklərinə isə tək başına qala biləcək yerin olması, yaşıllıq ərazi, idman kompleksi, komputer bilikləri öyrənmək, daha çox və maraqlı kitablar, dərs oxumaq üçün şəxsi masa, təhsillərini davam etdirmək, rəsm çəkmək və müəyyən alətlər ilə işləmək üçün otaqlar, televizor izləmək üçün ayrı otaqların olması *(yatan şəxsləri narahat etməmək üçün)*, heyvanlara sahib olmaq, komputer, oyun salonları, otaqların və sahənin yaxşı işıqlandırılması, isti su, basketbol sahəsi və s. aiddir[96].

---

[96] Nazmiye Tirali, çocuk çezaevi iç mimarisi üzerine bir inceleme, Lizans tezi (2000).

BMT-nin Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair Qaydalarının 37-ci bəndinə əsasən, islah müəssisəsi hər bir yetkinlik yaşına çatmayan şəxsin adi yemək vaxtında lazımi qaydada hazırlanan və təqdim edilən yeməklə qidalanmasını, qidanın keyfiyyət və kəmiyyətinin diyetik və sanitar-gigiyena normalarına uyğun olmasını, dini və mədəni tələblərin mümkün qədər nəzərə alınmasını təmin etməlidir. Həmçinin hər bir yetkinlik yaşına çatmayan şəxs istənilə vaxt təmiz içməli su ilə təmin olunmalıdır[97].

Yetkinlik yaşına çatmayan şəxslərin düzgün və sağlam qidalanması həmin yaşda olarkən bioloji inkişafın önəmli olduğunu nəzərə aldığımız halda mühüm hesab edilməlidir. Həmin şəxslərin düzgün olmayan şəkildə, yetərsiz, nizamsız, qeyri-sağlam qidalanması fiziki inkişaf mərhələsində olarkən problem yarada bilər.

*Yetkinlik yaşına çatmayan şəxslərin ailələri ilə görüşməsi çox mühümdür. Bu zaman təhlükəsizlik tədbirlərini nəzərə almaq şərtilə daha çox açıq görüşlərə icazə verilməsi, mümkün qədər ailələrin görüş üçün təşviq edilməsi faydalı təsir yarada bilər.*

Yetkinlik yaşına çatmayanlar üçün şikayət mexanizmlərinin üstün səviyyədə qurulmasına ehtiyac vardır. Bu mexanizm onların psixoloji vəziyyətinə də müsbət şəkildə təsir edə bilər.

Məlum məsələdir ki, yetkinlik yaşına çatmayanlar yetkin

---

[97] R.T.Səmədov, D.R.Əhmədov, N.Z.Seyidov redaktorluğu və tərcüməçiliyi ilə Yuvenal ədliyyə, (2006).

şəxslərdən ayrılıqda saxlanılır. Daha sonra yetkin şəxs sayıldığı halda onun saxlanma yeri dəyişdirilir. Buna baxmayaraq bu zaman da onların *(gənclərin)* digər yetkin şəxslər ilə qalması təhlükəli ola bilər. Buna baxmayaraq AR CİM 128-ci maddəsinə görə tərbiyə müəssisələrində məhkəmənin qərarına əsasən məhkumlar iyirmi yaşınadək saxlanıla bilərlər. Lakin, standart vəziyyətdə on səkkiz yaşadək saxlanılırlar. Belə olan hallarda on səkkiz yaşı tamam olduğu üçün yetkin şəxslərin yerləşdiyi CÇM-ə keçirilən şəxslərin nəzarət altında saxlanması, yetkin, təcrübəli şəxslərin qrupuna daxil olmasına maneə yaradılması faydalı addımlardandır.

*Həbsxanaşünaslıqda yeni və maraqlı sahələrdən hesab edilən "Cəza çəkmə müəssisəsi memarlığı"nda yetkinlik yaşına çatmayan şəxslərin psixoloji vəziyyətini nəzərə alaraq, onların sosial adaptasiyasının rahatlaşdırmaq məqsədilə bir sıra araşdırmalar aparılmış, onlarda rəngin psixoloji təsirini araşdırmaq üçün bir sıra çalışmalar həyata keçirilmişdir. Belə ki, müəssisələrdə divarlar yaşıl, qırmızı və ya mavi rəngə, pəncərə çərçivələri isə günəşə bənzəmək üçün sarı rəngə boyanmışdır. Nəticədə yaşıl rəng yetkinlik yaşına çatmayan şəxslərdə ev rahatlığı yaratmış, onlar özlərini evdəki kimi hiss etmişdirlər. Qırmızı rəngli otaqlarda isə onlar daha canlı və aktiv olmuşlardır. Mavi rəngli otaqlarda isə onlar daha rahat və tez bir zamanda yuxuya getmişlərdir*[98].

"Cəza çəkmə müəssisəsi memarlığı"nda müəssisələrin modelləri də mühüm önəm kəsb edir. CÇM-in bir sıra tip və

---

[98] Nazmiye Tirali, çocuk çezaevi iç mimarisi üzerine bir inceleme, Lizans tezi (2000).

modelləri vardır:

- **Şəhərcik** - *burada bütün binalar ayrıdır, bir və ya iki mərtəbəlidir, bütün binaları bir-birinə bağlayan yollar, binalar arasında idman meydançaları var;*
- **Qarışıq şəhərcik** - *idarəetmə, təhsil və xidməti binalar bir-birinə bağlıdır, yataqxana müstəqil şəkildə ayrı binada yerləşir, binalar iki və ya üç mərtəbəlidir, onlar yollar ilə bir-birinə bağlıdır və aralarında açıq idman meydançası var;*
- **Hərtərəfli bina sistemi** - *idarəetmə, təhsil, xidməti hissələr bir binada toplanmış və yataqxana ilə əlaqələnir, bütün binalara daxildən keçid yolu var, açıq idman meydançası müəssisədən kənarda nəzərdə tutulub, qoruma divarları müəssisəni əhatə edir, lakin müəssisədə olan şəxslərin açıq havada hərəkəti daha çox məhdudlaşdırıldığı üçün təhlükəsizlik personalının sayı azdır;*
- **Ümumi-geniş bina sistemi** - *çox böyük struktura malikdir və bütün xidməti hissələri eyni bir binada toplanmışdır, çox mərtəbəli binadır və binada lift var, müəssisədə olan şəxslərin açıq havada hərəkəti məhdud olduğu üçün qoruma personalının sayı azdır.*

Bütün bu modellər arasında isə ən çox tövsiyə ediləni şəhərçik tipli müəssisələr hesab edilir. Bu zaman yetkinlik yaşına çatmayan şəxslər daha az təzyiq hiss edər, açıq havada daha çox vaxt keçirə bilər ki, bu da onların cəmiyyətdən təcrit olmasının qarşısını ala bilər[99].

---

99 Nazmiye Tirali, çocuk çezaevi iç mimarisi üzerine bir inceleme, Lizans tezi (2000).

**IV** Müxtəlif səbəblərlə cinayət törətmiş azyaşlılıar cəmiyyətdən təcrit edilməməli, yenidən cəmiyyətə adaptasiyası təmin edilməlidir. *Yaşadıqları mənfi təcrübəni bir damğa kimi daşımaq və etdiyi yanlışın altında əzilərək cəmiyyətdən qaçmaq yerinə, etdiyi yanlışı bir təcrübə kimi başa düşərək, müsbət məqsədlər üçün hərəkətə keçməsinə kömək edilməlidir.*

Yetkinlik yaşına çatmayan şəxs cəmiyyət tərəfindən qovulduğunu, insanlar tərəfindən sevilmədiyini başa düşərsə və cəmiyyət içində özünün inkişaf etməsi üçün yolların bağlı olduğunu düşünərsə həyatdan heç bir gözləntisi qalmaz. Bu zaman belə şəxslər "müsbət insan olmaq" yolunda çalışmağa inamsız olar və önəm verməz, nəticədə mənfi məqsədə xidmət edən insanların əsarəti altına düşər[100]. Bu səbəbdən xüsusən yetkinlik yaşına çatmayan mənafelərinə, inkişafına, sosial adaptasiyasına xidmət edən məsələlərə sözsüz və mütləq diqqət etmək lazımdır.

Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair Qaydaların 79-cu bəndinə əsasən, azad edildikdən sonra cəmiyyətə, ailə həyatına, təhsilə qayıdış və işədüzəlmə zamanı yardım göstərilməsi bütün yetkinlik yaşına çatmayanlara şamil olunmalıdır.

Pekin Qaydalarının 29.1-ci maddəsinə göstərilir ki, yetkinlik yaşına çatmayanların cəmiyyət həyatına reinteqrasiyanına yardım edə biləcək yüngülləşdirilmiş rejimli islah müəssisələri, tərbiyə evləri, gündüz hazırlığı mərkəzləri kimi aralıq iş formalarının və onlara oxşar müvafiq formaların istifadəsinə

---

[100] Cenver Kozanoğlu, İslahevindeki hükümlü çocuklarda kişisel ve sosyal uyum, yüksek lizans tezi (2001)..

səy göstərilməlidir. Bu qaydada cəmiyyətə qayıdan gənc hüquq pozucularının müxtəlif ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan çoxsaylı idarə və xidmətlərin yaradılması və cəmiyyət həyatına uğurlu reinteqrasiya olunmaları üçün mühüm tədbir kimi, onlara rəhbərliyin və struktur dəstəyin təmin edilməsinin zəruriliyi qeyd olunur[101].

Müəssisədən azad olmasına bir neçə ay qalmış şəxsin xarakterini, cari vəziyyətini nəzərə alaraq onun cəmiyyətə adaptasiya olması üçün hazırlıq tədbirləri görmək, danışıqlar aparmaq faydalıdır. Doğrudur yetkinlik yaşına çatmayan şəxslər adətən uzun müddət müəssisələrdə qalmasa belə azad olunduqdan sonra güvənəcək bir qurumun və ya şəxslərin olmasını arzulaya bilər.

Yetkinlik yaşına çatmayan şəxslərin vaxtlarını səmərəli istifadə etmədiyini nəzərə alaraq, CÇM-dən çıxmış azyaşlıların təhsil müəssisələrinə yerləşdirilməsini təmin etmək zəruri addımlardandır. Öz ailəsinin yanına qayıtsa belə, ailəsinin xüsusiyyətləri, yaşam tərzi nəzərə alına, zərurət olduğu halda üzərində nəzarət həyata keçirilə, vəzifələr qoyulması faydalı ola bilər.

Yetkinlik yaşına çatmayan şəxslərin əmək fəaliyyəti ilə məşğul olması yaşı nəzərə aldığımız halda daha az əhəmiyyətli hesab edilə bilər. Adətən onların əmək fəaliyyəti ilə məşğul olması ailəsinə kömək məqsədi daşıyır. Buna baxmayaraq mövcud yaşın tələbatını nəzərə aldığımız halda digər həmya-

---

[101] R.T.Səmədov, D.R.Əhmədov, N.Z.Seyidov redaktorluğu və tərcüməçiliyi ilə Yuvenal ədliyyə, (2006).

şıdları kimi təhsil alması, təlimlərdə iştirakı, öyrənməsi, müəyyən bacarıqlar əldə etməsi daha uyğun görünür.

Ümumiyyətlə məhkumların cəmiyyətə inteqrasiyası məsələsini araşdıran zaman rəhbər tutulmalı olan əsas prinsiplərdən biri onların yenidən əvvəl cinayət törətməsinə kömək edən amillərin olduğu şəraitə geri qayıtmamasıdır. Azyaşlıların düzgün tərbiyə nəticəsində tez bir zamanda dəyişə biləcəyini nəzərə alaraq, xüsusən onların gedəcəyi mühitə xüsusi diqqət edilməlidir. Əgər yaşadığı mühit təhlükəlidirsə, ailəsi ilə birlikdə fərqli mühitə köçürülməsi, müəyyən müddət ərzində onun şəxsiyyətinin müsbət yöndə inkişafına təkan verə bilər. Bunu nəzərə alaraq statistik məlumatlar əsasında hansı bölgədə yetkinlik yaşına çatmayan tərəfindən törədilən cinayətlərin sayı araşdırıla, onların yaşayış yerlərini dəyişməsinə kömək edilə bilər.

*Fikrimizcə, xüsusən yetkinlik yaşına çatmayan şəxslər üçün sosial adaptasiya mərkəzlərinin qurulmasının zəruri hesab edilə bilər. Həmin müəssisələrin "gənclər evi" və digər formada adlandırılması uyğun görünür. Yetkinlik yaşına çatmayan şəxslər üçün yaradılmış bu tip müəssisələr özündə CÇM təəssüratı yaratmamalıdır. Sadəcə olaraq şəxs nəzarət altında müəyyən müddət həyatını sürəcək ki, nəticədə onun mənfi xüsusiyyətləri əldə etmə və ya mənfi qruplaşmalara daxil olma istəyi zəifləyə bilər. Orada xüsusi olaraq dərslərin keçirilməsi, hüquqları və hüquqların qorunması barədə təlimlərin keçirilməsi, psixoloji vəziyyətinin müsbət yöndə inkişafına təkan verilməsi, uğurlu həyata hazırlanması və s. lazımdır.*

*Bundan əlavə İngiltərədə cəza çəkməkdən azad olunduqdan sonra yetkinlik yaşına çatmayan şəxs ilə fərdi şəkildə maraqlanan mütəxəssis təyin edilir. İki il ərzində mütəxəssis fərdi şəkildə həmin şəxs ilə məşğul olur, dəstəkləyir, problemlərin həll edilməsində kömək edir.* Eyni qaydada "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" qanunda bır sıra yetkinlik yaşına çatmayan şəxslər barəsində fərdi tədbirlərin aparılmasının mümkünlüyü göstərilir ki, bu da müsbət addım hesab edilə bilər.

# NƏTİCƏ

Məhkumların sosial adaptasiyası məsələsi cinayətkarlıqla mübarizə siyasətinin əsas komponenti hesab edilməlidir. Bu mənada cinayətkarlıqla mübarizə prosesini şərti olaraq müxtəlif mərhələlərə bölmək olar.

Birinci formada cinayət törətmiş şəxsin aşkar edilməsi, tutulması, cinayət məsuliyyətinə cəlb edilməsi təmin edilir.

Bundan daha üstün fəaliyyət olan ikinci mərhələdə cinayətlərin törədilmədən qarşısının alınması gəlir *(bu daha çox əməliyyat informasiyası əsasında hazırlana cinayətlərin aradan qaldırılması ilə bağlıdır)*.

Bundan daha ali olan sonuncu mərhələ isə özündə gələcəkdə formalaşa biləcək cinayətkarların qarşısını alınmağı hədəfləyir. *Gələcəkdə formalaşa biləcək cinayətkarların "yolunu kəsmək" üçün bir insanı cinayətkar edə biləcək bütün amilləri aradan qaldırmaq,* bunun üçün isə təhsil, ailə münasibətləri, insanların düşüncə və mənəvi baxışlarını və s. inkişaf etdirmək lazımdır.

Məhkumların sosial adaptasiyası isə ən sonuncu olan ali fəaliyyətə xidmət edir. Belə ki, bu zaman məhkumlara "ikinci şans" verilir, onlara münasibətdə cinayət törətməsinə kömək edən səbəb və şərait aradan qaldırıla və nəticədə təkrar və ya residiv cinayətlərin törədilməsində azalma müşahidə oluna bilər.

Məhkumların sosial adaptasiyasının mühüm mövzulardan hesab edilməsinə baxmayaraq bu sahədə araşdırmaların sayının azlığına şahid oluruq. Buna səbəb bəlkə də, məhkumların

cəmiyyətə inteqrasiyası üçün tətbiq ediləcək tədbirlərin sayının azlığı ilə əlaqədardır. Sayının az olmasına baxmayaraq həmin tədbirlər çox şaxəli və mühüm tədbirlərdir. Doğrudur ki, həmin tədbirlərin bir çoxu kriminologiyanın araşdırma dairəsinə daxil olaraq cinayətlərin törədilməsinə kömək edən səbəb və şəraitin aradan qaldırılmasına yönələn ümumsosial tədbirlərdir. Buna baxmayaraq həmin tədbirlərə məhkumların sosial adaptasiyası aspektindən yanaşılmasına zərurət vardır.

Beləliklə, biz burada xarici dövlətlərin, həmçinin Azərbaycanın məhkumların sosial adaptasiyası sahəsində praktiki və nəzəri təcrübələrini araşdırdıq. ***Bu araşdırma sayəsində isə aşağıdakı nəticələrə gəlmək olar:***

*1) Cəza çəkən şəxslərin cəmiyyətə inteqrasiyası tədricən həyata keçirilməlidir. Bu səbəbdən cəza təyin edilməzdən, şəxs cəzanı çəkib azadlığa çıxmazdan və azadlığa çıxdıqdan sonra sistemli şəkildə tədbirlər görülə bilər. Cəza təyini və şəxsin azadlığa çıxmasından əvvəl tətbiq edilən tədbirlərin keyfiyyətinə cəzanın növü, cəzanın icrası qaydaları və hətta ibtidai istintaq mərhələsi təsir edir.*

*2) Məhkumların cəmiyyətə uğurlu inteqrasiyası məhkumların özlərindən asılıdır. Bu səbəbdən onlar həvəsləndirilməli, özlərini inkişaf etdirməyə təşviq edilməlidirlər.*

*3) Təkrar cinayətlər barəsində hər il hesabatın və əvvəl cinayət törətmiş şəxslərin yenidən cinayət törətməsi ilə əlaqədar statistik məlumatlar tərtib edilməsinə ehtiyac vardır. Nəticədə, qeyd edilən tərtibat sosial adaptasiya ilə bağlı görülən proqram və tədbirlərin faydalı olub-olmaması, inkişaf dinamikası barədə məlumat əldə etməyə yardımçı ola bilər.*

*Təkrar cinayətlər barəsində tərtib edilən statistik məlumatlar müxtəlif bölgülər (yaş, cins, cəza növü, cəza müddəti, cinayətin növü, cəzadan vaxtından əvvəl azad edilmə, neçə ildən sonra yenidən cinayət törərməsi və s.) üzrə həyata keçirilə bilər.*

*4) Azadlığa çıxmış şəxslərin cəmiyyətə inteqrasiya olumasının dərəcə və keyfiyyətini göstərən cədvəl tərtib edilə bilər. Belə ki, təqdim olunan proqram və xidmətlərdən istifadə edilmə dərəcəsinə uyğun olaraq "sosial adaptasiya olmayan", "orta sosial adaptasiya olan" və "yüksək sosial adaptasiya olan" (bu bölgü artırıla bilər) məhkumkarı müəyyən etmək olar. Bu məlumat sayəsində yenidən cinayətin törədilməsinə kömək edən səbəb və şəraiti aydınlaşdırmaq, real qüsurları müəyyənləşdirmək mümkündür.*

*5) Reabilitasiya xarakterli tədbirlər, tibbə çıxış, psixoloji yardım alınması, idman məşqləri və s. məhkumların könüllü istəkləri ilə həyata keçirilməli olsa da, məhkumlar bütün bu tədbirlərin tətbiq edilməsinə yüksək dərəcədə təşviq edilməsi, həvəsləndirilməsi faydalı ola bilər.*

*6) CÇM-də olan şəxslərin əksər hissəsində psixoloji problemlərin olduğunu nəzərə alaraq onlara diqqət edilməsi, müəssisələrdə psixoloq, psixatr həkim qruplarının saylarının artırılması, müəssisələrdə psixoloji-psixatrik bölmələr yaradılması faydalı addımlardan hesab edilə bilər. Psixoloji xidmət yalnız CÇM-də olan şəxslərə münasibətdə deyil, həm də cəza çəkməkdən azad olunmuş şəxslərə tətbiq edilməlidir.*

***7) CÇM-də cəza çəkən şəxslərin kəskin olduğu halda xarici görünüşündə olan qüsurların aradan qaldırılması üçün tədbirlər görülməsi, bədənə "döymə"lərin ("tatu")***

***vurulmasına qadağa qoyulması və ya silinməsinə təşviq edilməsi faydalı ola bilər.***

*8) QİÇS, Vərəm, Hepatit, İVV (insanın immunodefisit virusu) kimi xəstəliklərdən əziyyət çəkən, alkoqol və narkotik aludəçisi məhkumların sağalması üçün tədbirlərin görülməsi həmin şəxslər barəsində baş verə biləcək əks (mənfi) nəticələr olmasının qarşısını ala bilər.*

*9) İbtidai istintaq mərhələsində cinayət törətmiş şəxsin cinayət törətməsinə kömək edən səbəb və şəraitin öyrənilməsinə xüsusi diqqət etmək lazımdır. Bununla bağlı olaraq xüsusi sistem qurulması və suallar verilməsi, səbəblərin aydınlaşdırılması zəruridir. Əks halda cinayətkarlıqla mübarizədə qüsurlar yarana, yeni cinayətlər törədilə bilər.*

***10) HMO əməkdaşlarına kriminoloji biliklər öyrədilməli, cinayət törədilməsinə kömək edən səbəb və şəraitin öyrənilməsinə yardım edəcək təlimlər keçirilməli, hüquq psixologiyası, şəxsiyyət psixologiyası sahələrilə tanış olmalı və digər əlaqəli elm və biliklər verilməlidir. Bütün bunlar məcburi xarakter daşımalıdır.***

***11) Ümumiyyətlə cəza, cəzanın tətbiqi və icrası, cinayət törətmiş şəxsin sosial adaptasiyası bir-biri ilə sıx bağlı olan sistem kimi nəzərdən keçirilməlidir. Cəza təyin və icra edilərkən məhkumun sosial adaptasiyası məsələsi nəzərə alına, cəmiyyətə inteqrasiyası üçün uyğun olub-olmadığı sualına cavab verilə bilər. Bir "zəncirin halqaları" olan bu üç sahənin hər biri özünəməxsus məqsəd seçərsə "zəncirin halqalarında" qırılma baş verə bilər. Bu səbəbdən HMO***

***əməkdaşları və məhkəmə üçün məhkumların sosial adaptasiya məsələsinin diqqət mərkəzində olması təqdirə layiqdir.***

*12) Müxtəlif cinayətlərin sanksiyasında nəzərdə tutulmuş cəza müddətinin tərtib edilməsinin məntiqi əsaslarının araşdırılması, cəzanın həddi və müddətinin elmi əsaslara uyğun olaraq müəyyən edilməsi zəruridir.*

*13) Hansı növ cəzaların, hansı şəxslərə uyğun olduğunun araşdırılması cəza təyininin effektiv olması üçün tərifə layiq addım hesab edilə bilər.*

*14) Müxtəlif cinayət əməllərinə görə cəza tətbiqi faydasız olduğu halda, həmin əməllərin dekriminallaşdırılması və ya barəsində cəza nəzərdə tutulmalı olan hərəkətlərin cinayət hesab edilib kriminallaşdırılmasına diqqət edilməsi, bu barədə elmi araşdırmalar aparılması, diqqət edilməsi zəruridir.*

*15) Azadlıqdan məhrum etmə cəzası cinayət törətmiş şəxsin cəmiyyətə inteqrasiyasına mənfi təsir edir. Bu səbəbdən son yol olaraq bu cəzaya müraciət edilə, alternativ cəzaların tətbiqinə daha çox yer ayrıla bilər.*

*16) Bir çox cinayətlərin sanksiya hissəsində azadlıqdan məhrum etmə cəzasından əlavə digər cəzalar da nəzərdə tutulmalıdır.*

***17) Cəzanı çəkməkdən azad olunmuş məhkumun yenidən cinayət törətməsinin, zərərçəkmiş və təqsirləndirilən şəxs arasında baş verə biləcək münaqişənin qarşısını almaq məqsədilə onların barışdırılması lazımdır. Bunun üçün həmin şəxslərin görüşdürülməsi, danışıq yolu ilə problemin aradan qaldırılması faydalı ola bilər.***

*18) Şərti məhkum etmə tədbirlərinin böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə münasibətdə tətbiqinə daha çox yer verilməsi faydalı ola bilər.*

*19) Şərti məhkum etmənin mahiyyətində inkişaf, ümid və bu kimi amillər vardır. Sadəcə olaraq şərti məhkum etmə tədbirləri tətbiq edilmiş məhkum hər şeyin öz əlində olduğunu dərk etməli, bunun üçün psixoloqlar onunla psixoloji söhbətlər aparmalıdır. Əgər məhkum vəzifələri pozarsa daha ağır məhdudiyyətlərlə qarşılaşacağını, vəzifələrə əməl edərsə azadıqla "mükafatlanacağını" anlamalıdır.*

***20) Probasiya nəzarəti özlüyündə müsbət tədbir olsa da onunla yanaşı şəxsin inkişafına, müsbət xüsusiyyətlər əldə etməsinə yönələn əlavə tədbirlər görülə bilər. Bu tədbirlərə CÇM-də məhkumun islah edilməsi vasitələri hesab edilən qanunla nəzərdə tutulmuş tədbirlər də aid edilə, bundan əlavə sosial adaptasiya tədbirləri probasiya nəzarəti zamanı da tətbiq edilə bilər. Cinayət törətmiş şəxsin təhsili, məşğulluğu, ailə münasibətlərinin yaxşılaşdırılması və digər islah və inkişaf üçün əsas tədbirlərin tətbiqi şəxsin həm sosial adaptasiyasına, həm də probasiya nəzarətinin uğurlu olmasına səbəb ola bilər. Bunun üçün qanunda dəyişiklik və ya əlavənin edilməsinə zərurət vardır. Bundan əlavə həmin tədbirlərin tətbiqi məqsədilə müəyyən müəssiələrin yaradılması və ya məhkumun sosial adaptasiyası üçün tətbiq edilməli olan tədbirləri həyata keçirən qurumların daxilində probasiya nəzarəti edilən şəxslərin inkişafı üçün tədbirlərin görülməsi mümkündür.***

*21) Yetkin şəxslərə münasibətdə tətbiq edilən probasiya*

*nəzarəti yetkinlik yaşına çatmayan şəxslərə və qadınlara münasibətdə tətbiq edilən probasiya nəzarətindən fərqlənməlidir.*

***22) Qəsdən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin də cəzasını çəkmə yerinin məntəqə tipli CÇM müəyyən edilməsi, daha çox məhkumun sosial adaptasiyasına kömək edə, dövlət xərclərinin azalmasına imkan yarada, CÇM-in yüklənməsinin qarşısını ala bilər. Bununla bağlı Rusiya CİM-də bu tip norma nəzərdə tutulmuşdur. Bu səbəbdən AR CM və AR CİM-də bu tip dəyişikliyin edilməsi məqbul hesab edilə bilər.***

*23) Məhkumun ailəsi ilə görüşməsi məqsədilə CÇM-dən kənara qısa səfər etməsinə icazə verilməsi faydalı ola bilər.*

*24) Məhkumların ailələrini və ya ailələrin məhkumları ziyarət etməsi üçün tərəflərin həvəsləndirilməsi təmin edilməlidir. Bunun üçün dövlət və ya qeyri-hökümət təşkilatları, qurumlar tədbirlər görə bilərlər.*

*25) Məhkumların müəyyən qədər internetə çıxışının təmin edilməsi faydalı ola bilər. İnternetə çıxış həvəsləndirmə tədbiri kimi və ya elmi-fəaliyyət zamanı məhkumların araşdırma aparması vasitəsi kimi çıxış edə bilər.*

*26) Məhkumlar dəstəyə ehtiyacı olduğu halda müvafiq qurum və ya "qaynar xətt"lə əlaqə saxlamağa həvəsləndirilməli, həyatında baş verə biləcək problemlər barəsində qurumla əlaqə saxlamalı, məsləhət və kömək almağa təşviq edilməlidir.*

*27) Peşə təhsili üzrə dövlət agentliyinin internet saytında*

*120 peşə təhsili ixtisası göstərilmişdir. Həmin ixtisaslardan bir çox müasir peşə tələbatlarına cavab verməklə, hər kəsin bacarıq və istəklərini əhatə etmək qabiliyyətinə malikdir. Bunları nəzərə alaraq CÇM-də peşə təhsilinin eyni qaydada müasir peşə tələbatlarına cavab verməsi faydalıdır.*

*28) Böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş şəxslərin cinayət törətməzdən əvvəl aldığı təhsili davam etdirməsinə şərait yaradıla bilər. Bunu distant və ya əyani formada etmək mümkündür. Bundan əlavə onun təhsilini davam etdirməsinə icazə verilməsi məsələsinə baxılarkən, şəxsin xarakteri, təhsilə marağı, təhsilini davam etdirmək istəyi nəzərə alınmalıdır.*

***29) Məhkumlar ilə mütəmadi olaraq dini-mənəvi söhbətlərin aparılması məhkumların daxili aləminin müsbət yöndə inkişafına, etdiyi əməldən tam peşman olub həmin əməli gələcəkdə etməkdən çəkinməsinə və s. səbəb ola bilər. Bunları nəzərə alaraq din xadimlərinin dəvəti yalnız məhkumların xahişi ilə deyil, həm də qurumların təşəbbüsü ilə aparıla bilər. Digər hallarda elektron şəkildə məhkumların dini söhbətləri dinləməsinə (məsələn, hər cümə günü) şərait yaradılması faydalı ola bilər.***

***30) Məhkumları CÇM-dən kənarda cəmiyyətə, insanlara faydalı olacaq işlər ilə məşğul olmasına şərait yaratmaq onların islahına təsir edə bilər. Fikrimizcə, yaşlılara, köməyə ehtiyacı olan şəxslərə və s. kömək, yaxşılıq edilməsinin məhkumların mənəvi "dünya"sına təsir etmə ehtimalı çoxdur. Bu səbəbdən məhkumları bu tip işlərə həvəsləndirmək, sosial yardımla əlaqədar işlərə cəlb etmək, onlarda***

***vətənpərvərlik hisslərini oyadaraq insanlara yardım etməsinə şərait yaratmaq onların sosial adaptasiyasına və islah edilməsinə kömək ola bilər.***

*31) Məhkumlar ilə əyani görüşməkdə çətinlik çəkən və buna maddi imkanı çatmayan ailə üzvlərinin görüşməsini təmin etmək məqsədilə bir sıra yardımların edilməsi faydalı ola bilər.*

***32) Məhkum barəsində azadlığa çıxmazdan əvvəl tətbiq edilən tədbirlər bir sistem altında ciddi şəkildə onun azadlığa çıxmasına altı ay və ya iki il qalmış başlamalıdır.***

*33) CÇM əməkdaşları (yalnız sosial işçilər və psixoloqlar deyil), probasiya xidmətinin əməkdaşları üçün məhkumların sosial adaptasiyasına təsir edəcək işlər ilə əlaqədar təlimlərin hazırlanması zəruridir.*

*34) Cəzanın məqsədlərindən biri də qeyri-əxlaqi, qeyri-leqal, düzgün olmayan yolla əldə edilmiş faydanın itirilməsi, məhrumiyyətin yaradılmasıdır.*

*35) Məhkumluq barədə qeyd iki formada özünü göstərir. Bunlarda biri rəsmi dövlət orqanları tərəfindən aparılan qeydiyyat işi, digəri isə cəmiyyətdə cinayət törətmiş insanla bağlı əldə edilən məlumat və formalaşan fikir, "stiqma" hesab edilə bilər.*

***36) Məhkumluq "etiketi" insanın törətdiyi cinayətin nəticəsi olaraq özünü göstərir. Lakin, bu zaman qəbul edilən "etiket" ilə cəzanın məqsədi bir-birinə zidd ola bilir. Cəmiyyətdə məhkumluq "etiketi" şəxsin cinayət törətdiyini, təhlükəli olduğunu, ona bir çox halda güvənməyin mümkün***

***olmaması kimi qəbul edilir. Cəzanın məqsədi isə cinayət törədən insanın xarakterini, davranışlarını mənfidən müsbətə doğru dəyişməkdir. Göründüyü kimi cəza davranışların, xarakterin müsbətə doğru dəyişməsinə xidmət etdiyi halda, məhkumluq "etiketi" ətalətdə özünü göstərir, özündə dəyişməzliyi sərgiləyir, düşüncədə cinayət törədən insan barəsində mənfi sabit mövqeyinin olmasında ehtiva olunur.***

*37) Məhkumluq barədə qeydin, məhkumluğun ödənilməsi institutunun məqsədlərindən biri cinayət törətmiş insanın xarakterinin, cinayətə olan münasibətinin və s. müəyyən edilməsi ilə bağlıdır. Belə ki, bir dəfə cinayət törətmiş insan yenidən cinayət törədərsə, bu hal onun cinayətə olan münasibətinin kəskin olduğunu göstərə bilər. Lakin, hər bir təkrar cinayət onu törədən insanın cinayətə müsbət münasibətinin olmasından deyil, cinayətin törədilməsinə kömək edən amillərin aradan qaldırılmamasından da xəbər verə bilər.*

*38) Məhkumluq barədə qeydin ikinci məqsədi cinayət törətmiş insanın öyrəşdiyi məhdudlaşma şəraitindən ani olaraq məhdudlaşmanın olmadığı şəraitə daxil olmasının qarşısını almaqdır. Lakin, bu məsələ də hər zaman istənilən nəticəni vermir. Buna səbəb zamanla məhdudlaşmanın azalmasına xidmət edən sosial adaptasiya tədbirlərinin yüksək səviyyədə həyata keçirilməməsindən (sosial adaptasiya tədbirlərinin effektiv həyata keçirilməsi məhkumluq qeydinin qeyd edilən məqsədinə alternativ ola bilər), həm də məhdudlaşdırmanın həmin insanın yenidən cinayət törətməsinə şərait yaratmaq ehtimalı olmasından irəli gələ bilər. Çünki, insanın komfort zonası daraldıqda, həmçinin onun üçün hər hansı*

*müsbət təsirə malik çıxış, ümid yolu olmadıqda önəmli davranış "partlayış"ları özünü göstərə bilər.*

*39) Məhkumluq bir institut kimi ilk öncə, dəfələrlə cinayət törətmiş, cinayətkar xarakteri formalaşmış, bir sıra hallarda xüsusilə ağır cinayət törətmiş insanlar üçün mövcud olarsa bu daha əlverişli, effektiv ola bilər. Burada əsas məsələ ondan ibarətdir ki, islah olunma potensialı, meyli yüksək olan insanlara münasibətdə bu institutun tətbiqi bir çox halda faydalı olmaya bilər.*

***40) Böyük ictimai təhlükə törətməyən və bəzi az ağır cinayətlər törətmiş şəxslərin məhkumluğunun, əvvəllər məhkumluğunun olması barədə qeydlərin silinməsi həmin şəxslərin məşğulluğu üçün faydalı ola bilər.***

*41) Şəxsin üzərində məhkumluq "etiketi"nin qalması onun cəzasını çəkib başa çatdırmasından sonra belə uzun müddət normal həyata geri qayıtmasına maneə yaradan böyük təhlükə ola bilər.*

*42) Məhkumluğu olan şəxslərin işə götürülməsi zamanı risklərin aradan qaldırılması və qabaqlanması məqsədilə son yol olaraq müəyyən formada şəxsin üzərində nəzarətin yaradılması faydalı ola bilər.*

*43) Çəza çəkməkdən azad olunmuş şəxslərin vaxtlarını səmərəli keçirməsini təmin etmək və gələcəkdə məşğulluq fəaliyyətinə kömək olmaq məqsədilə təlimlərin keçirilməsinə, müəyyən sertifikatların verilməsi faydalıdır.*

*44) Uzun müddət CÇM-də qalan, azadlıqdan məhrum etmə cəzasına məhkum olunan şəxslər bəzən müəyyən əmək*

*fəaliyyəti ilə məşğul olmağa qarşı həvəssiz davranır, özündə güc tapa bilmirlər. Bu səbəbdən həmin şəxslər ilə psixoloji söhbətlərin aparılması, təşviq edilməsi zəruridir.*

***45) Əvvəllər məhkumluğun olmasına görə işəgötürənlərin digər şəxslər ilə aralarında ayrı-seçkilik etməsinə görə qanunlarda müəyyən qadağanın qoyulmasına ehtiyac vardır. Doğrudur bu zaman törədilmiş cinayətin kateqoriyalarına görə fərq qoyulması və s. ayrı-seçkilik kimi qəbul edilməməlidir.***

*46) Məlum məsələdir ki, işəgötürənlərin azad olunmuş şəxslərə münasibətdə "etibar etməmə" halları yaşanır. Bununla bağlı olaraq azadlığa çıxmış şəxs barəsində "islah olunma vəsiqəsi"nin verilməsi və ya azadlığa çıxmasına müəyyən müddət qalmış (məsələn 3 ay) CÇM-in rəhbərlik və əməkdaşlarının yardımı, iştirakı ilə işlə təmin edilməsi məhkuma qarşı etibarın artmasına səbəb ola bilər.*

***47) Türkiyədə mövcud qanuna uyğun olaraq işəgötürənlərin işçilərinin sayına uyğun olaraq məhkumluğu olan şəxsləri işə götürməsi barədə normanın nəzərdə tutulması, işəgötürənlərin həvəsləndirilməsi və vergi güzəştlərinin edilməsi faydalı ola bilər.***

*48) Həyatında uğur qazanmış məhkumluğu olan şəxslərin digər məhkumlar ilə söhbət aparması, öz təcrübələrini bölüşməsi, məhkumlarda gələcək həyatlarına inam yarada bilər.*

***49) CÇM-də qadınlara uşaqlara qulluq etmək, qayğısına qalmaq ilə bağlı təlimlərin keçirilməsi sağlam övladın***

***böyüməsinə şərait yarada bilər.***

*50) Cinayət törətmiş (böyük ictimai təhlükə törətməyən və ya az ağır) şəxsin işdən azad edilməməsinə maneə yaradılmalıdır. Doğrudur ki, əmək məcəlləsinə görə işəgötürən işçini yalnız bilavasitə iş vaxtında və iş yerində inzibati xəta və ya cinayət tərkibi olan əməl törətdiyi üçün işdən azad edə bilər. Buradan belə anlaşılır ki, şəxsin iş yerindən və vaxtında kənarda cinayi hərəkətlər etməsi işdən azad edilməsinə səbəb olmamalıdır.*

***51) KİV və digər yollar ilə cəmiyyətdə məhkumlara olan münasibətin dəyişməsi barədə təbliğat işləri aparıla, əvvəl məhkumluğu olan şəxslərə qarşı ayrı-seçkilik və qınanma hallarının qarşısı alına bilər. Hər kəs cinayətdən sığortalanmadığını dərk etməlidir.***

***52) Mənzil təmini ilə bağlı problemlərin aradan qaldırılması məqsədilə məhkumların müəyyən məşğulluq fəaliyyəti ilə məşğul olana qədər dövlət hesabına ev ilə təmin edilməsi, gələcəkdə məşğulluq fəaliyyəti ilə məşğul olduğu halda, onun qazancına nəzərən müəyyən yardımların edilməsi cinayətkarlıqla mübarizədə, təkrar cinayətlərin azaldılmasında faydalı ola bilər. Bundan əlavə mümkün olduğu halda kommunal xərclərdə güzəşt edilə bilər. Əlbəttə ki, bütün bunlar sui-istifadə hallarına şərait yaratmamalıdır.***

***53) Cinayət törətmiş şəxs barəsində şəxsi məlumatların KİV-də verilməsi həmin şəxslərin cəmiyyətə inteqrasiyasına mənfi təsir edə, cəmiyyətdən təcrit edilməsinə, depressiya və digər psixoloji problemlər ilə rastlaşmasına səbəb ola bilər.***

***54) Cinayət törətmiş şəxs CÇM-də olarkən onun ailəsinə, az yaşlı övladlarına və digər kateqoriya şəxslərə orta əmək haqqından az olmayaraq müavinətin verilməsi məhkumların sosial adaptasiyasına, xüsusən də yenidən cinayət törətməsinin qarşısının alınmasına kömək edə bilər.***

***55) Cinayət törətmiş şəxsin ailəsi ilə zərərçəkmişin ailəsi arasında hər hansı baş verə biləcək münaqişələrin aradan qaldırılması məqsədilə zərərçəkmiş şəxsin ailəsinə xəbərdarlığın edilməsinə və mümkün olduğu qədər ailələr arasında olan mübahisənin barışıq və danışıqlar yolu ilə aradan qaldırılmasına ehtiyac vardır. Əks halda zərərçəkmiş şəxsin ailəsi emosional təsirlər altında cinayət törətmiş şəxsin cəmiyyət içində mənfi şəkildə qəbul edilməsinə şərait yaradacaq hərəkətlər edə bilər ki, bu da öz növbəsində məhkumun cəmiyyətə inteqrasiya prosesinə mənfi təsir göstərə bilər.***

*56) CÇM-də olan uşaq evlərində uşaqların üç yaşına qədər qalması mümkündür. Bu zaman məhkum qadınlar asudə vaxtlarında uşaqlarla məhdudiyyətsiz görüşə, birgə yaşayışına icazə verilə bilər. Əgər qadının şəxsiyyətində müsbət dəyişikliklər olarsa, uşağın üç yaşı olduqda, anasının azadlığa çıxmasına, cəza çəkməkdən vaxtından əvvəl azad edilməsinə şərait yaradılması faydalı hesab edilə bilər.*

# ƏDƏBİYYAT


1. Uşaq hüquqları haqqında Konvensiya (1989), https://migration.gov.az/content/pdf/5acb09f3100d0_U%C5%9Faq%20h%C3%BCquqlar%C4%B1%20haqq%C4%B1nda%20Konvensiya.pdf
2. Hapis Dışı Tedbirlere İlişkin Birleşmiş Milletler Minimum Standart Kuralları (Tokya Kuralları), (1991).
3. Mahpuslara Muameleye Dair Birleşmiş Milletler Asgari Standart Kuralları, https://tihv.org.tr/wp-content/uploads/2020/04/nelson-mandela-kurallari-mahpuslara-muame leye-dair-birlesmis-milletler-asgari-standart-kurallari-turkce .pdf
4. Türk Devlet Memurları Kanunu (1965), https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=657&MevzuatTur=1&Mevzu atTertip=5
5. Avropa Penitensiar Qaydaları, http://www.justice.gov.az/categories/103
6. Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi, 8 (2000), https://e-qanun.az/framework/46951
7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 56, https://e-qanun.az/ framework/46947
8. “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikasının Qanunu, 1.0.3 (2007).
9. Bədən tərbiyəsi və idman haqqında Azərbaycan Respublikasının Qanunu, 1.0.1-1.0.2. (2009)
10. Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu, (2009)
11. Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları, https://e-qanun.az/ framework/10994
12. Çingiz Feyruz oğlu Mustafayev, Kriminologiya, (2015)

13. Ağayev İ.B. Azərbaycan Respublikasının cəza-icra hüququ. Ümumi hissə (2007).

14. Ağayev İ.B., Cinayət hüququ: Dərslik, (2015).

15. Aqşin İsabala oğlu Quliyev, "Hüquq sosiologiyası", (2012).

16. Vahidov F.Q. redaktorluğu ilə, Sosiologiya dərslik, (2006).

17. Z.T. Qolenkova, M.M. Akuliç, V.N. Kuznetsov. Ümumi sosiologiya İzzət Rüstəmovun tərcüməsi (2007).

18. Ləman Verdiyeva, Cəzaçəkmə müəssisələrində yenidəntərbiyə (İSLAH) işinin sosial və psixoloji əsasları, (2017).

19. Elman Yusifov, Müşfiq Ramazanov, Konfliktologiya dərslik, (2018).

20. İşgəncənin və qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi standartları, yenilənmiş nəşr (2012).

21. Uşaqların ədliyyə sisteminə çıxışı baxımından Azərbaycan Qanunvericiliyinin təhlili: Avropa ittifaqının dəstəyi ilə dərc edilmişdir, (2014).

22. R.T.Səmədov, D.R.Əhmədov, N.Z.Seyidov redaktor-luğu və tərcüməçiliyi ilə Yuvenal ədliyyə, (2006).

23. Andres Lehtmets və Jörg Pont, Həbsxanada səhiyyə və tibb etikası, (2017)

24. Naidə Hacıyeva, Estetika, peşə etikası və psixologiya, (2012).

25. Günel Nağdəliyeva, Reabilitasiya anlayışı, təşəkkülü və inkişafı (2017), https://elibrary.az/docs/jurnal/jrn2017 _773.pdf.

26. Yəhya Abdullalı və Nihad Məlikov, *Məhkumluğun ödənilməsi institutu: məhkumluq qeydinə ehtiyac varmı?,* Elsa hüquq jurnalı (2024).

27. Əlizadə C. Ş., Problems of social adaptation of persons freed from punishment in penitentiary institutions, "Juridical Sciences and Education", (2020).

28. Nazmiye Tirali, çocuk çezaevi iç mimarisi üzerine bir inceleme, Lizans tezi (2000).

29. Cenver Kozanoğlu, İslahevindeki hükümlü çocuklarda kişisel ve sosyal uyum, yüksek lizans tezi (2001).

30. Doç. Dr. Cumhur Şahin. Tahliye öncesi ve sonrası hükümlüye ve eski hükümlüye yardım, https://dergipark.org.tr/tr/pub/ahbvuhfd/issue/48135/608840.

31. Murat Erusta. Türkiyede hükümlü ve eski hükümlülere yönelik sosyal politikalar: Diploma Tezi (2016).

32. Dr. Eylem Ümit Atılgan, Araştırmacının hapishane günlüğü: çocuk ceza infaz kurumlarında gerçekleştirilmiş bir akademik araştırmanın günlüğü, (2017).

33. Ramazan Aydoğan ve Rabia Şahin, Cezaevi, damga ve işsizlik bağlamında hükümlüyü incelemek, 158-163 Türkiyede denetimli Serbestlik, 10. Yıl Uluslararası Sempoz-yumu, bildirim kitabı "Uluslararası Yaklaşımlar" (2015).

34. Rahşan Balamir Bektaş ve Ayça Gelgeç Bakacak, Differing Faces of Discourse on Social Control in Modernity. 35 Edebiyat Fakültesi Dergisi (2009).

35. Dr. Sedat KULA ve Dr. Bekir ÇAKAR, Maslow İhtiyaçlar Hiyerarşisi Bağlamında Toplumda Bireylerin Güvenlik Algısı ve Yaşam Doyumu Arasındaki İlişki, Bartın Üniversitesi İ.İ.B.F. Dergisi (2015).

36. Mimar Türkkahraman, Toplum ve Temel Toplumsal Kurumlar, Kurumlar Sosyolojisine Giriş (2006).

37. Fichter Joseph, Sosyoloji Nedir, Çev. Nilgün Çelebi, (2004).

38. Serdar Şahin, “Bir Sosyalleşme Mekanizması Olarak Askerlik Kurumu”, (2007).

39. Sosyalleşme Ve Sosyalleşme Süreci (2013), Https://Www.Researchgate.Net/ Publication/ 315386774_ Sosyallesme_Ve_So Syal-Lesme_Surecı.

40. Enver Özkalp, Sosyolojiye giriş, (2007).

41. Özdemir, Ş., Cezaevi Din görevlileri ve yöneticilerine göre cezaevlerinde din eğitimi, Din Bilimleri Akademik Araştırma Dergisi (2002).

42. Orhan Koçak, Serdar Altun. Ceza infaz kurumundaki mesleki eğitim faaliyetlerinin hükümlü istihdamına katkıları, Çalışma İlişkileri Dergisi (2010).

43. Salih Kalkan. Ceza infaz kurumlarında mesleki eğitim ve rehabilitasyon uygulamaları: türkiye ve abd’nin karşılaştırılması, (2016).

44. Elif Feyza Kocabaş. Her suçlunun yeri cezaevi mi? Suçlunun topluma yeniden kazandırılması ve denetimli serbestlik (2014), https://docplayer.biz.tr/24816936-Her-suclunun-yeri-cezaevi-mi-suclunun-topluma-yeniden-kazan dirilmasi-ve-denetimli-serbestlik-elif-feyza-kocabas.html.

45. Selma Soytürk, Hükümlü ve tutukluların sosyal hizmet gereksinimlerinin değerlendirilmesi: karaman m tipi kapalı-açık cezaevi örneği, (2013).

46. Andrew Coyle, Cezaevi Yönetimine İnsan Haklarını Göz Önüne Alan Bir Yaklaşım, Uluslararası Cezaevi Araştır-maları Merkezi (2002).

47. Erwing Goffman, Damga (2014).

48. Irish Prison Service. Doing More with Less: Prisoner Rehabilitation in Ireland, (2019).

49. Davis, Lois M., Robert Bozick, Jennifer L. Steele, Jessica Saunders and Jeremy N. V. Miles Evaluating the Effectiveness of

Correctional Education, Rand Corporation, 2013, https://www.rand.org/content/dam/rand/-pubs/research _reports/RR200/RR266/RAND_RR266.pdf

50. Beata Maria Nowak, Social Reintegration of Prisoners in Selected European Union Countries, Polish Journal of Social Rehabilitation (2015).

51. Edwards R. A. (1998) Regulation and repression, Sydney:Allen &.Unwin.

52. Tikkanen, I. (2007). Maslow' s hierarchy and food tourism in Finland: five cases, 723, British Food Journal, 109(9), 721–734 (2007)

53. Christy A. Visher and etc. Fatherhood, Community Reintegration and Successful Out-comes, Journal of Offender Rehabilitation, 451–469 (2013).

54. Celeste Davis, Stephen J Bahr and Carol Ward. The process of offender reintegration: Perceptions of what helps prisoners reenter society, Criminology & Criminal Justice, 446–469 (2012).

55. Mark T. Berg and Beth M. Huebner, Reentry and the Ties that Bind: An Examination of Social Ties, Employment, and Recidivism, Justıce Quarterly 382-410 (2011).

56. Christopher Uggen and Jeremy Staff. Work as a Turning Point for Criminal Offenders, http://users.soc.umn. edu/~uggen/Uggen_Staff_CMQ_01.pdf

57. Mark R. Pogrebin, Mary Dodge. Women's accounts of their prison experiences A retrospective view of their subjective realities, Journal of Criminal Justice (2001).

58. Селиверситова В.И., Уголовно-исполнительное право: Учебник, (2009).

59. Сулимова Алина Алексеевна, Социальная адаптация лиц, освободившихся из мест лишения свободы: барьеры и

пути их преодоления, Научно-методический сборник «Социальная работа: теория, методы, практика», (2012).

60. А.А. Фомин, Реабилитация Осужденных В Механизме Обеспечения Их Права На Достойное Существование После Отбывания Наказания, Всерос-сийский криминологический журнал, 271 (2020).

61. Ю. В. Ерохина, Социально-Педагогическая Реабилитация Осужденных И Роль Искусства В Ней, Уголовное право. Уголовный процесс. Криминалистика (2019).

62. О. Г. Ананьев, Б. В. Александров, Г. В. Щербаков, Ресоциализация И Социальная Адаптация В Уголов-ноисполнительной Системе, (2021).

63. Azərbaycanda cinayətkarlığın əsas göstəriciləri (2023), https://stat.gov.az/source /crimes/az/002_1.xls.

64. Məhkum olunanların tərkibi (2023), https://stat.gov. az/source/crimes/az/ 009_4.xls (son baxış iyun 15, 2024).

65. Cinayət törətmiş qadınlar (2023), https://stat.gov. az/source/crimes/az/003_12 .xls.

66. Cinayət törətmiş şəxslərin sosial-demoqrafik əlamət-lərinə görə bölgüsü https://stat.gov.az/source/ crimes/az /003_11.xls

67. Физическая реабилитация (2013), https://academia-moscow.ru/ftp_share/_ books/fragments/ fragment_21636.pdf..

68. Abraham Maslow İhtiyaçlar Hiyerarşisi(2015), https://vdocuments.mx/abraham-maslow-ihtiyaclar-hiyerarsisi.html

69. Prison Populations Continue to Rise in many Parts of the World, with 11.5 Million Held in Prisons Worldwide (2024), https://www.bbk.ac.uk/news/prison-populations-conti nue-to-rise-in-many-parts-of-the-world-with-11-5-million-held-in prisonsworldwide#:~:text=Approximately%2011.5 %20million%20people %20are,at%2 Birkbeck%2C%20 University%20of%20London (son baxış iyun 15, 2024).